ADNAN OKTAR (HARUN YƏHYA)

# QURAN MÖCÜZƏLƏRİ - 3

ADNAN OKTAR (HARUN YƏHYA)

# QURAN MÖCÜZƏLƏRİ — 3

*Quranda elmi və riyazi möcüzələr: ədədlərlə işarə edilən elmi məlumatlar, hərf düzülmələri, kimyəvi elementlər və diqqət çəkici ədədlər — 14 əsr öncədən bu günə üzərində elm işığı saçan İlahi işarələr.*

— 11 fəsil —

# Mündəricat


1 Oxucuya 4

2 Yazıçı və əsərləri haqqında 6

3 Ön söz 9

4 Quranda elmi möcüzələr 12

5 Birinci hissə: Quranda ədədlərlə işarə edilən elmi məlumatlardan bəziləri 89

6 İkinci hissə: Quranda hərf düzülmələriylə işarə edilən elmi məlumatlardan bəziləri 98

7 Üçüncü hissə: Quranda işarə edilən kimyəvi elementlərdən bəziləri 119

8 Dördüncü hissə: Quranda diqqət çəkici ədədlər 160

9 Əlavə bölmə: Təkamül yalanı 182

10 Ədəbiyyat 210

11 Şəkilaltı yazıları 216

FƏSİL

# Oxucuya

Bu kitabda və digər əsərlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhinə olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısı ilə Allahın varlığını inkar edən darvinizm, 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu ortaya çıxarmaq əhəmiyyətli imani vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Buna görə də, hər kitabımızda bu mövzuya qısaca da olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd ediləcək başqa bir məqam isə, bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar “bir nəfəsə oxunan kitablar” ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə, bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə

əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salan tərəfi son dərəcə güclüdür. Buna görə də, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxuyacağına ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin qaynağın mövcud olduğuna şahid olacaq.

Bu əsərlərdə, digər yerlərdə görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, dini mentalitetə qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

FƏSİL

# Yazıçı və əsərləri haqqında

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 73 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (s) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Quranın Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (s) Xatəmül-Ənbiya olduğunun rəmzidir. Yazıçı bütün əsərlərində Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu şəkildə inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün əsərlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniyaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, indoneziya, malay, benqal, serb, bolqar, çin, danimarka və isveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər, xarici ölkələrdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanı dərk edər. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın fikir və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq duyğusal inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan qaldırılmışdır. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə alındıqda insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aradan qaldırmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarmaqarışıqlığın, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və xaos mühitini diqqətə aldıqda bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaqdır.

FƏSİL

# Ön söz

Quran-i Kərim, Allahın vəhyi olaraq günümüzə qədər heç bir təhrif olunmadan tək haqq kitabdır. Uca Rəbbimiz Quranın heç bir şəkildə təhrif edilə bilməyəcəyini, qorunmuş kitab olaraq qalacağını bizə Quran ayələriylə bildirmişdir:

> *Rəbbinin kəlamı həm doğruluq, həm də ədalət baxımından tamamlanmışdır. Heç kəs Onun kəlmələrini dəyişə bilməz. O, Eşidəndir, Görəndir.*
>
> **(Ənam surəsi, 115)**



> *Şübhəsiz ki, Zikri Biz nazil etdik, əlbəttə, Biz də onu qoruyacağıq.*
>
> **(Hicr surəsi, 9)**

Quranın Allahın sözü olduğunu isbat edən möcüzəvi xüsusiyyətlərindən bəzilərinə bu kitabın birinci və ikinci cildində toxunmuşduq. Quranın endirildiyi dövrdə bilinməsi mümkün olmayan elmi həqiqətlər, keçmiş dövrlərlə əlaqədar verilən xəbərlər, gələcəklə əlaqədar işarə edilən hadisələr, söz təkrarları, 19 rəqəmi ilə əlaqədar hesablamalar, əbcəd üsulu ilə ortaya çıxan diqqət çəkici tarixlər, Quranın möcüzəvi

istiqamətlərindən yalnız bir qismidir. Quran elmi və riyazi möcüzələri ilə yanaşı, bənzərsiz üslubu və qafiyə sistemindəki üstünlük ilə də təqlid edilə bilməzdir (Ətraflı məlumat üçün baxın: Harun Yəhya, "Quran möcüzələri", genişləndilmiş 4-cü nəşr).

Quran möcüzələri ilə əlaqədar ilk işimizdən indiyə qədər edilən araşdırmalarla, bu möcüzəvi nümunələrin sayı artmışdır, artmağa da davam etməkdədir. Quran ayələrinin təşbehli olma (birdən çox mənanı vermə) xüsusiyyəti sayəsində, gələcək illərdə də Quranın daha bir çox möcüzəsinin gün işığına çıxması gözlənilir (doğrusunu Allah bilir). Quran-i Kərim sonsuz ağıl və elm sahibi Uca Allahın sözü olaraq, insanların qavraya bilmədiyi, ya da hələ anlamağa bilgilərinin yetərli olmadığı bir çox məlumatı da əhatə etməkdədir. Bu məlumatlar inkişaf edən texnologiya və elm sayəsində, (Rəbbimizin dilədiyi zamanda və dilədiyi miqdarda) gün işığına çıxmaqda və Quranın möcüzəvi istiqamətlərini gücləndirməkdədir.

Şübhəsiz Quranın Allahın vəhyi olduğuna iman etməmiz üçün, bu cür möcüzəvi xüsusiyyətlər, ya da Quranın elmlə uyğunlaşmasını təsdiq edən nümunələr görməmizə ehtiyac yoxdur. Quran elmi kəşflər edilmədən əvvəl də insanlar üçün doğrunu səhvdən ayıran, Allahın sonsuz hikmət və elmini əks etdirən bir kitabdır. Ancaq bu kitabdakı nümunələr, din əxlaqından uzaq yaşayan bir çox kimsənin imana gəlməsinə, müsəlmanların isə şövqlərinin artmasına və imanlarının dərinləşməsinə vəsilə olmaqdadır. Bir Quran ayəsində Rəbbimiz belə buyurmaqdadır:



> *Quranın haqq olduğu onlara aydın olana qədər, Biz dəlillərimizi onlara həm kainatda, həm də onların özlərində mütləq göstərəcəyik.*
>
> **(Fussilət surəsi, 53)**

FƏSİL

# Quranda elmi möcüzələr



## Fosilləşmə və dəmirin tərkibi

**Onlar deyirlər: "Biz sür-sümük və toz halına düşdüyümüz zaman yeni bir məxluq kimi dirildiləcəyikmi?" De: "İstər daş olun, istər dəmir, və ya sizə nəhəng görünən bir məxluq olun, yenə də Allah sizi diriltməyə qadirdir". Onlar deyəcəklər: "Bizi həyata kim qaytaracaq?" De: "İlk dəfə sizi yaradan!"... (İsra surəsi, 49-51)**



Üzərində dəmir qalıqları əmələ gəlmiş milyonlarla illik daşlaşmış dəniz çanağı fosili

Yuxarıdakı ayələrdə, insanların ölü bədənlərinin daşlaşmasına və dəmirə çevrilməsinə işarə edilməkdədir. Canlı toxuması milyonlarla il boyunca qoruna bilməz. Bu səbəblə insanların keçmişdə yaşamış canlıları görmələri, ancaq bunların qalıqlaşması ilə mümkün olar. Canlılar öldükdən sonra, bədənləri torpağın altında daşlaşaraq, fosillər halında illərlə qoruna bilər. Lüğətdə "fosil" sözünün mənası açıqlanarkən, "daşlaşmış canlı qalığı" kimi ifadə ilə, xüsusilə daşlaşmağa diqqət çəkilməkdədir.

Fosilləşən bədəndə, eyni zamanda dəmir elementi də pozulmadan saxlanar. İnsanın sağlam yaşaması üçün gündə orta hesabla 10-15 milliqram dəmir istehlak etməsi lazımdır. Gündəlik bəslənmə yoluyla

alınan dəmirin çoxu qaraciyərdə yığılar. Bundan əlavə, transferin proteini qan plazmasında bəlli miqdarda dəmir daşıyır. Bu səbəblə insan bədəninin fosillərində dəmir olar. Ayədə insan bədəni fosillərində dəmir olduğuna diqqət çəkilməsi də, bu baxımdan son dərəcə hikmətlidir.

Ayələrin davamında da Allah əhəmiyyətli bir həqiqəti xatırlatmaqdadır: Xəyalınızda düşündüyünü, böyüdüyünü, inkişaf etdiyini, təkamülləşdiyini zənn etdiyiniz qəribə bir məxluq da olsanız, meymunabənzər bir varlıq da olsanız fərq edən bir şey olmayacaq. Allah, insanların meymundan inkişaf edərək təkamülləşdiyini iddia edən kəslərə, hər nə şəkildə yaradıldıqlarını düşünürlərsə düşünsünlər bu səhv azğın inanclarının bir şey dəyişdirməyəcəyini xəbər verməkdədir. Ayədə Allahın yaratmasını inkar edən bütün insanların axirətdə cəhənnəm üçün hazır ediləcək şəkildə, yenə tam təşəkküllü bir insan görünüşündə yaradılacaqları bildirilməkdədir.

Quran ayələriylə insanların daşlaşaraq fosillərə və dəmirə çevriləcəyinin bildirilməsi, bu gün elmi olaraq təsdiq edilmiş bir həqiqətdir. Ayələrin endirildiyi dövrdə arxeoloji, paleontoloji, geoloji, ya da astronomik araşdırmalar edilmədiyi kimi, elektron mikroskopuyla elementlərin təsbiti də mümkün deyildi. Bu baxımdan yuxarıdakı ayələrdə bildirilən həqiqətlər, Quranın İlahi bir kitab olduğunu bir daha təsdiqləməkdədir.




125 milyon illik tısbağa fosili (solda)

# Dağlardakı radio qəbulediciləri



*Biz Davuda Özümüzdən bir lütf bəxş etdik və buyurduq: "Ey dağlar və quşlar! Onunla birlikdə Allahın şəninə təriflər deyərək əks səda verin!" Biz dəmiri onun üçün yumşaltdıq.*

**(Səba surəsi, 10)**

Yuxarıdakı ayədə dağların "şəninə təriflər deyin" ifadəsi, radioların iş sisteminə bir işarə ola bilər (doğrusunu Allah bilir). Bunun üçün radioların iş sistemini qısaca belə yekunlaşdıra bilərik:

Radio, qəbuledicilər və vericilər şəklində iki hissədən meydana gələr. Verici, göndərilmək istənən mesajı şifrələyərək, "sinus dalğası" olaraq qarşı tərəfə çatdırar. Qəbuledici də radio dalğalarını alar və göndərilən sinus dalğası üzərindəki mesajın şifrəsini açar. Bu sayədə vericidən göndərilən mesajın eynisini, qarşı tərəf almış olar. Ayədə "əks səda verin" olaraq tərcümə olunan və "səsin geri qayıtması, təkrarlanması" mənalarını verən "evvibi" sözü də radiodakı səs dalğasının çatdırılmasına işarə etmiş ola bilər (doğrusunu Allah bilir).




1. Gələn radio dalğaları 2. Əks etdirici 3. Qidalama boynuzu 4. Kabellər (siqnalın idarə otağına daşınması üçün)

Vericidən göndərilən məlumatın alınması üçün antena yoluyla göndərilən radio dalğaları şəklindəki səslər, yenə qəbuledicinin bağlı olduğu bir antena yoluyla qarşılanar. Antenanın istifadə məqsədi, radio vericisindən göndərilən dalğaların kosmosa çatdırılmasıdır. Qəbuledici vəzifəsi görən antena isə, ən çox radio dalğasını yığmağı və mesajı almağı hədəfləyər. Bu səbəblə milyonlarla kilometr uzaqlıqda olan peyklər üçün, NASA 70 metr diametrində nəhəng peyk antenaları istifadə etməkdədir. Bunların xaricində, radio dalğaları istifadə edilərək göstərməyi hədəfləyən radio

teleskopları da vardır. Radio dalğa boyları çox böyük olduğu üçün, bir radio teleskopunun da fiziki olaraq görünüşləri müqayisə edilə bilər dəqiqlikdə ala bilməsi üçün, daha böyük olması lazımlıdır. Radio dalğanı daha yaxşı və daha dəqiq etmək üçün, astronomlar daha kiçik bir neçə teleskopu, ya da qəbuledici çanaqları bir sıra halında birlikdə istifadə edərlər. Bu teleskoplar birlikdə böyük tək bir teleskop kimi davranarlar. Bunların görünüşü də sıra dağlara bənzəməkdədir.

Həmçinin, radio ünsiyyətində uzaq məsafələrdə ünsiyyətə imkan təmin etmək üçün "təkrarlayıcılar" (repeater) istifadə edilməkdədir. İngilis dilində təkrar edən mənasındakı "repeater" sözüylə adlandırılan bu cihazlar, zəif siqnalları təkrarlayaraq gücləndirər və uzaq məsafələrə çatdırılmasını təmin edərlər. Bu cür cihazlar xüsusilə yüksək binaların və ya tərcih olunan dağların üzərinə yerləşdirilərək ən yüksək təsir meydana gətirməsi təmin edilər.

Ayədə dağlara diqqət çəkilməsi, və "təkrarlamaq, dönmək, səsi geri qaytarmaq" mənalarını verən "evvibi" sözünün istifadə edilməsi son dərəcə hikmətlidir. Səba surəsi 10-cu ayədəki "Ey dağlar və quşlar! Onunla birlikdə Allahın şəninə təriflər deyərək əks səda verin!" ifadəsi bu texnologiyaya işarə edir ola bilər (doğrusunu Allah bilir).



NASAla bu fotoda Apollo 12-nin S diapazonlu anteni görülməkdədir.

# Dünyanın cazibə qüvvəsi

*Məgər Biz yeri məskən etmədikmi?*

**(Mürsəlat surəsi, 25)**


Isaac Newton

Yuxarıdakı ayədə "məskunlaşma yeri" olaraq tərcümə olunan "kifaten" sözü, "canlıların, məskənlərində toplanıb himayə edilmələri, sığınmaları; canlı və cansızların toplandıqları yerlər; üzərində şeylər yığılan; toplanan yer" mənalarını daşımaqdadır. Yer kürəsinin "məskunlaşma yeri" olduğunu bildirmək üçün istifadə edilən bu söz (kifaten) Ərəb dilində "kefete" kökündən törəmişdir və "yığmaq, özünə çəkmək, əhatə etmək" mənalarını verməkdədir.

Bilindiyi kimi Yer kürəsi, cazibə qüvvəsi təsiri ilə insanları və üzərində saxladığı bütün canlı və cansız varlıqları mərkəzinə doğru çəkməkdədir. Ayədə keçən "özünə çəkmək" hərəkəti ilə Yer kürəsinin bu cazibə qüvvətinə bir istiqamətiylə işarə edilmiş ola biləcəkdir (doğrusunu Allah bilir).

Dünya üzərində heyvanları, bitkiləri, insanları və digər bütün varlıqları özünə doğru çəkən cazibə sayəsində, insanların yerə basmaları, cisimlərin uçmadan olduqları zəmində dayanmaları, atmosferin dağılmadan Dünyanı əhatə etməsi, yağışın Yer kürəsinə düşməsi mümkün olar.

Tarixdəki ən böyük elm adamlarından qəbul edilən Isaac Nyuton yerin bu xüsusiyyətini araşdırmış və 1687-ci ildə ilk dəfə "Philosophiae Naturalis Principia Mathematica" (Təbiət fəlsəfəsinin riyazi qanunları) adlı əsərində

cazibə qüvvəsindən danışaraq, bütün zamanların ən böyük elmi kəşflərindən birini etmişdir. Hətta, Nyutonun cazibə qüvvəsindən bəhs edərkən istifadə etdiyi Latınca "attraere" sözü də, "çəkmə, bir yerə gətirmə" mənalarını daşımaqdadır.

Ancaq 17-ci əsrdə müəyyən olunan və Dünyanın dörd böyük qüvvəsindən biri olan cazibə qüvvəsi, Quranda diqqət çəkilməsi, Quranın Allahın Qatından endirildiyinin dəlillərindən biridir.

## Atomun möhkəmliyi və elektron orbitalları



*Sən dağlara baxıb onları hərəkətsiz durmuş güman edərsən, halbuki onlar bulud keçdiyi kimi keçib gedərlər. Bu, hər şeyi kamil şəkildə edən Allahın işidir. Şübhəsiz ki, O, etdiklərinizdən xəbərdardır.*

**(Nəml surəsi, 88)**

Yuxarıdakı ayədə bütün maddələrin təməl daşı olan atomun möhkəmliyinə və atomların elektron orbitallarına işarə edilmiş ola bilər. Atomlar baxımından baxıldığında, ayədəki Allahın "möhkəm" etdiyi ifadəsi, atomların çəkiclə vurulsa belə dağılmayan möhkəm strukturları olaraq izah oluna bilər (doğrusunu Allah bilir). Çünki əşyalar möhkəm olmaz, ancaq atom möhkəmdir. Məsələn bir vaza qırılsa, parçalansa belə onu meydana gətirən atomlar yenə möhkəm qalar. Şiddətli bir çarpmada avtomobil dağıla bilər, partlamaqla göydələn yıxıla bilər; istər narın bir

çiçək, istəsə güclü bir metal olsun vəziyyət eynidir: Maddənin atomları pozulmaz, orbitləri dağılmaz. Bu səbəbdən ən zəif quruluşlu görünən maddə belə, əslində yaradılışında çox möhkəmdir. Ayədə "hər şey" deyilməsinin hikməti də, bütün maddələrin əsasının atom olması ola bilər.




1. Mis

Atomdakı bağları parçalayaraq yaradılan nüvə bombalarında belə, ortaya yenə möhkəm başqa strukturlar çıxar. Nüvə parçalama reaksiyası nəticəsində, atomun nüvəsi parçalanar və daha kiçik iki atoma ayrılar.

Nüvə parçalamada isə iki kiçik atom bir yerə gətirilərək daha böyük bir atom yaradılar. Məsələn Günəş enerjisi bu üsulla (hidrogenin heliuma çevrilməsi ilə) istehsal olunmaqdadır. Nəticə olaraq kainatda maddədən enerjiyə, enerjidən maddəyə davamlı bir çevrilmə və atom səviyyəsində kainatın daxilində etibarlı bir möhkəmlik mövcuddur.

Digər bir istiqamətdən ayədə dağların, buludların sürüşməsinə bənzədilən hərəkəti ilə, atomların nüvələri ətrafındakı elektron buludlarına işarə edilir ola bilər (doğrusunu Allah bilir). Dağları meydana gətirən atomların orbitlərindəki elektronlar, nüvə ətrafında davamlı və sürətli hərəkətlərindən ötrü bir bulud görünüşü alarlar. Necə ki, atomun orbitindəki elektronlar, elmi ədəbiyyatda da "elektron buludu" olaraq təyin olunmaqdadır.1 Elektron buludu anlayışı, molekulyar fizika, kimya, ya da kvant kimyasında, elektronların atom nüvəsi ətrafında, buluda bənzər şəkildə hərəkət etmələrini təsvir etmək üçün istifadə edilir.2

Elektron mikroskopu kimi üstün texnologiya məhsulu alətlər ilə müşahidə etmədən atomun quruluşunu anlamaq, elektronların bu görünüşlərini təsbit etmək mümkün deyil. 14 əsr əvvəl üstün texnologiya tələb edən elmlər haqqında, Quranda verilən məlumatların hər dəfə tam doğru olması, Quranın möcüzələrindən biridir. Həmçinin Rəbbimizin Alim (hər şeyi çox yaxşı bilən), Fatır (Yaradan, icad edən) və Xaliq (hər şeyin varlığı boyunca görüb keçirəcəyi halları, hadisələri təsbit və təyin edən və ona görə yaradan, yoxdan var edən) sifətlərinin bir təcəllisidir.


Electron
$<10^{-16}$cm
4
Proton
(Neutron)
5
Quark
$<10^{-16}$cm
Nucleus
$\sim10^{-12}$cm
Atom $\sim10^{-8}$cm
1
2
$\sim10^{-13}$cm
3

1. Atom 2. Nüvə



## Toxunmuş səma

*"Özən içində yollar və orbitlərlə təchiz edilmiş" göyə and olsun.*

(Zəriyət surəsi, 7)

Yuxarıdakı ayədə "təchiz edilmiş" olaraq tərcümə olunan "elhubuk" sözü "habeke" feilindən törəmişdir. Bu feil isə "bir şeyi yaxşı və möhkəm toxumaq; hörmək; möhkəm bağlamaq, yaxşı şəkildə düyünləmək; tərtib etmək" mənalarını verməkdədir. Zəriyət surəsinin 7-ci ayəsində istifadə edilən "elhubuk" sözünün bu mənalarını düşündükdə səmanın toxunmuş, ya da hörülmüş bir parça kimi olduğu aydın olmaqdadır. Ayədə bu sözün istifadə edilməsi son dərəcə hikmətlidir və dövrümüzün elmi izahlarını iki istiqamətdən təsdiq etməkdədir.

Birinci istiqaməti belədir: Kainatdakı orbit və yollar, elə sıx və bir-biri içinə keçmişdir ki, sanki bir parça toxumasındakı kimi bir-birləri ilə kəsişən xətlər meydana gətirməkdədir. İçində yaşadığımız Günəş Sistemi, Günəş, planetlər, onların peykləri, meteorlar və kometa kimi davamlı hərəkət halındakı göy cisimlərindən meydana gələr. Günəş Sistemi də 400 milyard ulduz ehtiva edən Süd Yolu qalaktikası içində bir yol izləyər.3 Kosmosda isə milyardlarla qalaktika olduğu təxmin edilməkdədir. Minlərlə kilometrlik sürətlə dönən göy cisimləri, sistemlər, bir-biriylə toqquşmadan, kosmosda bir-birini kəsən yollar izləyərlər.




A. Günəş sisteminin içi B. Günəş sisteminin xarici hissəsi C. Oort buludunun daxili zonası D. Sednanın orbiti

Ulduzların mövqelərini və planetlərin hərəkətlərini tam olaraq xəritələrini hazırlayan astrometriya elmi, yenə göy cisimlərinin hərəkətlərini araşdıran göy mexanikası bu kompleks orbit üzrə hərəkətləri təsbit etmək üçün ortaya çıxmışdır. Qədim zamanlarda astronomlar, orbitlərin yalnız dairəvi olaraq hərəkət etdiklərini fərz etmişlər. Halbuki dövrümüzdə göy cisimlərinin dairəvi, elliptik, parabolik və hiperbolik kimi müxtəlif riyazi nizamlarda orbitləri olduğu bilinməkdədir. Pittsburgh Universitetindən Dr. Carlo Rovelli, bu vəziyyəti

“içində yaşadığımız kosmos, inanılmaz dərəcədə kompleks toxunmuş bir şəbəkə” şəklində olduğunu ifadə etməkdədir.4

İkinci bir istiqamət olaraq, Quranda səmanın “toxunmuş, hörülmüş” mənasını verən bir sözlə təsvir edilməsi, fizikadakı “Sim nəzəriyyəsi”nə (String Theory) işarə edir ola bilər (doğrusunu Allah bilir). Bu nəzəriyyəyə görə kainatı meydana gətirən ən fundamental komponentlər, nöqtə kimi hissəciklər deyil; titrəşən miniatür skripka tellərinə bənzəyən ipliklərdir. Tək ölçülü, çox kiçik, bir-birinin eynisi, halqalar şəklində dalğalanan bu ipliklərin, düyün görünüşündə olduqları qəbul edilməkdədir. Skripkanın tellərinin fərqli titrəşmələrindən fərqli səslər çıxması kimi, kainatdakı bütün müxtəlifliyin qaynağının da, bu simlərin fərqli nizamlardakı titrəşmələri olduğu fərz edilməkdədir.5

Eynşteynin ümumi nisbilik, kvant mexanikası kimi nəzəriyyələri tutarlı halda birləşdirən tək nəzəriyyə olaraq, “Sim nəzəriyyəsi”ndə simlərin böyüklüyünü görmək mümkün olmasa da, bu böyüklük riyazi olaraq hesablana bilməkdədir. Elm adamlarının, kosmos-zamanın toxunduğu material olaraq qəbul etdikləri bu simlər (string), 1,6x10-35 m.-dir.6 Plank uzunluğu deyilən bu ölçü, bilinən ən qısa uzunluqdur və atomun nüvəsini meydana gətirən protonların 10-20 qatı qədərdir.7 Əgər bir atom, Günəş Sisteminin ölçüsü qədər böyüdülsəydi, bu simlərdən hər biri bir ağac böyüklüyündə olardı.8 Bir atomun, adi gözlə görülən ən kiçik şeydən 100.000 qat daha kiçik olduğu düşünülsə, bəhs edilən uzunluğun kiçikliyi daha yaxşı aydın ola bilər.

Pensilvaniya Universitetindən fizika professoru Abhay Ashtekar və Varşava Universitetindən fizika professoru Jerzy Lewandowski “Space and Time Beyond Einstein” (Eynşteyndən uzaqda kosmos və zaman) başlıqlı məqalələrində, kosmosun toxunmuş görünüşünü bu ifadələrlə izah etməkdədirlər:



Üstdəki şəkildə Samanyolu qalaktikasındakı yalnız yeddi ulduzul illik hərəkətləri görülməkdədir.

Bu nəzəriyyəsində Eynşteyn cazibə sahəsini, kosmos və zaman parçasının içinə toxudu... Hamımızın alışmış olduğu sabitlik sadəcə bir təxmindir. Əlverişli olması üçün 2 ölçülü bir sabitliyi təmsil edir; lakin həqiqətdə 1 ölçülü ipliklərlə hörülür. Eynisi kosmos-zaman parçası üçün də keçərlidir. Bunun tək səbəbi bu parçanı toxuyan "kvant ipliyi" kainatın bizim yaşadığımız bölgəsində son dərəcə möhkəm toxunmuş olması və bizim bunu bir davamlılıq hesab etməyimizdir. İpliklərin hər birinin, ya da polimer hərəkətliliyinin, bir səthlə kəsişməsi vəziyyətində, təxminən 10-

66 cm2 ölçülərində “Plank kvant” sahəsi meydana gəlir. Bu da 100 cm2-lik bir sahədə buna bənzər təxminən 1068 kəsişmənin reallaşdığını göstərir. Rəqəm bu qədər yüksək olduğu üçün bu kəsişmələr bir-birlərinə çox yaxındırlar və biz də bunları bir davamlılıq olaraq görüb yanılırıq.9

“New York Times” qəzetində “Kainat necə inşa edildi?” adlı məqalədə də bu cür bəhs edilir:

Protonları, neytronları və digər hissəcikləri meydana gətirən kiçik kvarklar belə, Plank miqyasında var ola biləcək kələ-kötürlükləri hiss edə bilməyəcək qədər böyükdür. Lakin yenə də qısa müddət əvvəl fiziklər, kvarklarla birlikdə var olan hər şeyin daha kiçik obyektlərdən meydana gəldiklərini irəli sürdülər. Bunlar 10 fərqli ölçüdə titrəşən super-simlərdir. Plank miqyasında kosmos-zamanın toxuması, Misirin ən nadir pambıqlı parçasının böyüdücü şüşə altında əyrilərin və hörgülərinin sərgilənməsi kimi aşkar olacaq.10




a. 1 metr $10^{0}$ m b. 1 millimetr $10^{-3}$ m c. 1 mikrometr $10^{-6}$ m d. 1 nanometr $10^{-9}$ m e. 1 pikometr $10^{-12}$ m

Nəzəri fizika alimi Lee Smolin, “Three Roads to Quantum Gravity” (Kvant çəkilişinə üç yol) adlı kitabında “How to Weave A String” (İplik necə toxunar) adlı bir hissəyə yer verməkdə və mövzu ilə əlaqədar bunları ifadə etməkdədir:

...Kosmos ilmələr toru şəklində “toxunmuş” ola bilər... eynilə bir hissə parçasının ipliklər toru halında “toxunmuş” olması kimi.11




A. Standart model B. Sim nəzəriyyəsi C. Yüksək miqyaslı aşağı enerjilər D. Aşağı miqyaslı yüksək enerjilər

Kosmologiya alimi və astrofizik prof. Martin Rees, “Our Cosmic Habitat” (Kosmik yurdumuz) adlı kitabında mövzu haqqında belə ifadə etməkdədir:

Bugünkü konsepsiyalarla kosmos boşluğu çox sadədir... lakin daha kiçik bir ölçüdə araşdırıldığında bir-birinə keçmiş simlər halında ola bilər.12

Allahın Zəriyət surəsinin 7-ci ayəsində kainatın bir parça kimi toxunmuş, orbitlər-yollarla hörülmüş olduğunu bildirməsi, Quranın elmlə fövqəladə uyğunluğunu göstərir. Daha bir çox nümunədə gördüyümüz kimi, 14 əsr əvvəl Quranda bildirilən bütün məlumatların, dövrümüzdə elmi məlumatlarla təsdiq edilməsi son dərəcə düşündürücüdür. Quranın elmi inkişaflarla olan bu mükəmməl uyğunluğu, hər şeyi yaradan və hər şeyi ən yaxşı bilən Rəbbimizin sözü olduğunu açıq şəkildə ortaya qoymaqdadır. Bir ayədə Allah belə buyurmaqdadır:

> *Məgər onlar Quran barəsində düşünmürlərmi? Əgər o, Allahdan başqası tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət tapardılar.*
>
> **(Nisa surəsi, 82)**

## Aerodinamik qüvvə və quşlardakı proqramlaşdırılmış uçuş

> *Məgər onlar Allaha tabe olub havada uçan quşları görmürlərmi? Onları havada saxlayan ancaq Allahdır. Həqiqətən, bunda iman gətirən insanlar üçün dəlillər vardır.*
>
> **(Nəhl surəsi, 79)**

ünyadakı cazibə səbəbi ilə, bütün cisimlər havaya buraxıldığında sürətli, ya da yavaş yerə düşər. Canlı, ya da cansız Yer kürəsindəki hər şey bu cazibənin təsirindədir. Ancaq quşlar Allahın bir möcüzəsi olaraq bu qüvvəyə müqavimət göstərə bilər və havada alçalıb yüksələrək uçar; manevr edər, ya da bəzən qanad çırpmadan süzülərlər. Quşların skeletindən ağciyərinə, lələklərinin düzülüşündən qanad formalarına



Pitsburq Universitetinin fiziki Karlo Rovelli maddənin mikroskopik quruluşunu təsvir etmək üçün tor kimi toxunmuş model təqdim edir.

D qədər bütün detalları, uçmalarını təmin edəcək xüsusi quruluş və nizamla yaradılmışdır. Uçma hərəkətindən və aerodinamika qanunlarından xəbəri olmayan bala bir quş da, doğulduğu andan uçuş bacarığına sahib olar. Bala quş sanki uçuşa uyğun bir bədəni olduğunu bilirmiş kimi, özünü yüksəkdən aşağı buraxar və uçmağa başlayar. Bu, quşa sonradan təlimlər, ya da quşun sınama-yanılma üsulu ilə öyrəndiyi bir məlumat deyil. Quşun uça biləcək bədən quruluşunda olduğunu bilməsi, özünü boşluğa buraxacaq cəsarəti göstərməsi və sonra da düşmədən havada uçması Uca Allahın ilhamıyla reallaşmaqdadır.

Nəhl surəsinin 79-cu ayəsində quşların havada necə dayandıqları bildirilərkən keçən ərəbcə “yumsikuhunne” ifadəsi, “onları düşürmür, onları tutur, onları saxlayır, onları çəkir” mənalarını verməkdədir. Bu söz “tutmaq, yaxalamaq və geri çəkmək” mənalarını verən “emseke” feilinin indiki geniş zaman halıdır. Bu sözlə Uca Rəbbimiz quşu havada tutduğunu, öz əmriylə uçurduğunu bildirməkdədir. Quşların uçması dövrümüzdə hələ də elm adamları üçün geniş araşdırma sahəsidir. Quşlardakı uçuşun mükəmməlliyini görən elm adamları təyyarə, reaktiv təyyarə kimi hava nəqliyyat vasitələrinin istehsalında birbaşa olaraq quşların quruluşunu və uçuş şəkillərini model götürməkdədirlər.

Nəhl surəsinin 79-cu ayəsində bir mənada quşların uçarkən, Allahın yaratdığı aerodinamik qanunlara tabe olduqlarına işarə edilmiş ola bilər (doğrusunu Allah bilir). Aerodinamika elmi, qatı cisimlərin hava kimi axıcı hal qarşısındakı davranışlarını araşdırır. Məsələn bir təyyarə havada hərəkət edərkən, hərəkətinə təsir edən fərqli qüvvələr ortaya çıxar. Təyyarənin planlandığı şəkildə hərəkət etməsi və gözlənilməz bir qüvvətlə ya da müqavimətlə qarşılaşmaması üçün, havanın göstərdiyi

müqavimət qanunlarına qarşı təyyarə əvvəl yoxlanılır. Uzun sürən hesablamalar, ölçmələr, təcrübələr nəticəsində cismin havadakı hərəkəti planlanır.

Quşlar isə aerodinamika elminin prinsiplərinə olan uyğunlaşmalarıyla elm adamlarını heyran etməkdədirlər. Bu canlılar heç bir sınama-yanılma etmədən, havadakı aerodinamika qüvvənin ən mükəmməl şəkildə öhdəsindən gələrək uçarlar. Ayədə quşların uçuşu üçün "musahharatin" sözünün istifadə edilməsi son dərəcə hikmətlidir. Çünki bu söz "tabeliyinə girmişlər, müəyyən bir hədəfə məcburən sövq edilmişlər, bir şeyi etmək məcburiyyətində buraxılmışlar, əmr altına alınmışlar, boyun əydirilmişlər, xidmətinə verilmişlər, (Allahın) özünə bağlanmışlar, (Allahın) qanunlarına boyun əydirilmişlər" mənalarını verməkdədir. Bu baxımdan ayədə aerodinamika qüvvəsi quşların uçuşu üzərindəki təyin edici təsirinə işarə etməsi mümkündür (doğrusunu Allah bilir).

Görünüşə görə quşların uçuşunu məcbur edən heç bir səbəb yox kimi görünməkdədir, halbuki aerodinamika qanununa görə, havada uçan hər hansı bir cisim bir çox fərqli qüvvənin təsirinə məruz qalır. Bunlardan ən bilinən qüvvələr; cazibə qüvvəsi, itələmə qüvvəsi, sürtünmə qüvvəsi (müqavimət qüvvəsi), qaldırma qüvvəsidir. Nəticə olaraq müəyyən bir səviyyədə uçuşun meydana gələ bilməsi üçün, bu qüvvələrin tarazlıqda olması lazımdır. Məsələn cazibə qüvvəsi digər qüvvələrə üstün gəlirsə, quş yerə düşər. Bu baxımdan ayədə keçən söz, quşların uçuş əsnasında təzyiq altındakı vəziyyətlərini ən gözəl şəkildə ifadə etməkdədir. Aerodinamika, uçuş mexanikası kimi elmlərin var olmadığı bir dövrdə, Quranda bu cür detallı məlumatları əhatə edən ifadələrin olması, bir daha Quranın İlahi bir kitab olduğunu ortaya qoymaqdadır.




1. Aşağı təzyiq 2. Qaldırma qüvvəti

Quşların uçuşundakı aerodinamika mükəmməlliyi ilə yanaşı köç etmək üçün qət etdikləri minlərlə kilometrlik səyahətləri də elm adamlarının araşdırma mövzusudur. Dövrümüzdə ornitoloqlar quşların hərəkətlərinin sanki proqramlaşdırılmış olduğu nəticəsinə gəlmişlər. Bala quşların əvvəldən heç bir təcrübəsi və ya rəhbəri olmadan, uzun və çətin səfərlər edə bilmələri bunun ən açıq nümunəsidir. Ayədə keçən "musahharatin" sözünün "müəyyən bir hədəfə zorla sövq edilmişlər, əmrə tabe qılınmışlar, əmr altına alınmışlar, ələ keçirilmişlər, boyun əydirilmişlər" kimi mənaları, quşların onlara verilən əmrə əməl edərək, özləri üçün təyin olunan istiqaməti izlədiklərini açıq şəkildə ortaya qoymaqdadır.

Quşların uçuşunda ağıl və şüur olmadan bu canlılar tərəfindən əldə edilə bilməyən hesablamalar vardır. Bu gün elm adamları arasında quşlardakı bu fövqəladə qabiliyyətlərin əvvəldən "proqramlaşdırılmış" olduğu fikri qəbul görməkdədir. Bu vəziyyət "Science" jurnalında nəşr olunan bir məqalədə belə deyilir:




1. Qaldırma qüvvəti 2. Aşağı təzyiq 3. Yüksək təzyiq

Gənc quşların, onlara neçə gün və ya gecə və hansı istiqamətdə uçmalı olduqlarını söyləyən daxili köç proqramları ilə təchiz olduğuna dair güclü dəlillər var.13

René Dekart Universitetindən prof. Pierre Jean Hamburger, "La Puissance et la Fragilité" (Güclü və kövrək) adlı kitabında Sakit okeanında yaşayan fırtına quşunun qət etdiyi 24.000 kilometrlik fövqəladə səfərini bu ifadələrlə izah etməkdədir:

Yola çıxdığı nöqtə Avstraliya sahilidir. Oradan Cənuba Sakit okeanına doğru uçar, sonra Şimala dönər və bir müddət istirahət edə biləcəyi

Berinq dənizinə çatana qədər Yaponiya sahilləri boyunca uçar. Bu fasilədən sonra yenidən yola çıxar və bu səfər Cənuba yönələr. Amerikanın Qərb sahilini keçərək Kaliforniyaya çatar. Oradan da başladığı nöqtəyə geri dönmək üçün Sakit okeanı təkrar keçər. Hər il, “8” şəkli çəkərək qət etdiyi bu 15.000 millik (24.000 km) səfərin marşrutu da, tarixi də əsla dəyişməz. Bəhs etdiyimiz səfər, tam altı ay davam edər və hər zaman sentyabr ayının 3-cü həftəsində, tam altı ay əvvəl tərk etdiyi adada, altı ay əvvəl tərk etdiyi yuvada sona çatar. Bundan sonrası isə daha da heyrətvericidir: Döndükdən sonra quşlar yuvalarını təmizləyər, cütləşər və oktyabrın son on günü boyunca yalnız yumurtlayarlar. İki ay sonra kiçik balalar yumurtadan çıxar, sürətlə böyüyər və valideynləri o böyük səfərlərinə çıxana qədər üç ay bəslənərlər. İki həftə sonra isə; yəni aprel ayının ortalarında, gənc quşların öz dövrlərinə başlamaq üzrə qanadlanma sıraları gəlmişdir. Heç bir bələdçiləri olmadan, yuxarıda izah edilən marşrutun eynisini izləyərlər. Bunun açıqlaması çox dəqiqdir: Bu quşlar yumurtanın içindəki irsi xüsusiyyətləri köçürən təchizat içində, belə bir səfər üçün lazımlı olan bütün təlimatlara sahib olmalıdırlar. Bəzi insanlar, bu quşların gedib qayıtma səfərləri boyunca Günəş və ulduzlar tərəfindən və ya yolları üzərində hakim olan küləklərlə istiqamətləndirildiklərini iddia edə bilərlər. Ancaq bu faktorların, səfərin coğrafi və xronoloji müəyyənliyinə təsir etmədiyi aydındır.14




1. Qaldırma 2. Ağırlıq

Prof. Peter Berthold, quş köçünü 20 il araşdırmış məşhur araşdırmaçı və eyni zamanda Almaniyadakı Maks Plank İnstitutunun Vogelwarte Radolfzell Ornitoloji (Quş elmi) Araşdırma mərkəzinin başçısıdır. Quşların köçləri ilə əlaqədar bunları ifadə etməkdədir:




A. %15-25 liqnin B. %23-32 hemiselüloz C. %38-50 selüloz



Hər il təxminən 50 milyard quş bütün dünyanı əhatə edən bir yol şəbəkəsi içərisində köç səfərini reallaşdırmaqdadır. Bəzən on minlərlə kilometr yol qət edərək, qitələrdən və okeanlardan keçən köçəri quşlar bu işi elə yaxşı edərlər ki, ən geniş çöllərdən və dənizlərdən, ən yüksək dağlar və buz sahələrindən çarpazlama keçərlər... Köçəri quşların müvəffəqiyyətli köç üçün əhatəli, detallı və doğuşdan gələn "kosmos-zaman" proqramları vardır. Bu tərz proqramlaşdırma çox açıq bir şəkildə gənc və təcrübəsiz quşların belə, yetkinlərin bələdçiliyi olmadan köç etmələrini mümkün edər... Quşlar bunu "vektor naviqasiya" sayəsində edərlər: Genetik olaraq əvvəldən qərarlaşdırılmış köç istiqaməti və yenə əvvəldən qərarlaşdırılmış zaman planından ibarət olan vektora baxaraq bunu edərlər... Bunu başlama zamanlarının genetik faktorlarla proqramlaşdırılması təqib edər. Görəsən

quşlar özlərinə xas qışlama yerlərinə çata bilmələri üçün köç etmələri lazım olan istiqaməti necə bilməkdədirlər?.. Köçəri quşlar təcrübə qəfəsləri ilə başlama nöqtələrindən başqa bir yerə aparılsalar və daha əvvəl heç köç etməmiş olsalar belə, olduqca maraqlı bir şəkildə normal köçəri quşlarınkına praktik mənada bənzər bir şəkildə istiqamət seçimlərini sərgiləmişlər. İndi bu silsilə təcrübə, köç istiqamətinin genetik olaraq qərarlaşdırılmış olduğunun dəlilini təqdim etməkdədir... Aydın olan bu yönlü dəyişikliklər əsasən daxili olaraq proqramlaşdırılmışdır.... Doğuşdan sahib olduqları köç fəaliyyəti modeli ilə quşlar, genetik olaraq qərarlaşdırılmış bir köç proqramına sahib olarlar. Bu proqram, genetik olaraq qərarlaşdırılmış köç istiqamətləri ilə birləşdiyində, yuxarıda bəhs edildiyi kimi ən təcrübəsiz quşlar belə, əvvəldən bilməyəcəkləri qışlama yerlərinə hələ ilk dəfə köç edərkən belə onları "avtomatik olaraq" istiqamətləndirməkdədir.15



Ən çox zədə dözən təyyarələrdən olan Moskito təyyarələri kontrplak lövhələrinin sıxışdırılması ilə istehsal olunmuşdur.






Nəticə olaraq, elm adamları tam olaraq izah gətirə bilməməklə birlikdə, köçlərin əvvəldən proqramlaşdırılmış, doğuşdan etibarən var olan davranışlar olduğunu qəbul etməkdədirlər. Minlərlə kilometr sürən uçuşlar, bu uçuşlar üçün əvvəldən edilən hazırlıqlar, uçuş sırasındakı istiqamət tapma və naviqasiya qabiliyyətləri, bütün bunlar ayədə də diqqət çəkildiyi kimi Uca Rəbbimizin vəhyi ilə reallaşmaqdadır. Quranda verilən bütün məlumatların elmi təsdiqi, Quranın bu elmləri yaradan Allahın vəhyi olduğunu göstərən əhəmiyyətli dəlillərdən biridir.






1. Günəş işığı 2. Karbon qazı 3. Xlorofil




1. Ribosom 2. Plastqlobul 3. Daxili membran 4. Membranlararası sahə

## Səmadakı qırmızı gül: Rosetta Nebula

*Göy yarılıb dağ edilmiş yağ (yaxud ərinmiş qurğuşun) kimi qıpqırmızı gül olacaqdır.*

**(Rəhman surəsi, 37)**

Yuxarıdakı ayədəki "qıpqırmızı gül" olduğu zaman ifadəsinin ərəbcəsi "verdeten ke eddihani"dir. Bu ifadə ilə səmada yaranan görüntü, qırmızı rəngdə bir gülə bənzədilməkdədir. Bu tərif, səmada qırmızı rəngdə, çoxhissəli görünüş alan "Rosette Nebula" adlı göy cismi ilə çox böyük bənzərlik daşımaqdadır.

Nebula kosmosda olan buluda bənzər qaz kütlələrinə verilən addır. Nebula meydana gəlmədən əvvəl bir ulduzdur və bu ulduzlar çox böyük

olduqları üçün, daxildən gələn təzyiq və yüksək istiliyin təsiri ilə kosmos boşluğuna qaz buraxarlar. Bu qaz püskürmələri olduqca böyük miqdarda və sürətlidir. Daha sonra bu qazlar yaxınlaşaraq bir qaz buludu meydana gətirərlər və bu qaz buludunun istiliyi 15.0000C-dən çoxdur.16



Nebulaların bir növü, gülə olan bənzərliyindən ötrü elm adamları tərəfindən də “Rosette Nebula” olaraq adlandırılmaqdadır. Rosette Nebula da geniş bir toz və qaz kütləsidir və bütöv ayın 5 misli qədər bir səth olaraq görünməkdədir.17 Bizdən təxminən 5.000 işıq ili uzaqlıqdadır18 və həqiqi diametrinin 130 işıq ili genişliyində olduğu təxmin edilməkdədir.19

Penn Əyalət Universitetindən astronomiya və astrofizika sahəsindəki qabaqcıl araşdırmaçılardan Leisa Townsley liderliyində bir qrup, Chandra X-rels teleskopunu istifadə edərək, Rosette Nebulanı araşdırdılar. Nebula içərisindəki ulduzların bir-birləriylə toqquşaraq 6 milyon dərəcəlik qaz meydana gətirdiklərini təsbit edərək; Rosette Nebuladakı yüzlərlə ulduzu göstərdilər. Leisa Townsley gördüklərini belə izah etməkdədir:

Rosette Nebula ətrafında, X-şüası yayımından meydana gələn möhtəşəm bir qırmızı parlaqlıq var, bəlkə də qalaktika içərisində ulduzların meydana gəldiyi bölgələrdə bənzərləri də var.20

Şəkillərdə görülən bu göy cisminin varlığını fərq etmək ancaq texnoloji müşahidə vasitələri ilə mümkün olmaqdadır. Quran ayəsində səma ilə əlaqədar diqqət çəkilən bu vəziyyət, bugünkü astronomiya tapıntıları ilə böyük uyğunluq içərisindədir. Bir Quran ayəsində belə buyurmaqdadır:

> *Sən hansı bir işdə olsan, Qurandan nə oxusan, siz nə iş görsəniz, başınız ona qarışarkən Biz sizə şahid olarıq. Nə yerdə, nə də göydə zərrə qədər bir şey Rəbbindən gizli qalmaz. Bundan daha kiçiyi və daha böyüyü yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-Məhfuzda) olmasın.*
>
> **(Yunis surəsi, 61)**

## Günəş mərkəzli sistem

> *O, göyləri və yeri bir həqiqət kimi yaratmışdır. O, gecəni gündüzə bürüyür, gündüzü də gecəyə bürüyür. O, günəşi və ayı ram etdi. Onların hər biri müəyyən olunmuş vaxtadək hərəkət edir. O, Qüdrətlidir, Bağışlayandır.*
>
> **(Zumər surəsi, 5)**




1. Merkuri 2. Venera 3. Dünya 4. Mars

Ayədə gecə və gündüz meydana gəlməsi üçün Dünyanın hərəkəti, qabığın sarılmasında olduğu kimi, "yumru cismi əhatə edib örtmək" mənasını verən "təkvir" feilindən törəmiş "yukevviru" sözü ilə təsvir edilməkdədir. Bu söz Dünyanın kürə formasında olmasını, eləcə də Günəş ətrafında hərəkətini ən düzgün şəkildə ifadə edir. Dünyanın kürə formasında olması və öz oxu ətrafında fırlanmasına görə Günəş hər

zaman Dünyanın bir tərəfini işıqlandırarkən, digər tərəfi isə kölgədə qalar. Kölgədə qalan tərəf gecə qaranlıq ilə örtülər və sonra Dünyanın Günəşə doğru dönməsi ilə gündüz, gecənin yerini alar. Yasin surəsində isə Günəş və Ayın mövqeləri ilə əlaqədar belə bildirilməkdədir:

> *Günəş də özünün qaldığı yerə axıb gedir. Bu, Qüdrətli, Bilən Allahın əzəli hökmüdür. Ay üçün də mənzillər müəyyən etmişik. Nəhayət, o tədricən dönüb xurma ağacının qurumuş budağı kimi əyri olur. Nə günəş aya çatar, nə də gecə gündüzü keçə bilər. Onların hər biri öz orbiti ilə üzüb gedir.*
>
> **(Yasin surəsi, 38-40)**

Yasin surəsinin 40-cı ayəsində Günəş və Ayın hərəkətləri "üzüb getmək, axmaq, gəzmək" mənalarını verən ərəb dilində "yesbahune" sözü ilə təsvir edilməkdədir. Bu söz bir insanın öz başına etdiyi hərəkət mənasını verər. Bu hərəkəti tətbiq edən bir insan, başqa biri tərəfindən müdaxilə edilmədən öz başına işinə davam edir deməkdir. Yuxarıdakı ayələrdə də Günəşin heç bir göy cisminə bağlı olmayan kainatdakı müstəqil hərəkətinə bir istiqamətiylə diqqət çəkilir ola bilər (doğrusunu Allah bilir). Günəşin hərəkətini gözlərimizlə görməmiz, ya da izləməmiz mümkün deyil. Bu hərəkəti təsbit edə bilmək, ancaq xüsusi texnoloji alətlərin istifadə edilməsi ilə mümkündür. Günəş öz oxu ətrafındakı 26 günlük dövrün yanında, kosmosda heç dayanmadan (Yasin surəsinin 39-cu ayəsində ifadə edildiyi şəkildə) öz orbitində səfər etməkdədir.

Ayədə eyni zamanda Günəşin Aya "çatmasına" icazə verilmədiyi bildirilmiş, beləcə Quranda kosmologiya alimlərin öz terminologiyaları ilə Günəş və Ayın eyni cisim ətrafında dönmədikləri xəbər verilmişdir. Eyni zamanda ayədə gecəni və gündüzü meydana gətirən hərəkət ilə,

Günəşin və Ayın hərəkəti arasında da heç bir əlaqə olmadığı açıqlanmaqdadır (doğrusunu Allah bilir).

16-cı əsrə qədər elm adamları Dünyanın, kainatın mərkəzində olduğunu düşünürdü. Hətta bu fikir, qədim Yunanda geo (dünya) və centron (mərkəz) sözlərinin bir yerə gəlməsi ilə yaranan, "geosentrik model" adıyla adlandırılırdı. Bu inanış, məşhur astronom Nicolaus Copernicus (Kopernik)ın 1543-cü ildə nəşr olunan "De Revolutionibus Orbium Coelestium" (Göy kürələrinin hərəkətləri haqqında) adlı əsərində, Dünyanın və digər planetlərin Günəşin ətrafında fırlandıqları fikrini ortaya atması ilə sorğulandı. Lakin 1610-cu ildə Qalileo Qalileyin teleskopu ilə müşahidələri nəticəsində, Dünyanın əslində Günəşin ətrafında fırlandığı elmi etibarlılıq qazandı. Bu dövrə qədər Günəşin Dünya ətrafında fırlandığına inanıldığı üçün, dövrün alimlərinin çoxu Kopernikin nəzəriyyəsini qəbul etməmişdilər. Məşhur astronom İohann Keplerin planetlərin hərəkətlərini açıqlayan fikirləri ilə, 16-cı və 17-ci əsrlərdə helio-sentrik kainat modeli etibarlılıq qazandı. Helios (Günəş) və centron (mərkəz) sözlərinin bir yerə gəlməsindən yaranan bu modeldə, kainatın mərkəzində Dünya deyil Günəş mövcuddur. Digər göy cisimləri Günəş ətrafında hərəkət edərlər. Halbuki Quranda bu həqiqət bundan 14 əsr əvvəl bildirilmişdir.

Antik Yunan astronomlarından Claudius Ptolemeus (Batlamyus), kainatın mərkəzinin Dünya olduğunu söyləyərək, əsrlərdir etibarlı görülən Dünya-mərkəzli (geosantrik) kainat düşüncələrinə qaynaq olmuşdur. Bu səbəbdən Quranın endirildiyi dövrdə, gecə-gündüz meydana gəlməsini Günəşin hərəkətlərini izah edən yer mərkəzli nəzəriyyənin səhv olması məlum deyildi. Əksinə bütün ulduz və planetlərin Dünyanın ətrafında fırlandığı qəbul edilirdi. O dövrün səhv elmi düşüncəsinin hakim olmasına baxmayaraq, Quranda bugünkü elmi məlumatlara uyğun bir çox ifadəyə yer verilmişdir. Şəms surəsində isə belə bildirilməkdədir:



Üstdəki şəkildə 1750-ci illərə aid əlyazmasında Yer mərkəzli kainat modeli görülməkdədir.

> *And olsun günəşə və onun saçdığı şəfəqə! And olsun ondan sonra zühur edən aya! And olsun günəşi açıqlığa çıxardan gündüzə! And olsun günəşi bürüyən gecəyə.*
>
> **(Şəms surəsi, 1-4)**

Yuxarıdakı ayələrdə ifadə edildiyi kimi gündüz, (Günəşin parlaqlığı) Dünyanın hərəkəti ilə meydana gəlməkdədir. Gecə ilə gündüzü meydana gətirən hərəkət Günəşin hərəkəti deyil. Başqa sözlə, günəş gecə və gündüzə nisbətən sabitdir. Quranda bildirilənlər, Dünyanın sabit olub, Günəşin onun ətrafında döndüyü tezisini müdafiə edənlərin iddialarını etibarsız etmişdir. Quranın zaman və məkandan münəzzəh olan, bütün elmlərin sahibi Rəbbimizin Qatından olduğu açıq-aşkar bir həqiqətdir. Elm və texnologiya inkişaf etdikcə Quran və elm arasındakı uyğunlaşmanın nümunələri də, hər keçən gün daha açıq şəkildə aydınlanmaqdadır. Bir Quran ayəsində belə buyurulmaqdadır:

> *Onların rəvayətlərində ağıl sahibləri üçün bir ibrət vardır. Bu Quran uydurulmuş bir kəlam deyildir. Ancaq özündən əvvəlkiləri təsdiqləyən və hər şeyi müfəssəl izah edəndir; iman gətirən bir camaat üçün hidayət və mərhəmətdir.*
>
> **(Yusif surəsi, 111)**

## Kvazar və qravitasiya linza təsiri

*Allah göylərin və yerin nurudur. Onun möminlərin qəlbində olan nuru, içində çıraq olan bir taxçaya bənzəyir; o çıraq şüşənin içindədir, şüşə isə, sanki inci kimi bir ulduzdur. O çıraq təkcə şərqə və ya təkcə qərbə aid edilməyən daim günəş şüaları altında qalan mübarək zeytun ağacından yandırılır. Onun yağı özünə od ona toxunmasa da, yağı işıq saçır. Bu, nur üstündə nurdur. Allah istədiyini Öz nuruna yönəldir. Allah insanlar üçün misallar çəkir. Allah hər şeyi Biləndir.*

**(Nur surəsi, 35)**



Cisim qravitasiya linza təsiri ilə olması gərəkən yerdə deyil, fərqli mövqelərdə və birdən artaq sayda görünür.

Kvazar, kosmosda radio dalğası yayan, ulduz kimi görünən, sıx və son dərəcə parlaq cisimlərə verilən addır. Kvazar kainatdakı bilinən ən parlaq cisimlərdir. Hal-hazırda kainatdakı ən parlaq kvazarın parlaqlığı, Günəşin parlaqlığından 2 trilyon qat çoxdur (2x1012); Süd yolu kimi nəhəng qalaktikanın ümumi işığından isə minlərlə qat çoxdur.21

Yuxarıdakı ayədə keçən “nur” sözü “işıq, parlaqlıq, işıqlıq, şüa, parıltı, işıqlandırma” mənalarını verməkdədir. Ayədə təsvir edilən işıq, parlaqlıq bir istiqamətiylə, kvazar olaraq bilinən bu göy cisimlərinə işarə ola bilər. Çünki ayədəki digər ifadələr də, kvazarın işığının görünmə şəklini, işığın qaynağını son dərəcə hikmətli bir şəkildə təsvir etməkdədir (doğrusunu Allah bilir).

Ayədə “sanki inci kimi bir ulduzdur” mənasını verən “keenneha kevkebun durriyyun” ifadəsindəki “duriyyun” sözü “parlaq” mənasıyla kvazarların elmi təriflərindəki “ulduz kimi parlaq cisim” ifadəsi ilə son dərəcə uyğundur.22 Həmçinin ayədə bu işığın yandırılmasından bəhs edilərkən “atəş ona toxunmasa da yağı işıq saçır” şəklində bildirilməkdədir. Bu ifadəylə də kvazarlardakı atəşsiz yanma şəklinə (nüvə parçalama) işarə edilmiş ola bilər. Kosmosda oksigen sərbəst halda olmadığı üçün, kvazarların parıldaması üçün alov kimi yanmasından söhbət gedə bilməz. Buradakı yanma hidrogen atomlarının sıxışaraq helium ortaya çıxarmaları şəklində reallaşar. Bu əsnada ortaya çıxan enerji kosmosda işıldayar.



NASAnın Hubble kosmik teleskopu ilk dəfə uzaqdakı tək bir kvazarın beş ayrı ulduz kimi verdiyi görüntüləri əldə etmişdir.

Digər tərəfdən ayədəki “(Bu,) Nur üstünə nurdur” ifadəsiylə isə, astronomiyada bəhs edilən “Qravitasiya linza təsiri”nə işarə edilir ola bilər (doğrusunu Allah bilir). Göylərdəki işıq qaynaqlarını araşdıran astronomlar, bu ayədəki bənzətmə və tərifləri çox açıq və asan bir şəkildə

anlayacaq. Bəhs edilən təsir “qara dəlik” kimi sıx kütləsi olan bir cismin arxasındakı işıq qaynağından çıxan şüaların, sıx kütləli cismin təsiriylə ayrılaraq fərqli qollardan bizə çatmasıdır. Buna görə də elə başa düşürük ki, gördüyümüz işığın birdən çox mənbəyi var. “Qravitasiya linza təsiri” olaraq bilinən bu təsir ilə cisim olduğu yerdə deyil, fərqli mövqelərdə və birdən çox sayda görünür.

Ayədəki “o çıraq bir şüşə içərisindədir” ifadəsindəki şüşə də, qara dəliyin qravitasiya təsir sahəsi olaraq şərh oluna bilər (doğrusunu Allah bilir). NASA yaranan bu təsiri təsvir edərkən, şüşə stəkanın işıq üzərindəki təsirinə bənzədirlər:




1. Ulduz 2. Qara dəlik 3. Mikrolinzalı görüntü

Qalaktikanın uzaqdakı kvazar üzərindəki qravitasiya təsiri, bir su stəkanının uzaqdakı küçə lampası üzərindəki linza təsirinə bənzəyər, birdən çox görünüş meydana gətirər.23

“The New York Times”in 20-ci əsrin ən qabaqcıl kitabları arasında saydığı “The Whole Shebang” (Bütün məsələ) adlı kitabında, elmi yazar olan Timothy Ferris mövzunu belə açıqlamaqdadır:




1. Chandra 2. Qalaktika 3. Mikrolinza ulduzu

Kvazardan gələn işıq bizə doğru səyahət edərkən... qalaktika çoxluqlarının hər iki tərəfindən də keçə bilər. Qalaktika qrupunun ətrafındakı kosmos əyilər və bir linza kimi davranar, bunun nəticəsində tək bir kvazara aid iki görüntü görərik.24

Ayədəki "nur üstünə nurdur" ifadəsiylə buradakı əks olunan, birdən çox görünüşə sahib işığa işarə edilmiş ola bilər. Həmçinin ayədə işığın tərifindəki "şərqə və ya təkcə qərbə aid edilməyən" ifadəsinin, həqiqi işıq

qaynağının istiqamətinin naməlumluğuna da işarə etməsi mümkündür (doğrusunu Allah bilir).

Kvazarlar kainatdakı ən parlaq cisimlərdir və mərkəzdəki “qara dəlik” ilə güclənən qalaktikaların parlaq nüvələridir. Qalaktikaya aid ulduzların və qazların büzüşməsi nəticəsində yaranan qara dəliklər, kvazarın enerji qaynağıdır. Kvazarların parlaqlığı, qalaktikaların nüvələrindəki qara dəliyə doğru düşən ulduzlardan yayılar.25 Ayədə keçən “qəndil” kvazar olaraq düşünülsə, “çıraq” kvazarı bəsləyən “qara dəlik” ola bilər (doğrusunu Allah bilir).

Eynşteyn “qravitasiya linzası” deyə təyin etdiyi təsir səbəbiylə, kosmosdakı cisimlərin işığı bükə biləcəklərini və bir müşahidəçinin tək bir qaynağa aid çox sayda görünüş müşahidə etməsinin mümkün olduğunu qarşıya qoymuşdu.26 Ancaq bu təsir ilk dəfə 1979-cu ildə “Əkiz kvazar” olaraq bilinən bir kvazarda müşahidə edilə bildi. Kvazarlar isə ilk dəfə 1963-cü ildə, Quranın endirilməsindən 14 əsr sonra kəşf edilmişdir. Quranda Nur surəsinin 35-ci ayəsində təsvir edilən göy cisimlərinin mövqeləri, xüsusiyyətləri təəccüblü şəkildə dövrümüzün elmi isbatları ilə uyğundur. Bu və digər çox saydakı elmi möcüzələr, Quranın hər şeyin məlumatına sahib, sonsuz elm sahibi və hər şeyin Yaradıcısı olan Rəbbimizin vəhyi olduğunun açıq bir dəlilidir.



# Dövrümüzün radar texnologiyası

*Biz Davuda Özümüzdən bir lütf bəxş etdik və buyurduq: "Ey dağlar və quşlar! Onunla birlikdə (Onu təsbih edib) əks-sədayla səs verin" Biz dəmiri onun üçün yumşaltdıq.*

**(Səba surəsi, 10)**

*Biz o hökmü Süleymana anlatdıq. Hər ikisinə hökmranlıq (peyğəmbərlik) və elm bəxş etdik. Biz dağları və quşları Davudla birlikdə Allahı təriflamələri üçün ona ram etdik. Bunları Biz etdik.*

**(Ənbiya surəsi, 79)**

*Biz də, onun əmri ilə istədiyi yerə sakitcə əsən küləyi ona ram etdik.*

**(Sad surəsi, 36)**


Polşanın Varşava şəhərinin radar sistemi ilə əldə edilən görüntü.

Yuxarıdakı ayələrdə hz. Davud və hz. Süleymana təqdim edilən üstünlüklərdən bəhs edilməkdə və hər birinə Allah Qatından elm verildiyi bildirilməkdədir. Bu peyğəmbərlərə verilən elmlə əlaqədar ayələrdə keçən ifadələr, elektromaqnitik dalğaları əks etdirmə üsulu ilə işləyən, dövrümüzün radar texnologiyasına işarə edilmiş ola bilər (doğrusunu Allah bilir). Səba surəsinin 10-cu ayəsindəki "əks-sədayla səs verin" olaraq tərcümə olunan və "səsin geri dönməsi, təkrarlanması"

mənalarını verən "evvibi" sözü, əks-sədalama üzərinə qurulmuş radar texnologiyasını xatırlatmaqdadır.

Radar, sabit ya da hərəkətli cisimlərin yerlərini, sürətlərini və istiqamətlərini təsbit etmək üçün istifadə edilən, mikrodalğa əks etdirmə metodu ilə işləyən bir təsbit cihazıdır.27 Radarın iş prinsipi səs dalğasının əks olunmasına çox bənzəyər. Məsələn dağlıq bir vadidə və ya mağarada qışqıran bir adam, səsinin əks-sədasını geri eşidər. Əgər səsin havada yayılma sürəti bilinirsə, səsin toqquşduğu cismin uzaqlığı və ümumi istiqaməti də hesablana bilər.



Yeni Zelandiyada nəqliyyatı idarə etmək üçün istifadə olunan radar.

Radar sistemində də, elektromaqnitik enerji siqnalları bənzər bir tərzdə istifadə edər. Mikrodalğa tezliyindəki siqnallar bir cismə göndərilər və bu cisimdən əks olunaraq təkrar geri dönər. Radara geri dönən bu hissəyə, "əks-səda" adı verilər. Radar cihazı da, bu əks-sədanı əks etdirən cismin istiqamət və məsafəsini təsbit etmək üçün istifadə edər.28 Əslində radio, televiziya və insan gözü də elektromaqnitik enerjini istifadə etdikləri üçün radar sistemlərinə bənzərlik göstərər; lakin tezlikləri fərqlidir. Həmçinin, bu nümunələrdəki kimi birbaşa çatdırılan enerjini istifadə etmək yerinə, "əks-səda" adı verilən əks etdirilən enerjini istifadə edərlər.29 Əks-sədalanan siqnallar radar qəbuledicisi tərəfindən riyazi dəyərlərə çevrilərək, "əks-səda anbarlarında" məlumat olaraq qeyd edilər. Ən sonunda bu məlumatlar bəzi proseslərdən keçərək görüntüyə çevrilər.30

Digər tərəfdən Səba surəsinin 10-cu ayəsində dəmir üçün "yumşaltdıq" mənasını verən "elenna" feilinin istifadə edilməsi də son dərəcə hikmətlidir. Çünki dövrümüzdə, Yer kürəsindəki ən güclü, sərt materiallarından biri olmasına baxmayaraq, dəmir üçün "yumşaq" adı da

istifadə edilməkdədir. Fiziki olaraq sərt olmasına baxmayaraq, maqnetik xüsusiyyətləri səbəbiylə "yumşaq dəmir" deyə təyin olunan bu dəmir növü, xüsusilə radar və peyk texnologiyalarında istifadə edilməkdədir.31 Yumşaq dəmir, maqnetik sahəsi daha güclü hala gətirməsi və istənildiyi şəkildə açılıb bağlana bilməsi baxımından seçilməkdədir.


Solda, 1960-cı illərdə ABŞ-Floridada inşa edilən bu radar sualtı gəmilərdən atılan ballistik raketlərin müəyyənləşdirilməsi üçün istifadə olunmuşdur.

Yumşaq dəmirin istifadə edilməsiylə, elektromaqnitik siqnalların havada istənildiyi şəkildə istiqamətləndirilməsi baxımından, Sad surəsinin 36-cı ayəsində bildirilən, küləyin hz. Süleymanın "əmriylə istədiyi yerə yumşaq axması"na işarə edilir ola bilər (doğrusunu Allah bilir).

Dövrümüzdə istifadə edilən radarlar ilə dünyada meydana gələn dəyişikliklər izlənilməkdədir. Bununla yanaşı, dağlar, buzlaqlar və dənizlər kimi Yer kürəsinin şəkilləri ilə, insan istehsalı olan ev, körpü və avtomobil kimi cisimlər haqqında da məlumat toplanmaqdadır. İnkişaf etmiş texnologiyanın bu işləmə şəklinə və materialına bundan 1400 il əvvəl Quranda diqqət çəkilmiş olması, Quranın keçmiş və gələcəyi tək bir an olaraq yaratmış və zamandan münəzzəh olan Rəbbimizin vəhyi olduğunu göstərməkdədir.

## Yayılan Yer kürəsi

*Yeri döşəyən, orada möhkəm dağlar, çaylar yaradan və bütün meyvələrdən cüt-cüt yetişdirən də Odur. O, gündüzü gecə ilə örtüb bürüyür. Həqiqətən də, bunda dərin düşünən adamlar üçün dəlillər vardır.*

**(Rad surəsi, 3)**

Yuxarıdakı ayədə "yayıb uzadan" olaraq tərcümə edilən ərəbcə "medde elarda" ifadəsi, "örtdü, yaydı, çəkib uzatdı, genişlətdi, açdı, döşədi" kimi mənalara gəlməkdədir. Ayədə dağların və çayların meydana gəlməsindən bəhs edilərkən, Yer kürəsi ilə əlaqədar bu sözün istifadə edilməsi son dərəcə hikmətlidir. Çünki Yer kürəsinin meydana gəlməsi ilə əlaqədar elmi izahlara baxdığımızda, dağların və çayların, Yer kürəsinin uzadılaraq genişlədildiyi əsnada şəkilləndiyi məlumatı qarşımıza çıxar.



NASAnın kosmosdan çəkdiyi bu fotoda Sina yarımadasının şərqindəki Aqaba körfəzi və qərbindəki Süveyş kanalı görülməkdədir.

Dövrümüzün elmi, Yer səthinin qədim dövrlərdə indikindən fərqli görünüşə sahib olduğunu qəbul etməkdədir. Məşhur Alman alimi Alfred Lothar Wegener, 1915-ci ildə "Die Entstehung der Kontinente und Ozeane" (Qitələrin və okeanların mənşəyi) adlı kitabında, başlanğıcda bütün qitələrin nəhəng quru hissəsi halında birləşmiş olduğunu qarşıya qoymuşdur. Sonrakı illərdə bu böyük quru hissəsini, "bütün qitələr" mənasını verən Latınca Pangaea olaraq adlandırmışdır.32 Alfred Wegenerin 1912-ci ildə ortaya atdığı "qitə sürüşməsi" nəzəriyyəsinə görə isə, Atlantik okeanının iki tərəfindəki qitələr bir-birindən ayrılmağa davam etməkdədir. Bu nəzəriyyə lövhə

tektonikası (təbəqə tektonikası) olaraq bilinən elm sahəsinin inkişafıyla, dövrümüzdə bu şəkildə son halını almışdır: Qitələr okean səthində sürüklənərək bir-birlərindən ayrılmırlar. Ancaq qitələrlə birlikdə okean döşəməsi də “astenosfer” ya da “üst manto” deyilən yüksək istilik və təzyiq altındakı maye maqma layının üzərində üzərlər. Bu səbəbdən dünyanın xaricdə görünən yer qitələriylə birlikdə dənizin altındakı yer qabığı da hərəkət halındadır.33

Qitələri daşıyan lövhələrin gərilərək genişlənmə, yayılma, uzanma olaraq təsvir edilən hərəkəti ilə, dövrümüzdə ildə təxminən 3 sm bir-birlərindən uzaqlaşmaqdadır.34 Dəniz tavanında meydana gələn ən diqqətə çarpan genişlənmə isə, Ərəbistan və Afrika arasındakı okean zəminində reallaşar və iki qitə digər kontinental lövhələrdən üç, ya da dörd qat daha sürətli olaraq bir-birindən uzaqlaşmaqdadır. Genişlənmənin dəniz tavanında deyil də, qurularda reallaşması halında isə, Şərqi Afrika-Ərəbistan bölgələrindəki Böyük Dərin Vadi (The Great Rift Valley) kimi genişləyən vadilər meydana gələr.

Böyük Dərin Vadi, şimalda Suriyadan Şərqi Afrikadakı Mozambikin ortalarına qədər uzanan təxminən 6.000 km.lik geniş coğrafi və geoloji sahə meydana gəlir. Vadinin genişliyi 30-100 km. arasında dəyişər. Dərinliyi isə bir neçə min metrdir.35 Bu dərin vadi, milyonlarla illik müddət sonrasında Afrika və Ərəb yarımadası torpaqlarının bir-birindən ayrılması ilə, Kilimancaro və Keniya dağı kimi əmələ gətirmişdir. Vadinin şərqdəki hissəsi isə İordaniya çayı, Ölü dəniz və Aqaba körfəzindən meydana gələr. Qırmızı dəniz və Keniyadakı bəzi göllər boyunca cənuba doğru uzanar. Bu göllərin çoxu dəniz səviyyəsindən aşağı dərin göllərdir.36

Yer kürəsinin “yayılması” ilə yalnız dağların yüksəlmədiyi, eyni zamanda müəyyən çay yataqlarının da meydana gəldiyi görülməkdədir.

“The Expanded Earth” (Yayılan dünya) adlı kitabda belə deyilir:

Hər vəziyyətdə ən şiddətli təzyiq Yer kürəsinin əsas çaylarının olduğu bölgələrdə reallaşar. Bunun nəticəsində başlıca çay yataqlarının təsadüfi eroziyalarla deyil, bu genişlənmənin nəticəsi olduğu görülməkdədir. Qitələr genişlənməkdə olan bir səthə sabitləndikləri üçün, bu genişlənmənin quru parçalarını yaydığı və ən çox gərginliyin meydana gəldiyi nöqtələrdə qırılaraq, çayları meydana gətirdiyi nəticəsinə gəlmək olar.37

Utah Geoloji araşdırma mərkəzinin açıqlamalarında isə Amerika qitəsi ilə əlaqədar bu məlumatlar yer almakdadır:

Düzənlik və çöküntü bölgələri, Yer kürəsi qabığının Şərq-Qərb istiqamətində genişlənməsi səbəbiylə son 10 ilə 20 milyon ildir meydana gəlməkdədir. Bu genişlənmə hərəkəti səbəbi ilə bir gərginlik meydana gəlir; yavaş və davamlı bir hərəkət, ya da bir fay xətti boyunca yaranan ani hərəkətlər (yer qabığında bir çatlama) nəticəsində bu gərginlik yaranar və zəlzələlər meydana gəlir. Bir zəlzələ əsnasında dağlar yüksələrkən, vadilər isə fay xətləri boyunca dərinləşərlər. Bu yayılma-genişlənmə hərəkəti bu gün də davam etməkdədir.38

Yer kürəsinin genişlənməsi, yayılması kimi təsbitlər ancaq dövrümüzün elm sahələrinin güniş araşdırmaları və ortaq məlumatları nəticəsində şəkillənə bilməkdədir. Məsələn 20-ci əsr texnologiyası məhsulu olan peyklərdən çəkilən fotoşəkillər, qitələrin keçmişdə bir-birlərini tamamlayan hissələr olduğu fikrini təsdiq etmişdir. Edilən həssas ölçülər isə yer qabığındakı genişlənmənin yavaş, amma müəyyən bir nisbətdə davam etdiyini ortaya qoymaqdadır. Kimsənin qitələr diametrində bir təsbit edə bilməyəcəyi bir dövrdə, üstəlik milyonlarla illik müddət ərzində meydana gələn formalaşmalarla əlaqədar məlumatların varlığı, Quranın İlahi bir kitab olduğunu bir daha ortaya qoymaqdadır. 14 əsr

əvvəl Yer kürəsinin meydana gəlməsi ilə əlaqədar bu cür dərin elmi məlumatdan bəhs edilməsi, Quranın elmi möcüzələrindən biridir.



Yuxarıda, təxminən 300 milyon il əvvəl qitələrin tək bir parça — Pangeya olduğu dövrə aid canlandırma şəkil görülməkdədir.

## Günəş müəyyən müddət sonra sönəcək

*Günəş də özü üçün (təsbit edilmiş) yerə axıb getdiyi zaman. Bu, Qüdrətli, Bilən Allahın təqdiridir.*

**(Yasin surəsi, 38)**



NASAnın çəkdiyi bu peyk fotoşəkilində Günəş görülür. Günəşin üzərində parlaq görünən yerlər maqnit sahəsinin ən güclü olduğu hissələrdir.

Günəşin səthində təxminən beş milyard ildir heç dayanmadan reallaşan kimyəvi reaksiyalar nəticəsində, günəş işığı kəsilməz meydana gəlməkdədir. Gələcəkdə Allahın diləməsi ilə müəyyən zamandan sonra bu reaksiyalar sona çatacaq və günəş enerjisini itirərək tamamilə sönəcək. Yuxarıdakı ayədə də Günəşin enerjisinin bir gün sona çatacağına işarə edilmiş ola bilər (doğrusunu Allah bilir).

Ayədə keçən "mustakarrin" sözü təyin olunmuş bir yer və ya təyin olunmuş bir zaman mənasını ehtiva edər. "Axıb gedir" olaraq tərcümə olunan "tecri" sözü isə "hərəkət edər, tələsik edər, dövr edər, gəzər, üsul

izlər, yol qət edər, cərəyan edər, axar" mənalarını verməkdədir. Sözlərin mənalarından Günəşin sabit qalacağı məkan və zamana doğru hərəkətini davam etdirdiyi, ancaq bu hərəkətin əvvəldən təyin olunmuş bir zamana qədər sürəcəyi aydın olmaqdadır. Necə ki, qiyamət günü ilə əlaqədar təriflərdəki "Günəş, sarınacağı zaman" (Təkvir surəsi, 1) ayəsiylə də belə bir zamanın olacağı bildirilməkdədir. Bunun vaxtı isə yenə Allah Qatında müəyyəndir.

Ayədə Allahın "təqdiri" olaraq tərcümə edilən "takdiyru" sözü isə, "təyin etmə, qədərini çəkmə, hökm etmə, ölçüb biçmə, nizamlama, ölçüyə salma" mənalarını verməkdədir. Yasin surəsinin 38-ci ayəsindəki bu ifadə ilə də Günəşin ömrünün Allahın təyin etdiyi bir müddət ilə məhdud olduğu bildirilməkdədir. Quranda bu mövzuyla əlaqədar digər ayələrdən bəziləri belədir:

> *Gördüyünüz göyləri dirəksiz yüksəldən, sonra da Ərşə ucalan, müəyyən vaxta qədər göydə hərəkət edən günəşi və ayı əmrinə tabe edən Allahdır. O, işləri yoluna qoyur və ayələrini belə izah edir ki, bəlkə Rəbbinizlə qarşılaşacağınıza yəqinliklə inanasınız.*
>
> **(Rad surəsi, 2)**

> *O, gecəni gündüzə, gündüzü də gecəyə qatır. O, günəşi və ayı ram etmişdir. Onların hər biri müəyyən olunmuş vaxtadək hərəkət edir. Bu sizin Rəbbiniz olan Allahdır. Mülk Onundur. Sizin Ondan başqa yalvardıqlarınız xurma çəyirdəyinin pərdəsinə belə sahib deyillər.*
>
> **(Fatir surəsi, 13)**




1. Lantanitlər

> *O, göyləri və yeri bir həqiqət kimi yaratmışdır. O, gecəni gündüzə bürüyür, gündüzü də gecəyə bürüyür. O, günəşi və ayı ram etdi. Onların hər biri müəyyən olunmuş vaxtadək hərəkət edir. O, Qüdrətlidir, Bağışlayandır.*
>
> **(Zumər surəsi, 5)**

Yuxarıdakı ayələrdə keçən “musemmen” sözü ilə də Günəşin hərəkət müddətinin “müəyyən” olduğu bildirilməkdədir. Günəşin sonu ilə əlaqədar elmi izahlarda, Günəşin hər saniyə 4 milyon ton maddə istifadə edərək enerjiyə çevirdiyi,[39] bu yanacaq bitdiyində də Günəşin ömrünü tamamlayacağı təsvir edilməkdədir.[40] Günəşdən gələn istilik və işıq, hidrogen nüvələrinin parçalanma üsulu ilə birləşərək heliuma çevrilməsi əsnasında, istifadə edilən maddənin yerinə ortaya çıxan enerjidir. Bu səbəbdən Günəşin enerjisi (qısacası ömrü) də bu yanacağın sona çatması ilə bitəcək (doğrusunu Allah bilir). Arizona Universitetindən Professor

William Arnett, bizə ən yaxın ulduz olan Günəşin ölümünü belə açıqlamaqdadır:

...Günəş yavaş-yavaş öləcək. Bir ulduzun nüvəsi içinə çökərkən, zaman içində ehtiva etdiyi helium atomlarını alovlandıracaq qədər istilik qazanar. Helium atomları nüvə əriməsi ilə birləşərək, karbon meydana gətirərlər. Helium qaynaqları tükəndiyində nüvə təkrar çökər və atmosferi partlayar. Günəş, nüvəsini üçüncü dəfə alovlandıracaq qədər böyük kütləyə sahibi deyil. Bu səbəbdən genişlənməyə davam edər və atmosferini silsilə partlamalar nəticəsində itirər... Quruyan nüvəsi nəticədə ağ bir cırtdan planet meydana gətirər; karbon və oksigendən meydana gələn, Dünya böyüklüyündə böyük bir almaz kimidir. Bu nöqtədən sonra Günəş zamanla solacaq, gedərək işığı qaralacaq və sonunda tamamilə sönəcək.41

“National Geographic” televiziya kanalının yayımladığı “Günəşin ölümü” adlı sənədli filmdə də mövzu ilə əlaqədar bunlar təsvir edilməkdədir:

(Günəş) İstilik istehsal edər və planetimizdə həyatın davamını təmin edər. Lakin insanlar kimi Günəşin də məhdud bir ömrü vardır. Ulduzumuz yaşlandıqca gedərək daha çox istilənərək genişləyəcək, beləcə okeanlarımızı buxarlaşdıracaq və Yer planetindəki bütün həyatı öldürəcək. Günəş zaman içərisində daha çox isinər və daha sürətli yanacaq sərf edər. Bu da Dünya üzərində istiliyin artmasına və nəticədə canlı həyatın sona çatmasına, okeanların buxarlaşmasına və bütün bitkilərin ölməsinə gətirib çıxaracaq... Günəş genişləyəcək, qırmızı nəhəng bir ulduza çevriləcək və yaxınındakı planetləri də udacaq... Ən sonunda isə büzülərək ağ bir cırtdan planetə çevriləcək.42

Elm adamları Günəşin quruluşunu və içində meydana gələn hadisələri ancaq son əsrlərdə kəşf etmişlər. Bundan əvvəl Günəşin enerjisini haradan qazandığı, Günəşin necə işıq və istilik yaydığı kimi hadisələr

bilinən məlumatlar deyildi. Quranda 14 əsr bundan qabaq, bu cür nəhəng bir kütlənin enerjisinin tükənərək bir gün sona çatacağını bildirilməsi, üstün bir elmin varlığını göstərməkdədir. Hər şeyi əhatə edən bu məlumat, Uca Rəbbimizin elmidir. Quranda bir ayədə belə bildirilməkdədir:

> *"...Rəbbim elmi ilə hər şeyi əhatə etmişdir. Məgər düşünüb ibrət almayacaqsınız?*
>
> **(Ənam surəsi, 80)**



## Günəşin hidrogen və helium tərkibi

Günəşin 70%-i hidrogen (H), 28%-i də helium (He) atomlarından meydana gəlməkdədir.43 Geri qalan digər maddələrin hamısı 2%-dən daha az nisbətlərdədir. Günəşdə hər saniyə 600 milyon ton hidrogen, 596 milyon ton heliuma çevrilməkdədir. Qalan 4 milyon ton isə istilik və işıq enerjisi olaraq ortaya çıxmaqdadır.44 Bu baxımdan Günəş deyildiyində ağla ilk olaraq, H (hidrogen) və He (helium) atomlarını bildirən hərflər gəlir. Qurandakı "Günəş" mənasını verən "Şəms" surəsində isə, surədəki on beş ayənin hamısı istisnasız olaraq H və Ə hərfləriylə bitməkdədir. Bu hərflərin ərəbcə qarşılıqları belədir:

(ərəb dilində hə hərfi) - (ərəb dilində əlif hərfi)

Aşağıda Şəms surəsindəki ayələrin ərəb dilində yazılışları və son sözlərinin oxunuşları görülməkdədir.




1. Ərəbcə "He" hərfi 2. Ərəbcə "Əlif" hərfi

Şəkildən də görüldüyü kimi Şəms (Günəş) surəsindəki bütün ayələrin sonu, "hə" və "əlif" hərfləri ilə bitir. Hidrogenin simvolu "H" və heliumun simvolu "He" hərflərini ehtiva etməkdədir. Quranda Şəms surəsindən başqa heç bir surə əvvəldən axırı kimi bu hərflərlə bitməz. Bu baxımdan



Quranda yalnız bu surədə belə bir hərf düzülməsinin olması son dərəcə diqqət çəkicidir. Həmçinin Şəms surəsinin nömrəsi olan 91 rəqəmi də xüsusidir. Hidrogen xaricində təbiətdə təbii olaraq olan 91 element daha vardır və bunlar Hidrogen atomlarından meydana gəlməkdədir. Digər bir ifadəylə, ən yüngül element olan hidrogendən ağır 91 elementdəki bütün atomlar, Hidrogenin intra-atomik (atomlar arası) birləşmələrdir. Bu səbəblə Günəşdə mövcud olan H (hidrogen) atomu, təbiətdəki digər 91 elementi də meydana gətirməkdədir.45



Ürək masajı zamanı sinəyə yuxarıdan vurulduğunda ürəyin yenidən döyünməsi mümkündür.

Kainatı, içində var olan bütün detalları ilə Uca Allah yaratmışdır və yaratmağa davam etməkdədir. Bu detallara aid bütün elmlər də,

Rəbbimizin sonsuz məlumatından qavramamıza icazə verdiyi hissələrdir. Bir ayədə belə buyurulmaqdadır:





Solda sağlam sümük toxuması, sağda isə sümük ərimələsindəki sümük toxuması görülməkdədir.



Klonlanmış it Snupi

*Allah, Ondan başqa ibadətə layiq olan məbud yoxdur, əbədi Yaşayandır, bütün yaratdıqlarının Qəyyumudur. Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Onun izni olmadan Onun yanında kim havadarlıq edə bilər? O, məxluqatın gələcəyini və keçmişini bilir. Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun Kürsüsü göyləri və yeri əhatə edir. Bunları qoruyub saxlamaq Ona ağır gəlmir. O, Ucadır, Uludur.*

**(Bəqərə surəsi, 255)**






1. Scottish Blackface (sitoplazma donoru) 2. Finn Dorset (nüvə donoru) 3. Nüvənin çıxarılması 4. Süd vəzisi hüceyrələri





Klonlanan ilk məməli heyvan Dolly, 14 fevral 2003-cü ildə öldü.

## Doğumu asanlaşdıran çəkmə hərəkəti

*Doğuş sancıları onu bir xurma ağacının gövdəsinə söykənməyə vadar etdi. O dedi: "Kaş bundan əvvəl öləydim və bir dəfəlik unudulaydım!" Məryəmin aşağı tərəfindən (bir səs) onu səsləyib dedi: "Qəm yemə, Rəbbin sənin ayağının altından bir bulaq axıtdı. Xurma ağacının gövdəsini özünə tərəf silkələ ki, üstünə yetişmiş, təzə xurma tökülsün.*

**(Məryəm surəsi, 23-25)**

Dövrümüzün tibbi məlumatları göstərməkdədir ki, doğum əsnasında bir cismin çəkilməsi, körpənin doğum kanalından aşağıya doğru hərəkət etməsini asanlaşdırmaqdadır. Çəkmə əsnasında istifadə edilən əzələlər, körpənin rəhm xaricinə itələnilməsini təmin edən əzələlər ilə eynidir. Bunu təmin etmək üçün tavana asılmış bir ip və ya dəstək bir qola asılma, doğum yatağının iki kənarına yerləşdirilmiş qolları çəkmə və ya bir başqa adamın əlindən tutub çəkmə kimi üsullar istifadə edilməkdədir.46

Bunun üçün "squat bar" deyilən, doğum əsnasında yataqlara birləşdirilən tərs U şəkilli bir qol istifadə edilməkdədir. Bu barın çəkilməsi körpənin rəhm xaricinə itələnilməsi mərhələsini asanlaşdırmaqda, doğum kanalının dərinliyini qısaltmaqda, rəhm ağzını genişlətməkdə və doğum əsnasında istifadə edilən bir çox alət və texnikaya olan ehtiyacı azaltmaqdadır.47

Bu dəstək qolu, ananın özünü yuxarı doğru çəkmək hərəkəti etməsinə kömək etməkdədir. Körpənin itələnilməsi əsnasında da ananın sabit qalmasını təmin edər.48 Bu mövqedə körpəsini doğum kanalından hərəkət etdirmək üçün lazımlı olan əzələ qüvvəsi üçün minimum güc sərf

olunar. Beləcə ləyən sümüklərinə maksimum təzyiq, minimum əzələ qüvvəsi ilə təmin edilmiş olar. Həmçinin ləyən sümükləri açılaraq, körpənin keçməsi üçün 30% nisbətində daha çox yer təmin edər. Uzanaraq çəkmə hərəkəti ilə, bədənin itələmə gücü ən üst səviyyəyə çıxar və körpənin doğum əsnasında düz dönməsini təmin edər.49

Hz. Məryəmə də Allahın mələyi vasitəsi ilə xurma budaqlarını özünə doğru çəkməsini bildirməsi son dərəcə hikmətlidir. Ayədə keçən "huzziy" sözü "sürətlicə çəkmək, silkələmək, hərəkət etdirmək" mənalarını verməkdədir. Xurmanın doğumu asanlaşdırıcı və bəsləyici əhəmiyyəti ilə yanaşı, budaqların silkələmək üzrə çəkilməsi, budaqlara uzanmaq da həmçinin doğumu asanlaşdırıcı hərəkətlərdir. Dövrümüzdə tətbiq olunan bu üsul, Allahın hz. Məryəmi rəhməti ilə dəstəklədiyinin, Quranın hər şeyin məlumatına sahib Uca Rəbbimizin vəhyi olduğunun dəlillərindən biridir.



## Müdafiəsi möhkəm ana rəhmi

*Biz onu etibarlı bir yerdə yerləşdirmədikmi məlum bir vaxta kimi? Biz nütfəni yaratmağa qadir olduq. Nə gözəl Qadir olanlarıq Biz!*

**(Mürsəlat surəsi, 20-23)**



Ana bətnindəki döl bədənə yad olmasına baxmayaraq müdafiə sisteminin hücumuna məruz qalmır.

*Həqiqətən, Biz insanı palçıq cövhərindən yaratdıq. Sonra nütfə halında müdafiəsi möhkəm yerdə qərarlaşdırdıq. Sonra nütfədən laxtalanmış qan yaratdıq, sonra o qandan bir parça ət yaratdıq, sonra o bir parça ətdən sümüklər yaratdıq, sonra da sümükləri ət ilə örtdük. Sonra da onu başqa bir məxluq olaraq xəlq etdik. Yaradanların ən yaxşısı olan Allah nə qədər xeyirxahdır!*

**(Muminun surəsi, 12-14)**

İnsanın yaradılışı ilə əlaqədar yuxarıdakı ayələr, embriologiya sahəsinə aid təməl məlumatlar ehtiva etməkdədir. Ayələrdəki rəhm bölgəsini təsvir edən "müdafiəsi möhkəm bir yerdə qərarlaşdırdıq" ifadəsi isə, günümüzdəki tibb məlumatı ilə daha yaxşı aydın olan, əhəmiyyətli bir xüsusiyyətə işarə etməkdədir (doğrusunu Allah bilir). Sperma və yumurta hüceyrələrinin birləşməsi ilə yaranan ziqotdan, trilyonlarla hüceyrənin uyğunluq içində işlədiyi, tam bir insan olana qədərki müddət ana rəhmində keçər. Embrionun 9 aylıq bir müddətdə inkişafını tamamladığı bu yer (rəhm) ayədə də bildirildiyi kimi, "müdafiəsi möhkəm" bir məkandır.

Ayələrdəki "müdafiəsi möhkəm" olaraq tərcümə olunan "mekiynin" ifadəsi, "sarsılmaz, möhkəm, güclü, yerindən ayrılmayan, möhkəm yerinə yerləşmiş" kimi mənalar ehtiva etməkdədir. "Kararin" sözü isə

“yerləşmə məkanı, qalma, sabitlik, möhkəmlik, dayanma yeri” kimi mənalara gəlməkdədir. Bu sözlər rəhmin möhkəm, qorunan bir məkan olduğunu çox hikmətli bir şəkildə təsvir etməkdədir.




Xarici faktorlara, işığa, səsə qarşı izolyasiya təmin edən ana rəhmi, əvvəlcə körpəni hər cür zərbədən və təzyiqdən qoruyar. Çanaq boşluğunda yerləşən rəhm, bu bölgənin qalın və güclü sümüklərlə əhatə olmasından ötrü, çox yaxşı qorunur. Rəhm bölgəsi, hamiləlik sonuna qədər körpənin ağırlığını daşımasını təmin edən, xaricdə güclü əzələ divarları, daxildə də “endometrium” deyilən təbəqə ilə örtülüdür. Bu güclü əzələlərdən ibarət olan quruluş, körpənin böyüməsi və inkişafı üçün son dərəcə əlverişli bir quruluşa malikdir. Hamiləlik dövründə bölgədəki sümükləri bir-birinə bağlayan bağlar da qalınlaşar və uzanar. Möhkəm çanaq sümükləri ilə rəhmin üst qisminə yapışıq halda olan bağlar, rəhmə möhkəm və sabit quruluş qazandırar.

Embrionun inkişafı əsnasında ehtiyacı olan istilik, su, oksigen və bəslənmə qaynağına da malikdir. Ana rəhmi, hamiləlik dövründə, möhkəmliyini artıracaq çox sayda dəyişikliyə uğrayar. Ehtiva etdiyi əzələ, bağ və elastik toxumalarla birlikdə, qan damarları və sinirlər də miqdar olaraq artar. Beləcə rəhmin zərər görmədən ağırlığının 20 qatına çıxması, tutumunun 1.000 qat artması mümkün olar.50 Rəhmə dəstək verən uşaqlıq borusu, yumurtalıqlar və digər bağ toxumaları da tamamilə genişləyərək elastiklik qazanar.51 Rəhmin dəyişmə müddəti, embrion yüzlərlə qat böyüyüb sağlam bir körpə olduqdan sonra da davam edər. Bu səfər körpənin rəhmdən sağlam bir şəkildə çıxmasına imkan verəcək şəkildə quruluşu dəyişər.



Hamiləlik dövründə körpənin qorunmasıyla əlaqədar olaraq son dərəcə möcüzəvi bir vəziyyət daha reallaşar və körpə daxili hücumlardan qorunar. Orqan, hətta ilik nəqlində belə, xarici bir maddənin bədənə girməsi ilə, insanın müdafiə sistemi reaksiya verməyə başlayar və bəzən bu reaksiyalar ölümcül nəticələr doğura bilər.52 Lakin döl üçün bu baş verməz və ananın müdafiə etmə sistemi, onu yad hesab etməz. Ananın immunitet sisteminin, atadan gələn xarici genlərə qarşı dözümlülük göstərməsi, fövqəladə bir vəziyyətdir; çünki körpə 50% yad insanın quruluşunu daşımaqdadır. Bu vəziyyəti “heyranlıq verici” olaraq xarakterizə edən Guelph Universitetindən elm adamı Marianne van den Heuvel; “Bu immunitet baxımından hər zaman bir bilməcə olaraq qalmışdır; çünki döl əslində anaya yaddır. Ananın parçası olduğu qədər, atanın da parçasıdır. Bədənin bunu rədd etməsi lazımdır.”53 deməkdədir.

Virus, şiş kimi xarici hüceyrələri tanıyıb, öldürən immunitet sistemindən gözlənilən, döl hüceyrələrinə də savaş açmasıdır. Ancaq Allahın diləməsi

ilə belə bir vəziyyət reallaşmaz və rəhm son dərəcə etibarlı, möhkəm bir yer olma xüsusiyyətini qoruyar.


Qan hüceyrələri

Quranda embriologiya sahəsi ilə əlaqədar verilən məlumatların hamısı, müasir tibb ilə tam uyğunluq içindədir. Hər biri inkişaf etmiş texnologiya səviyyəsi nəticəsində ortaya çıxan bu məlumatlar, Quranın, bütün elmlərin sahibi, hər şeyin Yaradıcısı Uca Rəbbimizin vəhyi olduğunun ən açıq dəlillərindəndir. Əsrlərlə əvvəl elm dünyasına işıq tutacaq məlumatlarla dolu olan Quran-i Kərimdə "insan" belə bildirilməkdədir:

> *Sizin yaradılışınızda və Allahın Yer kürəsinə yaydığı canlılarda qəti iman gətirmiş insanlar üçün neçə-neçə dəlillər vardır.*
>
> **(Casiyə surəsi, 4)**




1. Gələn qan 2. Alveol 3. $CO_2$ xaricə





Qan

## Hz. Musa (ə.s)-ın dənizi yarmasında tsunami təsiri

*Biz Musaya: "Əsanla dənizə vur!" – deyə vəhy etdik. Dəniz dərhal yarıldı, on iki yol açıldı və hər biri nəhəng bir dağ kimi oldu.*

**(Şuəra surəsi, 63)**

Firon olaraq bilinən Misir kralları, qədim Misirin çox tanrılı batil dinində, özlərini ilah olaraq qəbul edirdilər. Allah, həm Misir xalqının haqq dinə qarşı batil bir sistemi mənimsəmiş olduğu, həm də İsrailoğullarının kölələşdirildiyi bir dövrdə, hz. Musanı elçisi olaraq Misir qövmünə göndərmişdir. Ancaq qədim misirlilər (başda Firon və ətrafı olmaq üzrə) hz. Musanın haqq dinə dəvətinə baxmayaraq, bütpərəst inanclarından imtina etmirdilər. Hz. Musa, Firona və yaxın ətrafına çəkinmələri lazım olan şeyləri açıqlamış və onları Allahın əzabına qarşı xəbərdar etmişdi. Buna baxmayaraq onlar üsyan edib hz. Musaya böhtanlar ataraq dəlilik, cadugərlik və yalançılıqla günahlandırmışlardı. Firon və qövmünə çox sayda bəla verilməsinə baxmayaraq, onlar Allaha təslim olmamışlar; Allahı tək İlah olaraq qəbul etməmişlərdi. Hətta başlarına gələnlərdən ötrü hz. Musanı məsul tutaraq, onu Misirdən sürgün etmək istəmişdilər. Bunun üzərinə Allah, hz. Musa və onunla birlikdə möminlərə olduqları yeri tərk etmələrini bildirmişdir:

> *Biz Musaya: "Qullarımla birlikdə gecə yola çıx. Çünki siz təqib olunacaqsınız" – deyə vəhy etdik. Firon şəhərlərə əsgər toplayanlar göndərdi. O dedi: "Bunlar kiçik bir dəstədir. Onlar bizi qəzəbləndirmişlər. Biz hamımız ayıq-sayıq olmalıyıq". Biz onları (o zalım tayfanı) bağlardan və çeşmələrdən çıxartdıq; xəzinələrdən və gözəl yerlərdən də qovduq. Beləcə, Biz İsrail oğullarını o yerlərə varis etdik. Günəş üfüqdən qalxarkən Firon öz əsgərləri ilə onları izləməyə başladılar.*
>
> **(Şuəra surəsi, 52-60)**




1. Sunami sahilə yaxınlaşır 2. Sürət: 30-200 mph

Quranda bildirildiyi kimi bu təqibin ardından iki birlik qarşı-qarşıya gəldikləri sırada, Allah dənizi yararaq hz. Musanı və onunla birlikdə iman edənləri qurtarmış, Firon və qövmünü isə həlaka uğratmışdır. Quranda Allahın iman edənlərə bu köməyi belə bildirilər:

*Biz Musaya: "Əsanla dənizə vur!" – deyə vəhy etdik. Dəniz dərhal yarıldı, on iki yol açıldı və hər biri nəhəng bir dağ kimi oldu. O birilərini də ora yaxınlaşdırdıq. Musa və onunla birlikdə olanların hamısını xilas etdik. O birilərini isə suya qərq etdik. Şübhəsiz ki, bu hekayətdə bir ibrət vardır. Lakin onların çoxu iman gətirmədi. Həqiqətən, sənin Rəbbin Qüdrətlidir, Rəhmlidir.*

**(Şuəra surəsi, 63-68)**



Şuəra surəsinin 63-cü ayəsində "vur" olaraq tərcümə edilən ərəb dilində "idrib" sözü, eyni zamanda "açmaq, ayırmaq, bölmək" mənalarına da gəlməkdədir. Bu ifadəylə və davamındakı ayələrdə izah edilən hadisə ilə, tsunami dalğasının meydana gəlməsinə işarə edilir ola bilər (doğrusunu Allah bilir). Çünki tsunami dalğalarında da böyük miqdarda su yer dəyişdirərək dayaz sularda zəminin ortaya çıxmasına səbəb olmaqdadır. Hz. Musa dövründə də tsunami dalğalarında olduğu kimi, sular bir neçə yüz metr kənara doğru toplanmış və beləcə dəniz yarılmış ola bilər (doğrusunu Allah bilir).

Həmçinin yuxarıdakı ayələrdə suların görünüşü dağlara bənzədilməkdədir. Tsunami dalğasında toplanan sular nəhəng bir təpə meydana gətirər54 və bu dalğaların əsl kütləsi dibdə olduğundan, dağ kimi bir görünüş alar. Dağlardakı kimi tsunami dalğasının da döşəmə hissəsi daha güclü və genişdir. Tsunami dalğalarında, bir tərəfdən su dərinliyi azalarkən, dalğanın kütləsi genişləyərək yüksəkliyi artar. Dalğa yüksəkliyi 30 metrə çata bilməkdədir.55 Bu baxımdan suyun aldığı görünüşün dağlara bənzədilməsi çox mənalıdır.

Tsunamilər bildiyimiz dalğalardan çox fərqlidir və dəniz suyunun hərəkət etməsi ilə meydana gəlir. Bu dərinlik çox vaxt bir neçə kilometr olar. Bu səbəblə dalğalar çox güclü bir enerjiyə sahib olarlar və çox yüksək sürətlərdə hərəkət edərlər.56 Elmi açıqlamalarda tsunami dalğaları ilə əlaqədar bunlar bildirilməkdədir:

...Əslində tsunami dalğası hərəkət halında olan nəhəng bir su kütləsinin tək üst ucudur... Dalğalar okean səthində tək dayaz bir təbəqə meydana gətirərkən, tsunami okeanın içində yüzlərlə metr dərinliyə uzana bilər... Tsunami dalğalarını ümumiyyətlə qaranlıq su “divarları” şəklində təsvir edərlər. Arxasında dayanan güclü su kütləsi səbəbi ilə dalğalar daha sonra sahil zolağının üzərini örtər və sahil tamamilə su altında qalar.

...Dəniz döşəməsinin sərhədləri və sahil zolağı dalğaların yüksəkliyini təyin edən faktorlardır və bəzən gözlənilməz nəticələr verə bilər. 1993-cü ildə Yaponiyada Okushiridə meydana gələn tsunamidə, sahilə vuran dalğalar təxminən 15-20 metr yüksəklikdə idi. Lakin müəyyən bir yerdə dalğalar dənizin içində V şəklində bir vadi meydana gətirdilər və suyu gedərək daha dar bir sahədə təzyiq altına aldılar. Nəticədə su dəniz səviyyəsindən 32 metr yüksəkliyə çatdı, bu təxminən 8 mərtəbəli bir bina yüksəkliyi idi.57




1. İlıq su sərhədi 2. Enerji

Quranda keçmişlə əlaqədar bildirilən hadisələrin, dövrümüzdə tarixi dəlillərlə və elmi faktlarla işıqlanması, şübhəsiz ki, Quranın əhəmiyyətli bir möcüzəsidir. Hz. Musa ilə birlikdəki olanların keçəcəyi vaxt suların çəkilib, Firon və ordusu keçərkən suların təkrar yüksəlməsi, Allahın möminlərə köməyinin açıq bir nümunəsidir. Lakin hz. Musa bu çətin anda Allaha güvənərək son dərəcə gözəl bir əxlaq nümunəsi sərgiləmişdir:

> *İki dəstə bir-birini görüncə Musanın səhabələri: "Biz yaxalanacağıq!" – dedilər. Musa dedi: "Xeyr, Rəbbim mənimlədir. O mənə doğru yol göstərəcəkdir!"*
>
> **(Şuəra surəsi, 61-62)**



# Nuh tufanı hekayəsindəki elmi həqiqətlər

*Biz Nuhu öz qövmünə peyğəmbər göndərdik. O, min ildən əlli il az bir müddət ərzində onların arasında qaldı. Tufan onları zülm etdikləri zaman yaxaladı.*

**(Ənkəbut surəsi, 14)**




A. Vulkanın kəsiti

Hz. Nuh, peyğəmbər olaraq göndərildiyi qövmünə, Allaha şirk qoşmadan iman etmələri və azğınlıqlarından əl çəkərək Allahın dininə tabe olmaları üçün uzun illər öyüd vermişdir. Qövmünü Allahın əzabına qarşı bir çox dəfə xəbərdar etdiyi halda, onlar hz. Nuhu yalanlamış və şirk qoşmağa davam etmişlər. Bunun üzərinə Allah hz. Nuha, inkar edib zülm edənlərin suda boğularaq əzablandırılacağını və iman edənlərin qurtarılacağını xəbər vermişdir. Quranda Nuh qövmünün həlak edilməsi və iman edənlərin qurtuluşu bir ayədə belə bildirilməkdədir:

> *Kafirlər onu yalançı hesab etdilər. Biz onu və onunla birlikdə gəmidə olanları xilas etdik. Ayələrimizi yalan hesab edənləri isə suya qərq etdik. Doğrudan da, onlar kor adamlar idilər.*
>
> **(Əraf surəsi, 64)**

Allahın vədi olan əzab vaxtı gəldiyində, reallaşan hadisələr Quranda belə təsvir edilməkdədir:

> *Nəhayət, əmrimiz gəldiyi və təndir qaynayıb fışqırdığı zaman Biz Nuha dedik: "Heyvanların hər növündən bir cüt, barələrində söz keçmiş kəslər istisna olmaqla, öz ailəni və bir də iman gətirənləri gəmiyə mindir". Lakin, onunla birlikdə az adam iman gətirmişdi.*
>
> **(Hud surəsi, 40)**

Yuxarıdakı ayədə əzab vaxtının başlanğıcı "təndir qaynayıb fışqırdığı zaman" olaraq təsvir edilməkdədir. "Təndir" olaraq tərcümə olunan sözün ərəbcəsində qarşılığı "ettennuru"dur. Təndir bilindiyi üzrə "yerə çuxur

qazılaraq düzəldilən bir növ soba"dır və bu yönü ilə dağın içindəki vulkanik atəşə işarə etməkdədir (doğrusunu Allah bilir). Ayənin ərəbcəsində "fare" olaraq keçən "qaynama" ifadəsinin mənaları isə "qüvvət və şiddətlə qaynadı, şiddətli yandı, qabarcıqlar çıxardı, qaynayıb daşdı, köpük çıxardı, fışqırdı" şəklindədir. Bu səbəbdən təndirin fışqırması ifadəsi, bir yönü ilə dağın içindəki qızğın lavaların püskürməsinə işarə etməkdədir.

Bir başqa ayədə isə hz. Nuhun gəmiyə minmə vaxtı, "təndir qaynayınca" ifadəsiylə bildirilməkdədir. Burada da vulkanik partlayışdan dərhal əvvəlki, dağdan yüksələn isti tüstülərə işarə edilir ola bilər:



Alyaskadakı Klivlend vulkanının Beynəlxalq Kosmos Stansiyası tərəfindən çəkilmiş fotosu.

> *Biz ona vəhy etdik: "Gözlərimiz önündə və vəhyimizlə gəmini düzəlt. Əmrimiz gəldiyi və təndir qaynadığı zaman hər canlıdan bir cüt erkək və dişi, barəsində söz keçmiş (əleyhinə hökm verilmiş) kəslər istisna olmaqla, öz ailəni gəmiyə mindir. Zalımlar barəsində Mənə müraciət etmə. Çünki onlar suya qərq olunacaqlar.*
>
> **(Muminun surəsi, 27)**

Vulkanik partlayışın ardından axan qızğın lavalar, dağdakı buzlaqların əriməsinə gətirib çıxarmış; dənizlərə axan lavaların nəticəsində yaranan soyuq və istinin birləşməsindən ortaya çıxan sıx su buxarı da şiddətli yağışlara səbəb olmuş ola bilər. Bu hadisələrin nəticəsində sellər olmuş və

yerdəki su qaynaqları, şiddətli yağışlarla birləşərək nəhəng ölçülü bir daşqına səbəb olmuş ola bilər (doğrusunu Allah bilir):

> *Biz göyün qapılarını leysan yağışı ilə açdıq. Yeri yarıb bulaqlar qaynatdıq. Göydən tökülən və yerdən çıxan sular əzəldən yazılmış bir iş üçün bir-birinə qovuşdu. Biz onu taxtalardan pərçimlənib mismarlanmış gəmidə daşıdıq.*
>
> **(Qəmər surəsi, 11-13)**




1. Keçirici qat 2. Keçirməyən qat

Hz. Nuhun gəmisinə minmiş olanlar xaricində (hz. Nuhun, yaxındakı bir dağa sığınaraq xilas olacağını sanan "oğlu" da daxil olmaq üzrə) bütün qövm suda boğulmuşdur:

> *Gəmi onları dağlar kimi dalğalar içərisində apardığı zaman Nuh kənarda duran oğlunu səsləyib dedi: "Oğlum! Bizimlə birlikdə gəmiyə min, kafirlərdən olma!" O dedi: "Məni sudan qoruyacaq bir dağa sığınacağam!" Nuh dedi: "Bu gün, Allahın rəhm etdiklərindən başqa heç kəs Onun əmrindən qoruna bilməz!" Sonda dalğa onları bir-birindən ayırdı və o, suda boğulanlardan oldu.*
>
> **(Hud surəsi, 42-43)**

Tufan nəticəsində sular çəkilincə gəmi, Quranda bildirildiyinə görə, Cudiyə (yəni yüksəkcə bir yerə) oturmuşdur:

> *Sonra deyildi: "Ey yer, suyunu ud! Ey göy, yağışını saxla!" Su çəkildi, iş bitdi və gəmi Cudi dağı üzərində qərar tutdu. Sonra deyildi: "Məhv olsun zalım adamlar!"*
>
> **(Hud surəsi, 44)**

Dağların lava püskürtməsi bir müddət sonra dayandığında, hava yenidən soyuyaraq əvvəlki tarazlığına oturmuş, sular yeraltına çəkilmiş; bir qismi də göydə su buxarı olaraq qalmış ola bilər. Suların bu şəkildə tarazlanması nəticəsində, yenidən hər şey normala çevrilmişdi. Ayədə bildirildiyi kimi, Allahın yerə "suyunu ud", göyə də "saxla" əmri verməsi, bu vəziyyəti ən geniş şəkildə təsvir etməkdədir. Ərəbcə "belea" feili ayədə keçdiyi şəkli ilə "iblai" sözü, "udub yox et, çək" mənalarını verməkdədir. Yerin suları udması ifadəsi ilə, Yer kürəsindəki suların yeraltına çəkilərək; bir istiqamətiylə, artezian kimi, yeraltındakı su qaynaqlarını meydana gətirməsinə diqqət çəkilməkdədir. Ərəbcə "aklaa" feili ayədə keçdiyi şəkli ilə "aklii" sözü isə "buludların açılması, dağılması, yağışın kəsilməsi, bir

işdən imtina edilməsi, ya da tərk edilməsi" mənalarını verməkdədir. Bu ifadə ilə də bir yönü ilə lavaların püskürməsi dayandıqdan sonra havanın yenidən soyuması, göydəki su buxarı miqdarının tarazlanaraq yağışın kəsilməsi və yağış buludlarındakı qalan su buxarının da səmaya dağılması təsvir edilməkdədir (doğrusunu Allah bilir).

Elmi şərhlərlə bir-bir üst-üstə düşən bu hadisələr zəncirinə, Quran ayələrində ən hikmətli ifadələrlə işarə edilməkdədir. Coğrafiya, geologiya, meteorologiya kimi bir çox elm sahəsini əhatə edən bu məlumatlar Quranın elmlə uyğunluq içərisində olduğunu göstərən dəlillərdən yalnız biridir.



## Günəş doğularkən qütblərdə ozon təbəqəsi

*Nəhayət, günəşin doğduğu yerə çatdıqda onu elə bir qövm üzərində doğan gördü ki, onlar üçün günəşə qarşı heç bir örtük yaratmamışdıq.*

**(Kəhf surəsi, 90)**

Kəhf surəsinin 90-cı ayəsində keçən "sitran" sözü, "örtü, sipər, pərdə," mənalarını verməkdədir. Ayədəki "lem nec'al lehim min duniha sitran" ifadəsində isə, Günəşə qarşı sipəri, örtüsü, qoruyucusu olmayan bir mühit təsvir edilməkdədir. Bu ayə müasir dövrün məlumatları nəzərə alınaraq oxunduğunda, Günəşin zərərli şüalarına qarşı canlıları qoruyan ozon təbəqəsi ağla gəlməkdədir.



Şimal qütbündə Günəşin doğuşu görülməkdədir.

Dünya ətrafındakı ozon təbəqəsində, yəni Günəşin zərərli şüalarına qarşı qoruyucu layda ən çox incəlmənin görüldüyü bölgələr qütblərdir.58 Aparılan elmi araşdırmalarda, Günəşin doğuş anında Şimal qütbünün ozon təbəqəsində ciddi bir incəlmə olduğu müəyyən olunmuş59 və hətta bu elmi təsbit, indiki vaxtda "Günəş doğuşu ozon dağıntısı" (Sunrise Ozona Destruction-SOD) olaraq təyin olunmuşdur.60

Lakin aparılan araşdırmalar əsnasında, Amerikalı elm adamları (Günəş doğulmadan əvvəl heç bir əlamət yox ikən) Günəş doğulduğu anda, ozon sıxlığında çox sürətli bir azalma olduğunu təsbit etmişlər.61 Bu hadisəyə xüsusilə Şimal qütb (Arktika) bölgəsində rast gəlinməkdə və Günəşin doğuşunun dərhal ardından bir neçə saat boyunca ciddi bir ozon itkisi reallaşmaqdadır.62

Bu ayədə Günəşin "doğuş yeri, doğuş zamanı" mənasını verən ərəbcə "matlıya" sözünün istifadə edilməsi də, ozon təbəqəsi ilə əlaqədar bu elmi təsbitə işarə ola bilər (doğrusunu Allah bilir). Ancaq 20-ci əsrin sonlarında yüksək texnologiya ilə əldə edilən bu təsbitin, Quranda bu cür uyğun bir şəkildə bəhs edilməsi, Quranın elm və texnologiyanın tək sahibi Rəbbimizin vəhyi olduğunun bir başqa dəlilidir.

## A9 TV

## Adnan Oktar deyir ki...

## Allah insanların düşünməsi üçün hər baxdıqları yerdə saysız iman həqiqəti yaratmışdır...

llahın sənətini öyrənmək, yadda saxlamaq çox mühüm bir mövzudur. İman həqiqətini elə axıcı və səmimi izah etməlisən ki, qarşındakı insan



“A səhrada qalıb su tapmış kimi şövqlə, həyəcanla dinləməlidir. İman həqiqətini izah edərkən yaxşı şəkillərdən istifadə etmək, qısa və təsiredici izahat vermək əhəmiyyətlidir.” (3 yanvar 2018)



“İman həqiqəti demək Allahın sənətini ağıllı, elmi dəlillərlə insanlara təqdim etmək və insanların anlayacağı şəkildə hazır və onu düşünmədə çətinlik çəkməyəcəkləri şəkildə qavramalarını təmin etməkdir. İnsanlara analiz edə bilməyəcəyi məlumatı hazır təqdim etsək, kainatdakı gözəlliklərin, atomun quruluşunun, hüceyrənin daxili detallarının təsadüfən meydana gələ bilməyəcəyini elmi dəlillərlə insanların önünə

sərsək insanların daha sürətli anlamasına vəsilə olarıq. Elm Allahın sənətini öyrənmə sənətidir.” (11 dekabr 2017)

BİRİNCİ HİSSƏ

# Quranda ədədlərlə işarə edilən elmi məlumatlardan bəziləri



## Ayın orbiti

*Saat (qiyamət vaxtı) yaxınlaşdı və Ay yarıldı.*

**(Qəmər surəsi, 1)**

Quranda göy cismi olaraq bəhs edilən və "Ay" mənasını verən "qəmər" sözü tam olaraq 27 dəfə keçməkdədir. Eyni şəkildə Ayın Dünya ətrafındakı elliptik (ellips formasındakı) dövrü də 27 gündür. Lakin bu Yer kürəsindən baxan hər hansı bir insanın təsbit edə biləcəyi bir ədəd deyil. Çünki bütöv aylar arasında 29 günlük müddət olduğu üçün, əvvəllər Ayın bir dövrünün 29 gün olduğu düşünülməkdə idi. Halbuki Ay, Dünya ətrafında dönərkən, Dünya da Günəş ətrafında yol qət etməkdədir. Dünyanın irəliləməsindən ötrü Ay, iki gün gecikərək dövrünü tamamlamaqdadır. Bu vəziyyət, Quranda müasir astronomik tapıntılara paralel, bir başqa işarədir (doğrusunu Allah bilir).

"Ay" sözünün Quranda keçmə sayı = 27

Ayın Dünya ətrafındakı dönmə müddəti (gün olaraq) = 27



24 dekabr 1968-ci ildə Ay orbitinə daxil olan Apollo 8 ekipajı üzvü Bill Anders tərəfindən çəkilən bu fotoda Dünya Ay səthi üzərində doğmaqdadır.

## Dəniz və quru hissənin nisbəti

Quranda keçən "dəniz" və "quru" sözlərinin sayının bir-birlərinə nisbəti, bu gün müasir elmin təsbit etdiyi nisbətlə üst-üstə düşür. Quranın endirildiyi dövrdə hələ qitələr kəşf edilməmişdi və qurunun nisbətinin təsbit edilməsi mümkün deyildi. Amerika kimi böyük bir quru hissəsinin kəşf edilməsi belə ancaq 15-ci əsrdə mümkün olmuşdur.

"Quru" sözü Quranda 13 dəfə işlənərkən, "dəniz" sözü 32 dəfə işlənməkdədir. Bu ədədlərin cəmi bizə 45 ədədini verər. Əgər qurunun Quranda bəhs edilmə sayı olan 13-ü 45-ə bölsək, 28,8888888889% alarıq. Dənizlərin Quranda bəhs edilmə sayı olan 32-ni 45-ə böldüyümüz zaman isə, 71,1111111111% sayını alarıq. Bu nisbətlər, planetimizdəki su və quru hissələrinin həqiqi nisbətidir.

Bu söz təkrarları ilə Quranda Dünyanın 71%-nin dənizlər, 29%-nin quru torpaqla örtülü olduğuna işarə edilir ola bilər (doğrusunu Allah bilir). Bu nisbəti dövrümüzdə ancaq, elm adamlarının peyk fotoşəkilləri və kompüter hesablamaları sayəsində əldə etməkdədir.

"Quru" sözünün Quranda təkrarlanma sayı = 13

"Dəniz" sözünün Quranda təkrarlanma sayı = 32

Dünya üzərindəki qurunun nisbəti = 13/45 = 29%

Dünya üzərindəki dənizlərin nisbəti = 32/45 = 71%

## Sirius ulduzu

Gecələr səmada ən parlaq ulduz olan "Sirius", Quranda "ulduz" mənasını verən Nəcm surəsinin 49-cu ayəsində "Şira" olaraq keçməkdədir:

> *Şiranın da Rəbbi Odur.*
>
> (Nəcm surəsi, 49)

Ərəbcə qarşılığı "Şira" olan Sirius ulduzunun yalnız 49-cu ayədə keçməsi, son dərəcə diqqət çəkici bir vəziyyətdir. Çünki elm adamları Sirius ulduzunun hərəkətlərindəki nizamsızlıqlardan yola çıxaraq, onun bir cüt ulduz olduğunu kəşf etdilər. Dolayısilə Sirius, Sirius A və Sirius B olaraq adlandırılan iki ulduzdan ibarət bir bürcdür. Sirius B ulduzunun xüsusiyyəti teleskopsuz görülə bilməməsidir.

Sirius ulduzları bir-birinin ətrafında yay şəklində spiralvarı orbit üzrə fırlanır və bunu bir-birinə yaxınlaşaraq 49.9 il ərzində tamamlayırlar. Bu elmi məlumat, dövrümüzdə Harvard, Ottava və Leicester Universitetlərinin astronomiya fakültələrinin fikir birliyi ilə qəbul etdikləri elmi həqiqətdir.63 Ancaq 20-ci əsrin sonlarına yaxın ortaya çıxan bu elmi həqiqətə, bundan 14 əsr əvvəl, möcüzəvi bir şəkildə, Quranda işarə edilmişdir. Nəcm surəsinin 49-cu və 9-cu ayələri birlikdə oxunduğunda bu möcüzə qarşımıza çıxmaqdadır.

> *Şiranın da Rəbbi Odur.*
>
> (Nəcm surəsi, 49)

> O, iki yay uzunluğunda, hətta ondan da yaxın məsafədə idi.
>
> (Nəcm surəsi, 9)

Nəcm surəsinin 9-cu ayəsində "(ikisi arasındakı uzaqlıq) iki yay uzunluğunda, hətta ondan da yaxın məsafədə idi" olaraq tərcümə olunan "kane kabe kavseyni ev edna" ifadəsi, bizlərə bu iki ulduzun çəkdikləri orbitdə bir-birlərinə yaxınlaşdıqlarını ifadə edir ola bilər (doğrusunu Allah bilir). Quranın vəhy edildiyi dövrdə bilinməsi mümkün olmayan bu elmi həqiqət, bizə, Quranın Uca Rəbbimizin sözü olduğu həqiqətini bir daha sübut etməkdədir.

Sirius ulduzu Quranda "ulduz" mənasını verən Nəcm surəsində keçməkdədir. Sirius bürcü, yay şəklindəki hərəkət orbitində bir-birinə hər 49.9 ildə bir yaxınlaşır. Nəcm surəsinin 49-cu və 9-cu ayələri bu astronomik hadisəyə işarə etməkdədir.



Öndəki Sirius A ulduzu Sirius B-dən böyükdür. (NASA)

## Dəmirin atom nömrəsi

Dəmir, Quranda diqqət çəkilən elementlərdən biridir. Quranda, "dəmir" mənasını verən "Hədid" surəsində Allah belə buyurmaqdadır:

> *...Biz özündə çox böyük qüvvə və insanlar üçün mənfəətlər olan dəmiri də endirdik ki...*
>
> **(Hədid surəsi, 25)**

Ayədə, dəmir üçün istifadə edilən "enzelna" yəni "endirmə" sözü, məcazi olaraq insanların xidmətinə verilmə mənasında düşünülə bilər. Lakin sözün yağış və günəş şüaları üçün istifadə edilən "göydən fiziki olaraq endirmə" şəklindəki həqiqi mənası diqqətə alındığında, ayənin çox əhəmiyyətli bir elmi möcüzə ehtiva etdiyi görülməkdədir. Çünki müasir astronomik tapıntılar dünyadakı dəmir filizi ehtiyatının kosmosdakı nəhəng ulduzlardan gəldiyini ortaya qoymuşdur.64 (Ətraflı məlumat üçün baxın.: "Quran möcüzələri", 4-cü nəşr, Harun Yəhya)




Bununla birlikdə Hədid surəsi, dəmir elementinin kimyəvi simvoluna da işarə etməkdədir. Çünki bu surənin tam ortasındakı 15-ci ayənin ərəbcə oxunuşu, "Fe" hərfi ilə başlamaqdadır. Dəmir elementi də kimyada "Fe" olaraq göstərilməkdədir.

Eyni zamanda Quranın 57-ci surəsi olan "Əl-Hədid" sözünün ərəbcədəki ədədi dəyəri (əbcədi) hesablandığında qarşımıza çıxan rəqəm, surə nömrəsi ilə eynidir: "57" Yalnız "hədid" sözünün ədədi dəyəri hesablandığında isə əldə etdiyimiz ədəd 26-dır. 26 sayı, dövri cədvəl də

görüldüyü kimi, dəmirin atom nömrəsidir. Atom nömrəsi, dəmir də daxil olmaqla bütün elementlər üçün ən mühüm anlayışdır. Hər şeyin məlumatına sahib Rəbbimizin vəhyi olan Quranda, Hədid surəsi ilə həm dəmirin meydana gəlməsinə həm də atom nömrəsinə işarə edilməkdədir (doğrusunu Allah bilir).

Əl-Hədid surəsi Quranın 57-ci surəsidir, əl-Hədid sözünün ərəbcədəki ədədi dəyəri də 57-dir.

Yalnız "hədid" sözünün ədədi dəyəri 26-dır.

26 sayı isə dəmirin atom nömrəsidir.

## Yerin Günəş ətrafında fırlanması: 365 gün

Quranda "gün (yəvm)" sözü 365 dəfə keçməkdədir. Bildiyiniz kimi Yerin Günəş ətrafında fırlanması 365 gün davam edər. Yer, Günəşin ətrafında fırlanarkən öz ətrafında da tam 365 dəfə dönər.

Quranda "gün" sözünün 365 dəfə keçməsi, Yerin orbiti haqqında bizə bundan əsrlər əvvəl məlumat verməsi baxımından çox əhəmiyyətli bir tapıntıdır. Quranda "gün" sözünün 365 dəfə təkrarlanması, Yer ilə Günəş arasındakı 365 gün astronomik hadisəyə işarə edir ola bilər (doğrusunu Allah bilir).

Quranda "gün (yəvm)" sözü 365 dəfə keçməkdədir.

Yerin Günəş ətrafında fırlanması 365 gün davam edər.

## Cinsiyyət və 23-cü xromosom cütü

İnsanların və digər canlıların genetik quruluşu, xromosomlara bağlıdır və DNT-lər bu xromosomlarda yer alan genetik məlumatlardır.

Cinsiyyətin təyin olunması isə 23-cü xromosom cütünə bağlıdır. Yəni bir kişi və qadın arasındakı quruluş fərqliliyi 23-cü xromosom cütündən qaynaqlanmaqdadır. Hər hansı bir insanın 23-cü xromosomu XX şəklində ifadə edilən quruluşdadırsa cinsiyyəti qadın, XY şəklindədirsə cinsiyyəti kişidir.




İnsanda cinsiyyəti müəyyən edən 23-cü xromosomdur. Quranda “qadın” və “kişi” sözləri ayrı-ayrı 23 dəfə təkrarlanır.

Kişi-qadın fərqini təmin edən 23-cü xromosom cütünə Quranda belə işarə edilməkdədir: Quranda həm “kişi” sözü, həm “qadın” sözü ayrı-ayrı 23 dəfə təkrarlanmaqdadır (Hər iki sözün də yalnız tək halları sayılmaqdadır). Xromosomlarla əlaqədar yaxın dövrdə əldə edilən bu tapıntı, Quranda əsrlərlə əvvəldən xəbər verilməkdə və kişi-qadın

arasındakı təməl fərqliliyin 23 sayı ilə əlaqədar olduğuna işarə edilməkdədir (doğrusunu Allah bilir).

Quranda həm "kişi" sözü, həm "qadın" sözü ayrı-ayrı 23 dəfə təkrarlanmaqdadır. Bir insanın cinsiyyətini təyin edən təməl ünsür isə, 23-cü xromosom cütüdür.

## Arının genetik kodu

Canlıların genetik şifrəsi olan DNT-lər, xromosomlarda yerləşməkdədir. Məsələn dünyanın dörd bir tərəfindəki arıların xromosom sayı eynidir və dəyişməz. Ümumiyyətlə bütün heyvanların dişi və erkəyində bərabər sayda xromosom vardır. Lakin arının vəziyyəti digərlərindən bir az fərqlidir. Çünki erkək arı 16 tək xromosoma, dişi arı 16 cüt xromosoma malikdir.65

Məhz arı bu baxımdan (xromosom sayı baxımından) fərqlidir. Bu fərqliliyə Quranda Nəhl surəsində işarə edilir ola bilər (doğrusunu Allah bilir). Quranda "arı" mənasını verən "Nəhl" adlı surə tam 16-cı surədir. Eyni şəkildə arı da 16 xromosomlu bir canlıdır.

İKİNCİ HİSSƏ

# Quranda hərf düzülmələriylə işarə edilən elmi məlumatlardan bəziləri

## Halley ulduzu və 76 il

Müasir astronomiyadakı əhəmiyyətli kəşflərdən biri Halley ulduzunun kəşfidir. Edmund Halley adlı elm adamı, bu ulduzun 76 illik fırlanma müddəti olduğunu 18-ci əsrdə ortaya qoymuşdur. Edmund Halley bu kəşfi ilə, kometaların astronomik orbitlərini də açıqlığa qovuşdurmuşdur.

“Halley” adı ilə tanınan bu ulduzun adı, Quranda diqqət çəkici bir şəkildə Ənam surəsinin 76-cı ayəsində keçməkdədir:

> *Gecənin qaranlığı onu bürüdükdə o, ulduz görüb: “Bu mənim Rəbbimdir!” – dedi. O batdıqda isə: “Mən batanları sevmirəm!” – dedi.*
>
> **(Ənam surəsi, 76)**




“Halley” sözünü meydana gətirən hərflər, Quranda ilk dəfə bu ayədə keçməkdədir. Üstəlik bu ayədə “itib gedən” bir ulduzdan bəhs edilməsi də son dərəcə mənalıdır. Həmçinin bu ayədə “ulduz” mənasını verən Ərəbcə “kevkeba” sözü də, “Halley” hərflərinin tam yanında yerləşməkdədir:




Bu ayənin nömrəsi olan 76 sayı da ulduzun fırlanma müddəti olan 76 ilə işarə edilmiş ola bilər (doğrusunu Allah bilir). Ayənin nömrəsi olan 76 sayı, Halley ulduzunu təmsil edər; çünki Halley ulduzu 76 ildə bir dünyadan görünər, yəni orbitini 76 ildə bir tamamlayar. Bu səbəblə Halley ulduzunun Quranda ilk olaraq 76-cı ayədə keçməsi Allahın bir möcüzəsidir.



NASAtərəfindən 8 mart 1986-cı ildə görüntülənən Halley kometası.

## Hemoqlobin və dəmir



Quranın endirildiyi əsrdə, kimsə hemoqlobin molekulundan xəbərdar deyildi və belə bir tibb termini də mövcud deyildi. Bədənimizdəki qanda oksigen və karbon dioksidi daşıyan və qana qırmızı rəng verən hemoqlobin, 19-cu əsrdə kəşf edilmişdir.

Bədənimizdəki Dəmir (Fe) elementi sayəsində yaranan hemoqlobin, həyati funksiyaların davamı üçün böyük əhəmiyyətə malikdir. Hemoqlobinin ortasında olan dəmir (Fe) elementi, oksigeni özünə bağlayar və beləcə oksigeni qanda daşıyar. Bu səbəbdən hemoqlobin molekulu, dəmir elementi ilə birlikdə düşünmək olar.

Fəth surəsinin 25-ci ayəsində, Fe (dəmir) və hemoqlobin sözlərini meydana gətirən hərflər möcüzəvi bir şəkildə yan-yana gəlməkdədir. Üstəlik hemoqlobini (Hemoqlobin sözü azərbaycan, ərəb, ingilis və fərqli dillərdə demək olar ki, eyni şəkildə yazılıb oxunmaqdadır. Hemoqlobin sözünü meydana gətirən hərflər soldan sağa doğru yan-yana gəlməkdədir) meydana gətirən hərflər başqa heç bir ayədə yan-yana gəlməməkdədir. Bu istisnalı vəziyyət, keçmiş və gələcəyin sahibi, zamandan münəzzəh Rəbbimizin yaratmasının dəlillərindəndir.




## Ozon təbəqəsi

“Ozon” sözü ərəb dilində, azərbaycan dilində və digər bütün xarici dillərdə demək olar ki, eyni şəkildə oxunub yazılmaqdadır. Ozon sözünü meydana gətirən hərflər, Cin surəsinin 6-cı ayəsində yan-yana keçməkdədir. Üstəlik bu ayədən sonrakı ayələrdə isə, səmanın “qoruyucu” xüsusiyyətinə diqqət çəkilməkdədir.

> *Biz səmaya qalxdıqda onun sərt gözətçilər və yandırıb-yaxan alovlarla dolu olduğunun şahidi olduq.*
>
> **(Cin surəsi, 8)**

Ayədə səma ilə əlaqədar təsvir edilən “qoruyucu”luq, atmosferin ozon təbəqəsi ilə üst-üstə düşən açıqlamadır. Çünki ozon, səmadakı qoruyucu təbəqədir və Yer kürəsini təhlükəli Günəş şüalarından qorumaqdadır.

Ozon sözünü meydana gətirən hərflərin yan-yana gəlməsi, üstəlik də ardından gələn ayədə səmanın “qoruyucu” xüsusiyyətindən bəhs edilməsi

təsadüflərlə açıqlana bilməz. Bu Rəbbimizin Quranda yaratdığı möcüzələrdən biridir.



## Göz təbəqəsi: Torlu qişa (retina)

Torlu qişa görməmizi təmin edən hüceyrələrin olduğu göz təbəqəsidir. Quranın endirildiyi dövrdə görmə funksiyasını təmin edən bu təbəqə bilinmirdi və torlu qişa sözü də istifadə edilən bir termin deyildi. Ancaq Quranda “Retina” (Ərəb dili səssiz hərflərdən ibarət bir əlifbadır. Əlif, ərəb dilində sözlərin oxunmasına təsir edərək istifadə olunur) Torlu qişa sözünü meydana gətirən hərflər, tək bir ayədə (Fatır surəsinin 8-ci ayəsində) yan-yana gəlməkdədir. Üstəlik bu ayədə “görməkdən” və

"göstərməkdən" bəhs edilməkdədir; bu səbəbdən torlu qişaya işarə olması ehtimalı böyükdür (doğrusunu Allah bilir).

> *Pis əməli özünə gözəl göstərilib onu yaxşı hesab edənlə, doğru yolla gedən kimsə eyni ola bilərmi? Həqiqətən, Allah istədiyini zəlalətə salır, istədiyini də doğru yola yönəldir...*
>
> **(Fatır surəsi, 8)**




Görməyi təmin edən torlu qişa sözünün keçdiyi bu ayədə, "görmək" mənasını verən ərəbcə "raa" felindən bəhs edilməkdədir. Sonrakı ayələrə baxıldığında, eyni surənin 19-cu ayəsində "Kor və görən eyni deyil" cümləsi keçməkdədir. Bilindiyi kimi torlu qişanın zədələnməsi qalıcı korluğa səbəb olmaqdadır. Sonrakı 20-ci ayədə isə "Zülmətlə nur da" ifadəsi keçməkdədir ki; bu izahat torlu qişanın işığa həssas hüceyrələrdən meydana gəlməsi baxımından çox mənalıdır. Bu saydığımız ayələrdəki görməklə əlaqədar ifadələr bütün Quranda çox nadir keçməkdədir. Bu səbəbdən "retina" sözünün minlərlə ayənin arasında, yalnız bu ayələrlə bir yerdə olması, Allahın Qurandakı möcüzələrindən biridir.

## DNT (DNA) və genetika tarixinin başlanğıcı

فَوَجَدَا عَبْدًا مِنْ عِبَادِنَا آتَيْنَاهُ رَحْمَةً مِنْ عِنْدِنَا وَعَلَّمْنَاهُ مِنْ لَدُنَّا عِلْمًا

Bilindiyi kimi DNT (DNA) termini, canlılardakı genetik kodun qısaldılmış ifadəsidir. Genetika elminin başlanğıc tarixi isə, Mendel adlı elm adamının 1865-ci ildə hazırlamış olduğu genetika qanunlarına söykənir. Elm tarixi üçün bir dönüş nöqtəsi meydana gətirən bu tarix Quranda 18-ci surə olan Kəhf surəsinin 65-ci ayəsində işarə edilməkdədir (doğrusunu Allah bilir).




DNT termini ingilis (Deoxyribonucleic acid) və türk (Deoksiribo Nükleik asit) dilində DNA olaraq yazılar.

D-N-A hərflərinin (ərəbcədə Dal-Nun-Əlif hərflərinin) Quranda haralarda yan-yana gəldiyi araşdırıldığı zaman, ən çox Kəhf surəsinin 65-ci ayəsində keçdiyi görüləcək. Bu ayədə bənzərsiz bir şəkildə, D-N-A hərfləri ard-arda tam üç dəfə, yan-yana yer almaqdadır. Quranın başqa heç bir ayəsində "DNA" hərfləri bu şəkildə ard-arda və çox sayda keçməz.

DNT termininin diqqət çəkici bir şəkildə yer aldığı bu ayənin nömrəsi yuxarıda ifadə edildiyi kimi 18:65-dir. Bu rəqəmlər genetika elminin başlanğıc ili olan 1865-ci ilə diqqət çəkməkdədir ki; bu təsadüf olaraq qiymətləndirilə bilməz. Çünki Quranda yalnız 18:65 ayəsində "DNA" ard-arda üç dəfə keçməkdədir. Bu işarə möcüzəvi xüsusiyyətdədir; çünki DNT (Dezoksiribonuklein turşusu) adını elm dünyası çox yaxın sayıla biləcək bir tarixdə qoymuşdur.

DNT və genetika tarixinin başlanğıcı olan və 1865-ci ilə işarə edən Kəhf surəsində, DNA cəmi 7 dəfə təkrarlanarkən, RNA da (ərəbcədə Ra-Nun-Əlif hərfləri) 7 dəfə təkrar etməkdədir. Bildiyiniz kimi RNA molekulu da DNT kimi genetik quruluşu meydana gətirən digər bir molekuldur. Bu səbəblə DNA-RNA-nın xüsusilə bu surədə bərabər sayda keçməsi, molekullara əsrlər əvvəl Quranda işarə edildiyinin ayrı bir dəlilidir (doğrusunu Allah bilir).

## Qum təpələri və Mars planeti




Qurandakı “Əhqaf” surəsinin tərcüməsi “qum təpələri” mənasını verməkdədir. Astronomiyada Mars deyildiyində ağla ilk gələn xüsusiyyətlərindən biri, Marsdakı yüksək qum yığınları, yəni nəhəng “qum təpələri”dir. Mars bu yönü ilə digər planetlərdən fərqlidir.

Əhqaf surəsinin 23-cü ayəsindəki hərflərin düzülüş ardıcıllığına baxdığımızda isə, ərəbcə Mim, Əlif, Ra və Sin hərfləri yan-yana gələrək, Mars sözünü meydana gətirməkdədir.

Bu hərflərin Marsın ən diqqətə çarpan xüsusiyyətlərindən biri olan və “qum təpələri” mənasını verən Əhqaf surəsində işlənməsi son dərəcə diqqət çəkicidir. Üstəlik yalnız Mars deyil, eyni zamanda Marsın peyki olan göy cismi “Deimos” sözü də bu surədə yan-yana keçməkdədir. Marsın ətrafında dönən “Deimos” adlı göy cisminə aid hərflər, Əhqaf surəsinin 30-

cu ayəsində yan-yana gəlməkdədir. Bütün bunlar zamandan münəzzəh Rəbbimizin Quranda təcəlli edən sonsuz elm və məlumatının nümunələrindəndir.




## Kvant fizikası

Quran-i Kərimin endirildiyi çağda kvant fizikası və subatomik hissəciklər bilinmirdi. Lakin Quran-i Kərim həm işarə etdiyi elmi məlumatlar, həm də hərflərin düzülüş ardıcıllığı baxımından bir çox elmi inkişafı əhatə edən işarələr ehtiva etməkdədir. Bunun bir başqa nümunəsi də Kəhf surəsinin 37 və 39-cu ayələrində görülməkdə; kainatımızı meydana gətirən bu təməl hissəciklərin adlarına və ağırlıqlarına işarə edən bir möcüzə yer almaqdadır (doğrusunu Allah bilir).

“Neytron” sözünü meydana gətirən hərflər (ərəbcə Nun-Te-Re-Nun hərfləri), bütün Quran-i Kərimdə başdan sona yalnız iki ayədə keçməkdədir. Bunlardan biri 18-ci surənin 39-cu ayəsidir və “neytron kütləsi=1839 me” olaraq ifadə edilməkdədir.




Görüldüyü üzrə, Kəhf surəsinin 39-cu ayəsində həm neytron adına, həm də ayə nömrəsi ilə neytronun ağırlığına açıq şəkildə işarə edilməkdədir (doğrusunu Allah bilir). Digər minlərlə ayədə bu hərflər yan-yana gəlməməkdə, tam 18-ci surənin 39 nömrəli ayəsində “neytron” sözü ortaya çıxmaqdadır.

Eyni vəziyyət “proton” üçün də keçərlidir. Proton sözünü meydana gətirən hərflər (ərəbcə Be-Re-Te-Nun hərfləri) Quranı Kərimdə neytrona nisbətlə daha çox sayda keçməkdədir. Ancaq Kəhf surəsinin 37-ci ayəsində, yəni 18:37 nömrəli ayədə, proton sözünü meydana gətirən hərflər soldan sağa yan-yana gəlməkdədir. Protonun kütləsi isə “1836-1837 me arasındadır” və “1837 me” olaraq qəbul edilməkdədir. Bu səbəbdən burada da ayənin nömrəsi olan 18:37, protonun ağırlığı olan “1837 me”yə işarə etməkdədir (doğrusunu Allah bilir).

“Neytron” və “proton” sözləri azərbaycanca, türkcə, ingiliscə, ərəbcə və fərqli dillərdə demək olar ki, eyni şəkildə yazılıb oxunmaqdadır.

Atomları, zərrələri meydana gətirən bu hissəciklərə Quranda işarə edilən bir başqa ayə isə belədir:




> *...Nə yerdə, nə də göydə zərrə qədər bir şey Rəbbindən gizli qalmaz. Bundan daha kiçiyi və daha böyüyü yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-Məhfuzda) olmasın.*
>
> **(Yunis surəsi, 61)**

## Yeraltındakı enerji: Neft

Enerji qaynaqlarının başında gələn neft (Türk dilində: Petrol), bu adla ilk dəfə Alman mineraloq Georgius Agricolanın 1556-cı il tarixli “De Re Metallıca” (Mineralların təbiəti üzərinə) adlı əsərində keçməkdədir.

Kimyəvi tərkibinə görə neft təbii qaza və asfalta yaxındır. Bu səbəbdən də çox vaxt bu maddələr ümumilikdə petrolitlər də adlanırlar.

Qurandan əsrlər sonra adlandırılan bu enerji qaynağı ilə əlaqədar, Quranda əhəmiyyətli işarələr yer almaqdadır (doğrusunu Allah bilir).

Neft (petrolit) sözünü meydana gətirən hərflər (Be-Te-Re-Le) bütün Quranda tək bir ayədə yan-yana keçməkdədir. Ənam surəsinin 59-cu ayəsində, "yerin qaranlıqlarındakı" mənasını verən "fi zulumati elardi" ifadəsi də, neftin yerin altındakı meydana gəlməsinə işarə edər kimi eyni ayədə yer almaqdadır.

*...O, quruda və dənizdə nələr olduğunu bilir. Onun xəbəri olmadan yerə düşən bir yarpaq belə yoxdur. Yerin qaranlıqlarında elə bir toxum, elə bir yaş və elə bir quru şey yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-Məhfuzda) olmasın...*

**(Ənam surəsi, 59)**




Qurandan əsrlər sonra istifadə edilən neft (petrolit) sözünün fərqli dillərdəki yazılışı və ya oxunuşu demək olar eynidir; azərbaycanca, türkcə, ingiliscə, ərəbcədə olduğu kimi...

Həmçinin elm adamları neftin meydana gəlməsini açıqlayarkən, heyvan və bitkilərə aid qalıqların uzun bir zamandan sonra neftə çevrildiyini ifadə etməkdədirlər. Quranda bu çevrilməyə diqqət çəkən bir başqa ayə belədir:

> *O Rəbbin ki, otlağı cücərtdi, sonra da qaralmış samana çevirdi.*
>
> **(Əla surəsi, 4-5)**

(Mövzu ilə əlaqədar ətraflı izah üçün baxın: Harun Yəhya, “Quran möcüzələri”, 1-ci cild, 8-ci nəşr, iyul 2006)

## Televiziyanın kəşfi

وَالْإِنسِ وَالطَّيْرِ

Televiziya verilişləri işıq sürətindəki elektromaqnitik dalğaların evlərimizə qədər gəlməsi ilə reallaşdırılmaqdadır. Televiziya dalğaları elə sürətlidir ki, kilometrlərcə uzaqlıqdan bir saniyə içərisində görüntü transferi edilə bilməkdədir. Qurandakı Nəml surəsində (bu texnologiyanı xatırladacaq şəkildə) hz. Süleymanın fərqli bir ölkədə olan kraliçanın taxtını, bir saniyə içərisində möcüzəvi şəkildə gətirtdiyi izah edilməkdədir:

> *Kitabdan xəbəri olan bir başqa kimsə isə belə dedi: "Mən onu sənə bir göz qırpımında gətirərəm!" Süleyman taxtı yanında hazır durmuş görən kimi dedi: "Bu, Rəbbimin lütfündəndir ki, məni sınağa çəksin, görək şükür edəcəyəm, yoxsa nankor olacağam!..*
>
> **(Nəml surəsi, 40)**

Bu ayə ilk baxışda bizə teleportasiya (şüalama) və ya görüntü nəqlini (televiziyanı) xatırlatmaqdadır. Bu hadisənin izah edildiyi Nəml surəsində

bəzi hərflərin gizli bir şəkildə yan-yana gəlib "televiziya" sözünü meydana gətirdiyi görülməkdədir.

Televiziya sözünü meydana gətirən hərflər, hz. Süleymandan bəhs edilən Nəml surəsinin 17-ci ayəsində soldan sağa yan-yana düzülmüş vəziyyətdədir. Televiziya sözü azərbaycanca, türkcə, ingiliscə, ərəbcə və fərqli dillərdə demək olar eyni şəkildə yazılıb oxunmaqdadır.

Hərflərin düzülməsi ilə əlaqədar bütün bu nümunələr bir yerdə araşdırıldığında, təsadüflərlə açıqlanması mümkün olmayan bir möcüzə ortaya çıxmaqdadır. Eyni zamanda, bu nümunələrin hər biri araşdıranlar üçün, Quranda daha nə qədər möcüzələrin gizli ola biləcəyinə də bir işarədir.

Bir ayədə, Rəbbimiz Quran-i Kərimlə əlaqədar belə buyurmaqdadır:

> *Əgər Yer kürəsindəki bütün ağaclar qələm olsaydı, dəniz də mürəkkəb olub ardından ona yeddi dəniz də qatılsaydı, yenə də Allahın Sözləri qurtarmazdı. Həqiqətən, Allah Qüdrətlidir, Müdrikdir.*
>
> **(Loğman surəsi, 27)**




"Venera" sözünü təşkil edən hərflər Enfal surəsinin 72-ci ayəsində sağdan sola doğru yan-yana gəlməkdədir.

## Venera və Marsın orbital periodu




“Mars” sözünü təşkil edən hərflər Möminun surəsinin 44-cü ayəsində sağdan sola doğru yan-yana gəlməkdədir.

Venera və Mars, sıralama baxımından dünyaya ən yaxın iki planetin adlarıdır. Quranda bu planetlərin indiki adlarını meydana gətirən hərflər, öz ətraflarındakı dönmə müddətlərinə işarə edər kimi düzülmüşlər.

Quranda Venera sözünü meydana gətirən hərflər (ərəbcədə Vav-Əlif-Nun-Əlif-Sin) Quranda ilk olaraq Ənfal surəsinin 72-ci ayəsində yan-yana gəlməkdədir. Bir sonrakı Venera hərfləri isə, Hud surəsinin 3-cu ayəsində yan-yana gəlməkdədir. Bu iki yerin arasında cəmi 243 ayə keçməkdədir.

Kosmosda Veneranın öz oxu ətrafında 243 Yer gününə bərabər olan vaxtda saat əqrəbi istiqamətində hərəkət edir. Quranda da, ilk Venera hərflərindən 243 ayə sonra bu hərflər yenidən təkrarlanmaqdadır.

Eyni şəkildə, bu hərf düzülməsi Mars üçün də keçərlidir. Mars sözünü meydana gətirən hərflər (ərəbcədə Mim-Əlif-Ra-Sin) Quranda ilk olaraq Muminun surəsinin 44-cü ayəsində yan-yana gəlməkdədir. Bir sonrakı Mars hərfləri isə yenə Muminun surəsinin 45-ci ayəsində yan-yana gəlməkdədir. Yəni dərhal 1 ayə sonra təkrar keçməkdədir. Eyni şəkildə Marsın öz oxu ətrafındakı fırlanma müddəti də yalnız 1 gün davam edər.

Mars və Venera planetlərinin fırlanma müddətləri müasir astronomiyaya aid məlumatlardır. Bu planetlərin öz oxu ətraflarındakı fırlanma müddətləri astronomlar tərəfindən, Qurandan əsrlər sonra kəşf edilmişdir. Digər tərəfdən müasir astronomiyada istifadə edilən Mars və Venera planetlərinin adları, ərəbcədə sırayla Mars və Zuhra olaraq yer almaqdadır. Quranın endirildiyi dövrdə fərqli cəmiyyətlər, bu planetlər üçün fərqli adlar istifadə etməkdəydilər. Bu səbəbdən Mars və Venera adlarının Quranda gizli bir şəkildə yer alması da möcüzə xüsusiyyətindədir.

Quranda yer alan bu fövqəladə düzülmələr, Quranın Uca Rəbbimizin vəhyi olduğunu bir daha təsdiq etməkdədir. Səcdə surəsində Rəbbimiz belə buyurmaqdadır:



> *Şübhə yoxdur ki, bu Kitabı aləmlərin Rəbbi olan Allah nazil etmişdir. Yoxsa onlar: "Bunu özündən uydurmuşdur!" – deyirlər. Xeyr, o, Rəbbindən nazil olan bir haqdır ki, səndən öncə xəbərdar edən peyğəmbər gəlməmiş hər hansı bir xalqı xəbərdar edəsən. Bəlkə də, onlar doğru yola yönələlər.*
>
> **(Səcdə surəsi, 2-3)**

ÜÇÜNCÜ HİSSƏ

# Quranda işarə edilən kimyəvi elementlərdən bəziləri

Bütün kainat; içində yaşadığımız dünya, canlı-cansız bütün varlıqlar, elementlərin müxtəlif şəkillərdə birləşməsiylə meydana gəlmişdir. Elementləri meydana gətirən bütün atomlar eyni hissəciklərdən meydana gəldiyi halda, bir-birlərindən fərqli xüsusiyyətlərə sahibdirlər. Elementləri təməldə bir-birlərindən fərqli edən şey; atom nömrələri, yəni atomlarının nüvələrindəki proton saylarıdır. Ən yüngül element olan hidrogen atomunda bir proton, ikinci ən yüngül element olan helium atomunda iki proton, qızıl atomunda 79 proton, oksigen atomunda 8 proton, dəmir atomunda 26 proton vardır. Qızılı dəmirdən, dəmiri oksigendən ayıran xüsusiyyət, yalnız atomlarının proton saylarındakı bu fərqlilikdir. Tənəffüs etdiyimiz hava, insan bədəni, hər hansı bir bitki və ya bir heyvan, ya da kosmosdakı bir planet, canlı-cansız, acı-şirin, bərk-maye hər şey, Allahın üstün yaradılışındakı dəlillərindən biri olaraq, proton, neytron və elektronlardan meydana gəlməkdədir. (Ətraflı məlumat üçün baxın: "Atom möcüzəsi və Molekul möcüzəsi", Harun Yəhya)



Quranda yer alan "Hədid" surəsi, bir element olan "dəmir" mənasını verməkdədir. Bu surədə digər elementlərə də atom nömrələri və ağırlıqları ilə işarə edilməkdədir (doğrusunu Allah bilir). Digər bir sözlə dəmir elementinin adına sahib "Hədid" surəsində, təxminən 1400 il əvvəlindən kainatdakı maddələri meydana gətirən atomlarla əlaqədar məlumatlar təqdim edilməkdədir. Elementlərin, atom nömrələrinin hələ kəşf edilmədiyi bir dövrdə, bu

məlumatlara işarə edilməsi Quranın bir başqa möcüzəsidir. “Hədid” surəsindəki ərəbcə hərflər elə bir şəkildə düzülmüşlər ki, bir tərəfdən Rəbbimizin əmr və tövsiyələrini ehtiva edən ifadələr yer alarkən, bir tərəfdən də atomlarla əlaqədar məlumatlara işarələr vardır.




1. Lantanitlər

Bu çalışmada ərəbcədəki “Ra” hərfinin Qərb əlifbasındakı “R” hərfinə və ya “Mim” hərfinin “M” hərfi ilə eyni olduğu göz önünə alınaraq edilmişdir. Həmçinin elementin simvolu olan hərflərdə düzülmə sırası diqqətə alınmamaqdadır. Hərflərin yan-yana gəlməsi yetəri qəbul edilməkdədir. Çünki söz həmin elementlərdə məsələn Kr elementi Rk olaraq bir başqa elementi təmsil etməməkdədir.

## Radon elementi 86Rn




Radon (Rn) elementi Quranın endirilməsindən əsrlər sonra, 1900-cü ildə, Alman kimyagər Friedrich E. Dorn tərəfindən tapılmışdır. Bu elementə təbiətdə nadir olaraq rast gəlinməkdədir. Radioaktiv bir element olan radon, şüa müalicələrində də istifadə edilməkdədir.

* Ayənin əvvəlindən “Rn” hərflərinə qədər keçən hərf sayı: 86

* “Rn” elementinin atom nömrəsi: 86

## Sirkonium Elementi 40Zr




Sirkonium (Zr) elementini 1789-cu ildə, Alman kimyagər Martin Heinrich Klaproth tapmışdır. Quranda əsrlərlə əvvəldən nüvə reaktorlarının nüvələrində istifadə edilən bu elementə işarə edilməsi böyük bir möcüzədir.

"Z" və "R" hərflərinin ilk dəfə bir yerə gəldiyi nöqtədən, ayənin əvvəlinə qədər 40 hərf var. Zr simvollu sirkonium elementinin atom nömrəsi də 40-

dır. Həmçinin "Z" və "R" hərflərinin ilk dəfə bir yerə gəldiyi nöqtədən, ayənin sonuna qədər, 91 hərf yer almaqdadır. Bu ədəd də sirkonium elementinin atom ağırlığıdır.

* Ayənin əvvəlindən Zr hərflərinə qədər keçən hərf sayı: 40

* "Zr" elementinin atom nömrəsi: 40

## Tantal elementi 73Ta



Tantal (Ta) elementini 1802-ci ildə, isveçli kimyagər Anders Ekeberg kəşf etmişdir. Tantal, çox sərt və ərimə nöqtəsi çox yüksək olan bir elementdir. Bu səbəblə elektrik və elektronika kimi sahələrdə istifadə edilməkdədir. Həmçinin bu element bədən mayeləri ilə reaksiyaya girmədiyi üçün, tibdə də istifadə sahəsinə malikdir. Quranın endirlməsindən əsrlər sonra kəşf edilən bu element, təbiətdə nadir olan elementlərdən biridir.

"T" və "A" hərflərinin ilk dəfə bir yerə gəldiyi nöqtədən, ayənin əvvəlinə qədər 73 hərf yer almaqdadır. Bu ədəd də Tantal elementinin atom nömrəsidir.

* Ayənin əvvəlindən "Ta" hərflərinə qədər keçən hərf sayı: 73

* "Ta" elementinin atom nömrəsi: 73

## Ftor elementi 9F




Ftor (F) elementini 1886-cı ildə, Henri Moissan adlı Fransız kimyagər əldə etməyi bacarmışdır. Hədid surəsində ilk "F" hərfindən ayənin başına qədər 9 hərf keçməkdədir və 9 Ftorun atom nömrəsidir.

* Ayənin əvvəlindən F hərfinə qədər keçən hərf sayı : 9

* "F" elementinin atom nömrəsi: 9

## Oksigen elementi 8O

ünyada ən çox olan kimyəvi elementlərdən biri oksigendir. Oksigen, 1770-ci illərdə bir-birindən müstəqil olaraq iki elm adamı tərəfindən kəşf




Dedilmişdir: isveçli Carl Scheele və İngilis Cozef Priestley.

Hədid surəsində ilk "O" hərfindən ayənin əvvəlinə qədər 8 hərf keçməkdədir. "O", ərəbcədə əlif hərfi ilə göstərilməkdədir. "O" simvollu oksigen elementinin atom nömrəsi isə səkkizdir.

* Ayənin əvvəlindən "O" hərfinə qədər keçən hərf sayı: 8

* "O" elementinin atom nömrəsi: 8

## Samarium elementi 62Sm




Samarium (Sm) elementini fransız elm adamı Paul Lecoq da Boisbaudran 1879-cu ildə kəşf etmişdir.

Bu surədə “S” və “M” hərfləri ilk dəfə 62-ci hərfdən sonra bir yerə gəlməkdədir. Hərflər “M” və “S” olaraq yan-yana gəlməkdədir. Ancaq Sm hərflərinin düzülüş olaraq tərsi olan Ms adında hər hansı bir element yoxdur.

* Ayənin əvvəlindən “Sm” hərflərinə qədər keçən hərf sayı: 62

* “Sm” elementinin atom nömrəsi: 62

## Kalium elementi 39K




Kalium (K) elementini ilk olaraq 1807-ci ildə, ingilis kimyagər Sir Humphry Davy elektroliz yoluyla əldə etdi. Bitki və heyvanlarla birlikdə, insan bədəninin də çox ehtiyac duyduğu kalium elementi, təbiətdə bol miqdarda mövcuddur. Həmçinin partlayıcı istehsalından tibb müalicələrinə qədər geniş istifadə sahəsi vardır.

Hədid surəsində ayənin başından “K” hərfinin ilk dəfə keçdiyi yerə qədər 39 hərf keçməkdədir ki, bu ədəd K elementinin atom ağırlığıdır. Həmçinin surənin başından bura qədər 19 söz yer almaqdadır. Bu da K elementinin atom nömrəsi olması baxımından diqqət çəkicidir.

* Ayənin əvvəlindən “K” hərfinə qədər keçən hərf sayı: 39

* “K” elementinin atom ağırlığı: 39

## Kükürd elementi 32S




Kükürd (S) elementi canlıların quruluşunda və torpaqda yüksək miqdarda vardır. Hədid surəsində kükürd elementini təmsil edən ilk “S” hərfinə qədərki hərf sayı 32-dir. Bu ədəd eyni zamanda kükürd elementinin atom ağırlığıdır.

* Ayənin əvvəlindən ilk “S” hərfinə qədər keçən hərf sayı: 32

* “S” elementinin atom ağırlığı: 32

## Erbium elementi 167Er




Erbium (Er) elementini Carl Gustaf Mosander adlı isveçli alim 1843-cü ildə kəşf etmişdir. Surənin əvvəlindən 167 hərf sonra “E” və “R” hərfləri bir yerə gəlməkdədir. Erbium elementinin atom ağırlığı isə 167-dir.

* Ayənin əvvəlindən “Er” hərflərinə qədər keçən hərf sayı: 67

* “Er” elementinin atom ağırlığı: 167

## Neodim elementi 60Nd




Neodim (Nd) elementini 1885-ci ildə avstriyalı elm adamı Carl F. Auer von Welsbach əldə etməyi bacardı.

Hədid surəsində “N” və “D” hərflərinin ilk dəfə yan-yana gəldiyi nöqtədən ayənin sonuna qədər 60 hərf keçməkdədir. Bu ədəd Nd elementinin atom nömrəsidir.

* “Nd” hərflərindən ayənin sonuna qədər keçən hərf sayı: 60

* “Nd” elementinin atom nömrəsi: 60

## Vanadium elementi 23Er




Vanadium (V) elementini 1801-ci ildə meksikalı elm adamı Andres Manual del Rio və 1830-cu ildə isveçli kimyagər Nils Gabriel Sefstrom kəşf etmişlər. Vanadium bədəndəki təməl mikroelementlərdən biridir. V hərfindən ayənin sonuna qədər 23 hərf keçməkdədir ki, bu ədəd də vanadium elementinin atom nömrəsidir.

* “V” hərfindən ayənin sonuna qədər keçən hərf sayı: 23

* “V” elementinin atom nömrəsi: 23

## Qallium elementi 69Ga




Qallium (Ga) elementini 1875-ci ildə fransız kimyagər Paul Emile Lecoq de Boisbaudran spektr xətlərindən yola çıxaraq kəşf etdi. Qallium elektronik və tibb kimi fərqli sahələrdə də istifadə edilməkdədir.

Hədid surəsində “G” və “A” hərflərinin yan-yana gəldiyi nöqtədən ayənin sonuna qədər 69 hərf var. Qallium elementinin atom ağırlığı da 69-dur.

* “Ga” hərflərindən ayənin sonuna qədər keçən hərf sayı: 69

* "Ga" elementinin atom ağırlığı: 69

## Azot elementi 14N




1772-ci ildə şotlandiyalı elm adamı Daniel Rutherford tərəfindən kəşf edilən Azot (N) elementi, atmosferin 78%-ni meydana gətirir. Həmçinin Günəşin və bəzi ulduzların quruluşunda da yer alar. Canlıların quruluşunda çox əhəmiyyətli bir yerə sahib olan azot; zülal və nuklein turşusu kimi həyati elementlərdə də olar.

Hədid surəsində "N" hərfindən ayənin sonuna qədər 14 hərf keçməkdədir. N elementinin atom ağırlığı 14-dür. İkinci ilə üçüncü "N" hərfləri arasında isə 7 hərf yer almaqdadır. Azotun atom nömrəsi isə 7-dir.

* "N" hərfindən ayənin sonuna qədər keçən hərf sayı: 14

* "N" elementinin atom ağırlığı: 14

## Bismut elementi 83Bi




Əsrlər əvvəl Quranda işarə edilən elementlərdən biri də bismut (Bi) elementidir (doğrusunu Allah bilir). Az olan elementlərdən biri olan bismutun tibdən nüvə reaktorlarında, kosmetikadan elektrik dövrələrinə qədər müxtəlif istifadə sahələri vardır.

Hədid surəsində “B” və “İ” hərflərinin yan-yana gəldiyi nöqtələr arasında, 83 hərf yer almaqdadır.

* "Bi" hərfləri arasında keçən hərf sayı: 83

* "Bi" elementinin atom nömrəsi: 83

## Xrom elementi 24Cr




Xrom (Cr) elementi 1797-ci ildə Luis-Nicolas Vauquelin tərəfindən kəşf edilmişdir. Hədid surəsində Xrom elementini təmsil edən C və R hərflərinin yan-yana gəldiyi birinci və ikinci yerlər arasında, cəmi 24 söz

yer almaqdadır. Xrom elementinin atom nömrəsinin 24 olması da, bu baxımdan çox diqqət çəkicidir.

* "Cr" hərfləri arasında keçən söz sayı: 24

* "Cr" elementinin atom nömrəsi: 24

## Astatin elementi 85At



Astatin (At) elementi 1940-cı ildə üç alim tərəfindən kəşf edilmişdir. Digər elementlərdə olduğu kimi Astatin elementinin atom nömrəsinin də, surə içində yer alması Quranın möcüzələrindən biridir. Astatin elementini təmsil edən A və T hərflərinin yan-yana gəldiyi ikinci və üçüncü yerlər arasında, 85 hərf yer almaqdadır. Bu rəqəm eyni zamanda Astatin elementinin atom nömrəsidir.

* “At” hərfləri arasında keçən hərf sayı: 85

* “At” elementinin atom nömrəsi: 85

## Litium Elementi 6Li




Litium (Li) elementini 1817-ci ildə isveçli kimyagər Johan August Arfvedson kəşf etdi. Bu element yer qabığında təxminən 0,002% nisbətində var. Sənayedə də ehtiyac duyulan litium elementi, batareya istehsalında, soyuducularda, tibdə, süni kauçuk istehsalı kimi bir çox fərqli sahədə istifadə edilməkdədir.

Hədid surəsində “L” və “İ” hərflərinin ilk dəfə yan-yana gəldiyi nöqtədən ayənin əvvəlinə qədər 6 söz keçməkdədir. Bu ədəd litium elementinin atom ağırlığıdır.

* Ayənin əvvəlindən “Li” hərflərinə qədər keçən söz sayı: 6

* “Li” elementinin atom ağırlığı: 6

## Hafnium elementi 178Hf



Hafnium (Hf) elementini hollandiyalı fizik Dirk Coster və Macar kimyagər Georg de Hevesy 1923-cü ildə kəşf etdilər. Bu elementdən xüsusilə nüvə reaktorlarında faydalanılmaqdadır. Həmçinin bu elementə Günəşin atmosferində də rast gəlinmişdir.

Hədid surəsinin əvvəlindən "H" və "F" hərflərinin yan-yana gəldiyi nöqtəyə qədər, 178 söz keçməkdədir. Hafnium elementinin atom ağırlığı isə 178-dir.

* Surənin əvvəlindən "Hf" hərflərinə qədər keçən söz sayı: 178

* "Hf" elementinin atom ağırlığı: 178

## İndium elementi 114In




İndium (In) elementini ilk olaraq 1863-cü ildə Hieronymus Theodor Richter və Ferdinand Reich adlı elm adamları tapdılar. Quranın endirilməsindən əsrlər sonra kəşf edilən İndium (In) elementi təbiətdə az miqdarda var.

Hədid surəsinin başından "İ" və "N" hərflərinin yan-yana gəldiyi nöqtəyə qədər 114 söz keçməkdədir ki, bu ədəd İndium elementinin atom ağırlığıdır.

*Surənin əvvəlindən "İn" hərflərinə qədər keçən söz sayı: 114

* "In" elementinin atom ağırlığı: 114

## Stronsium elementi 87Sr




Radioaktiv olmayan stronsium (Sr) elementini ilk dəfə 1790-cı ildə Adair Crawford və William Cruikshank Şotlandiyada kəşf etmişlər.

Hədid surəsinin əvvəlindən “S” və “R” hərflərinin bir yerdə keçdiyi yerə qədər 87 söz keçməkdədir. Stronsium elementinin atom ağırlığı da 87-dir.

* Surənin əvvəlindən “Sr” hərflərinə qədər keçən söz sayı: 87

* “Sr” elementinin atom ağırlığı: 87

## Aktinium elementi 89Ac




Fransız alimi Andre Debierne tərəfindən 1899-cu ildə kəşf edilən aktinium (Ac) elementi, çox nadir olan radioaktiv bir elementdir. Qaranlıqda ətrafa mavi işıq yayan bu element ağımsov gümüş rəngdədir. Qurandan əsrlər sonra kəşf edilən bu elementin insanlara əvvəldən xəbər verilmiş olması, Rəbbimizin sonsuz elm sahibi olduğunun göstəricisidir.

Hədid surəsinin əvvəlindən “A” və “C” hərflərinin ilk dəfə bir yerə gəldiyi yerə qədər 89 söz keçməkdədir. Bu ədəd aktinium elementinin atom nömrəsidir.

* Surənin əvvəlindən “Ac” hərflərinə qədər keçən söz sayı: 89

* “Ac” elementinin atom nömrəsi: 89

## Torium elementi 90Th



1828-ci ildə isveçli kimyagər Jons Jacob Berzelius tərəfindən kəşf edilən torium (Th) elementi radioaktiv bir elementdir. Nüvə cihazlarda enerji qaynağı olaraq istifadə edilməkdədir.

Torium elementinin atom nömrəsi 90-dır. Hədid surəsinin əvvəlində "T" və "H" hərflərinin ilk dəfə yan-yana gəldiyi yerə qədər keçən söz sayı da 90-dır.

* Surənin əvvəlindən "Th" hərflərinə qədər keçən söz sayı: 90

* "Th" elementinin atom nömrəsi: 90

## Lutesium elementi 71Lu




Lutesium (Lu) elementi 1907-ci ildə Auer von Welsbach və Georges Urbain tərəfindən kəşf edilmişdir. Adı bir elementə aid olan Hədid (dəmir) surəsində, lutesiumu təmsil edən L və U hərflərinə qədər, surənin başlanğıcından etibarən 71 söz keçməkdədir. Lu elementinin atom nömrəsi də 71-dir.

* Surənin əvvəlindən "Lu" hərflərinə qədər keçən söz sayı: 71

* “Lu” elementinin atom nömrəsi: 71

## Nikel elementi 58 Ni




**S**af nikel (Ni) elementini ilk dəfə 1751-ci ildə isveçli alim Axel Fredrik Cronstedt izolyasiya edərək əldə etmişdir. Dəmirdən daha sərt olan nikel elementi, çürüməyə və paslanmağa qarşı çox dözümlüdür. Dözümlü sənaye alətlərindən metal pulların istehsalına qədər bir çox sahədə nikeldən faydalanılmaqdadır.

Hədid surəsində “N” və “İ” hərflərinin ilk dəfə yan-yana gəldiyi nöqtədən ayənin sonuna qədər 58 söz keçməkdədir. Bu rəqəm Nikel elementinin atom ağırlığıdır.

* “Ni” hərflərindən surənin sonuna qədər keçən söz sayı: 58

* “Ni” elementinin atom ağırlığı: 58

## Berillium elementi 9Be



Berillium (Be) elementi 1798-ci ildə Luis-Nicolas Vauquelin tərəfindən kəşf edilmişdir. Təbiətdə sıx rast gəlinən bu element nüvə cihazlarda, raketlərdə və kosmos vasitələrində istifadə edilməkdədir.

“B” və “E” hərflərinin yan-yana gəldiyi nöqtədən ayənin sonuna qədər 9 söz keçməkdədir və bu ədəd də berillium elementinin atom ağırlığıdır.

* “Be” hərflərindən ayənin sonuna qədər keçən söz sayı: 9

* “Be” elementinin atom ağırlığı: 9

## Natrium elementi 11Na




Natrium (Na) elementini 1807-ci ildə Humphry Davy elektroliz əməliyyatı ilə kəşf etdi. Natrium atomları, istifadə etdiyimiz süfrə duzundan kosmosdakı ulduzlara qədər bir çox maddənin quruluşunda var. İnsan bədənindəki hüceyrələrdə də olan natrium atomlarının həyati funksiyaları vardır. Bədən mayeləri ilə hüceyrələr arasında normal bir su axışının olması, toxuma meydana gəlməsi və əzələlərin sıxılması üçün də, insan bədənində müəyyən bir miqdar natrium olması lazımlıdır.

Hədid surəsində “N” və “A” hərflərinin bir yerə gəlişindən, ayənin sonuna qədər 11 söz keçməkdədir. Bu ədəd natrium elementinin atom nömrəsi ilə eynidir.

* “Na” hərflərindən ayənin sonuna qədər keçən söz sayı: 11

* “Na” elementinin atom nömrəsi: 11

## Niobium elementi 92Nb



Niobium (Nb) elementi 1801-ci ildə ingilis kimyagər Charles Hatchett tərəfindən kəşf edilmişdir. Təbiətdə nadir olan bu element, nüvə reaktorlarında, yüksək istiliyə dayanıqlı vəsaitlərin istehsalında istifadə edilməkdədir.

Hədid surəsində Nb hərflərinin yan-yana gəldiyi yerlər arasındakı söz sayı, niobium elementinin atom nömrəsi olan 92-dir.

* “Nb” hərfləri arasında keçən söz sayı: 92

* “Nb” elementinin atom nömrəsi: 92

## Maqnezium elementi 12Mg




Maqnezium elementi 1808-ci ildə İngilis kimyagər Sir Humphry Davy tərəfindən kəşf edilmişdir. Quranın vəhy edilməsindən əsrlər sonra kəşf edilən maqnezium (Mg) elementi yer qabığında ən çox olan elementlərdən biridir. Dəniz suyundan insan bədəninə qədər bir çox yerdə mövcuddur. Canlılar baxımından həyati əhəmiyyətə sahib bir elementdir.

Hədid surəsində Mg hərflərinin yan-yana gəldiyi yerlər arasındakı söz sayı 12-dir. Bu ədəd eyni zamanda maqnezium elementinin atom nömrəsi olan 12-dir.

* Surədəki “Mg” hərfləri arasında keçən söz sayı: 12

* “Mg” elementinin atom nömrəsi: 12

## Disprozium elementi 162Dy



Disprozium (Dy) elementini 1886-cı ildə fransız elm adamı Paul Emile Lecoq de Boisbaudran tapmışdır. Bu elementin atom ağırlığı 162-dir. Hədid surəsində Dy hərflərinin yan-yana gəldiyi yerlər arasındakı söz sayı da 162-dir.

* Surədəki “Dy” hərfləri arasında keçən söz sayı: 162

* “Dy” elementinin atom ağırlığı: 162

## Sink elementi 65Zn




Sink (Zn) metalı, yer qabığından canlı orqanizmlərə qədər bir çox quruluşda yer almaqdadır. Məsələn insan bədənindəki fermentlərdə və qan hüceyrələrində vəzifə alaraq həyati funksiyaları yerinə yetirməkdədir.

Hədid surəsində Zn hərflərinin yan-yana gəldiyi yerlər arasındakı söz sayı 65-dir. Sink elementinin atom ağırlığı da 65-dir.

* Surədəki "Zn" hərfləri arasında keçən söz sayı: 65

* "Zn" elementinin atom ağırlığı: 65

## Xlor elementi 35Cl




Xlor (Cl) elementini Quran endirildikdən əsrlər sonra, 1774-cü ildə isveçli alim Carl Wilhelm Scheele əldə etmişdir. Xlor ən çox içilən və hovuz sularındakı bakteriyaların öldürülməsində istifadə edilər. Xlorun

dərmanların istehsalından boyalara, neft məhsullarından təmizlik vəsaitlərinə qədər geniş istifadə sahəsi vardır.

Hədid surəsində "C" və "L" hərflərinin yan-yana gəldiyi yerlər, ilk və sonuncusu arasında 35 söz yer almaqdadır. Bu rəqəm Xlor elementinin atom ağırlığıdır.

* Surədə keçən ilk və son "Cl" hərfləri arasındakı söz sayı: 35

* "Cl" elementinin atom ağırlığı: 35

## Karbon elementi 12C




Canlıların quruluşunda çox əhəmiyyətli bir yerə sahib olan karbon (C) elementi bir-birindən fərqli bir çox maddənin quruluşunda var. Karbon atomları, tənəffüs əsnasında ortaya çıxan karbon dioksiddən almaza qədər çox fərqli birləşmələrdə vəzifə alar.

Hədid surəsində ilk və sonuncu "C" hərfləri arasında 12 söz yer almaqdadır. Bu rəqəm eyni zamanda karbon elementinin atom ağırlığıdır.

* Surədə keçən ilk və son "C" hərfləri arasındakı söz sayı: 12

* "C" elementinin atom ağırlığı: 12

## Serium elementi 140Ce




Serium (Ce) elementini 1803-cü ildə isveçli geoloq Wilhelm von Hisinger və isveçli kimyagər Jons Berzelius ilə onlardan müstəqil alman kimyagər Martin Klaproth adlı elm adamları tapmışdır.

Hədid surəsində "C" və "E" hərflərinin yan-yana gəldiyi, ilk və sonuncusu arasında 140 söz yer almaqdadır. 140 eyni zamanda serium elementinin atom ağırlığıdır.

* Surədə keçən ilk və son “Ce” hərfləri arasındakı söz sayı: 140

* “Ce” elementinin atom ağırlığı: 140

## Kripton elementi 83Kr




Kripton (Kr) elementini ingilis kimyagərlər Morris W. Travers və Sir William Ramsay 1898-ci ildə kəşf etdilər.

Hədid surəsində “K” və “R” hərflərinin yan-yana gəldiyi, ilk və sonuncusu arasında 83 söz yer almaqdadır. Kripton elementinin atom ağırlığı da 83-dür.

* Surədə keçən ilk və son “Kr” hərfləri arasındakı söz sayı: 83

* “Kr” elementinin atom ağırlığı: 83

DÖRDÜNCÜ HİSSƏ

# Quranda diqqət çəkici ədədlər

Bu hissədə (bu hissə Əhməd Maraşlın, "Quranda sirli düzülüş" kitabından faydalanılaraq hazırlanmışdır), içində ədədi ifadə keçən surələr üzərində müxtəlif hesablamaların nəticələri təqdim edilməkdədir. Surələrdə fərqli hesablar nəticəsində əldə edilən eyni rəqəmlər, son dərəcə diqqət çəkici ölçüdədir. Bu çalışmada surələrdəki heca və hərf ədədləri, hərf növləri, əbcəd dəyərləri kimi müxtəlif istiqamətlərdən hesablamalar çatdırılmaqdadır və ortaya çıxan ədədlərdəki heyrətverici bənzərliklər ortaya qoyulmaqdadır. Bu hissədəki hesablar şərhə açıq deyil; eyni üsullarla hesablamalar edən hər kəsin edə biləcəyi nəticələrdir.

Quran-i Kərim məna baxımından hikmət və elm üstünlüyü ilə yanaşı, rəqəmsal olaraq da çox zəngin və fövqəladə nizamlar ehtiva etməkdədir. Nəbə surəsinin 29-cu ayəsində Rəbbimiz "...Biz hər bir şeyi hesablayıb yazmışıq." buyurmaqdadır. Cin surəsinin 28-ci ayəsində isə "...(Allah) hər şeyi ayrı-ayrılıqda hesaba alır" buyurulmaqdadır. Quran-i Kərimlə əlaqədar əldə edilən bu möcüzəvi rəqəmsal nizamlar, eyni zamanda Uca Rəbbimizin "sonsuz da olsa, hər şeyin sayını bilən" mənasını verən "Muhsin" adının bir təcəllisidir.



## Hz. Musa (ə.s) ilə 40 gecə üçün sözləşməsi

> *O zaman Biz Musaya vəhy üçün qırx gecəlik vədə verdik. Sonra siz onun ardından buzovu özünüzə məbud qəbul edərək zalım oldunuz.*
>
> **(Bəqərə surəsi, 51)**

“40 gecə” mənasını verən “erbaine leyleten” ifadəsindən etibarən, ayənin sonuna qədər olan hərf sayı 40-dır.

“Ayədə “erbaine leyleten” (40 gecə) ifadəsinə qədər olan nöqtəli hərflərin əbcəd dəyəri 40-dır (ən kiçik əbcəd hesabı ilə).

Bu mövzu, Quranda ilk olaraq, Bəqərə surəsinin 40-cı ayəsində başlamaqdadır.

Bu mövzunun başladığı 40-cı ayənin heca sayı 40-dır.66

Həmçinin;

“Erbaine leyleten” (40 gecə) mövzusu ilə əlaqədar ayələr açıq olaraq, Bəqərə surəsinin 51-ci ayəsindən başqa, Əraf surəsi 142-ci ayəsində keçməkdədir. İşarə olaraq isə yenə Əraf surəsinin 143-cü və 155-ci ayələrində zikr edilməkdədir.

a) Bu ayələr arasındakı surələr bunlardır: “Bəqərə surəsi”, “Ali İmran surəsi”, “Nisa surəsi”, “Maidə surəsi”, “Ənam surəsi”, “Əraf surəsi”.

Bu surə adlarındakı cəmi heca sayı tam 40-dır.

(Su-re-tü'l-Ba-ka-ra-ti, Su-re idi Alı İm-ra-ne, Su-re-tü'n-Ni-sa-i, Su-re-tü'l-Ma-i-de-ti, Su-re-tü'l-En'a-mi, Su-re-tü'l-A'ra-fi)

b) Surələrin adları olan “Əl-Bəqərə”, “Ali İmran”, “Ən Nisa”, “Əl-Maidə”, “Əl-Ənam”, “Əl-Əraf”, sözlərindəki hərf sayı da 40-dır.

## Daşdan 12 bulaq fışqırması

*O zaman Musa öz xalqı üçün su istədikdə, Biz: “Əsanla daşa vur!” – dedik. Daşdan on iki çeşmə qaynayıb çıxdı. Hər qəbilə su içəcəyi yeri tanıdı. Onlara dedik: “Allahın sizə verdiyi ruzidən yeyin-için və Yer kürəsində fəsad yayıb pis işlərə qurşanmayın!”*

**(Bəqərə surəsi, 60)**

Ayədə “on iki” mənasını verən “isneta aşrate” ifadəsinə qədər olan söz sayı 12-dir.

“(Daşdan) 12 bulaq qaynadı” mənasını verən “infeceret minhu isneta aşerete eynilə” ifadəsindəki nöqtəli hərf sayı 12-dir.

“İnfeceret minhu isneta aşerete eynile” ifadəsində istifadə edilən hərf növü də 12-dir.67

## Üç min mələklə kömək edilməsi

*O vaxt sən möminlərə demişdin: “Rəbbinizin göndərdiyi üç min mələyin köməyinizə çatması, sizə bəs etmirmi?”*

**(Ali İmran surəsi, 124)**

**“M**ələklərdən üç min” mənasını verən “selaseti alafin min elmelaiketi” ifadəsinin əbcəd dəyəri üç mindir (böyük əbcəd hesabı ilə).

## Beş min mələklə kömək edilməsi

“

*Əlbəttə, siz səbir etsəniz, Allahdan qorxsanız və onlar bu saat sizin üstünüzə hücuma keçsələr, Rəbbiniz nişanlanmış beş min mələklə sizə yardım edər.*

**(Ali İmran surəsi, 125)**

**A**yədə “mələklər” mənasını verən “əl-melaiketi” ifadəsinin ilk hərfinə qədər olan hərflərin əbcəd dəyəri beş mindir (balaca əbcəd hesabı ilə).

## 12 etibarlı müşahidəçi göndərilməsi

“

*Allah İsrail oğulları ilə əhd bağlamışdı. Biz onlardan on iki etibarlı nəzarətçi təyin etdik. Allah dedi: “Mən sizinləyəm. Əgər namaz qılsanız, zəkat versəniz, Mənim elçilərimə inanıb onlara yardım etsəniz və kasıblara könüllü yardım etməklə Allaha gözəl bir borc versəniz, əlbəttə, Mən təqsirlərinizdən keçər və sizi ağacları altından çaylar axan Cənnət bağlarına daxil edərəm. Sizlərdən kimsə bundan sonra kafir olsa, bilsin ki, artıq o, doğru yoldan azmışdır”.*

**(Maidə surəsi, 12)**

“12 etibarlı nəzarətçi” mənasını verən “isney aşara nakiba” ifadəsindəki hərf sayı 12-dir.

Ayənin əvvəlindən “isney aşara” (on iki) ifadəsinə qədər, surənin adı olan Maidə sözündə keçən hərflərin təkrarlanması: 12-dir.68

Ayə nömrəsi 12-dir.

Ayənin ilk və son hərflərinin əbcəd dəyəri 12-dir (Ən kiçik əbcəd hesabı ilə).69

## Hz. Musa (ə.s) ilə 30 gecə və əlavə 10 gecə üçün sözləşməsi

“

*Biz Musaya otuz gecəlik vədə verdik və buna on gecə də əlavə etdik. Beləliklə də Rəbbinin təyin etdiyi vaxt qırx gecə oldu. Musa qardaşı Haruna dedi: “Xalqımın içərisində məni əvəz et, onları islah et və fəsad törədənlərin yoluna uyma!”*

**(Əraf surəsi, 142)**

“30 gecə” mənasını verən “selasine leyleten” ifadəsindən etibarən, ibarə (Quran oxunarkən istifadə edilən dayanma işarələriylə və ya ayə sonu-ayə başı ilə ayrılan ifadələr) sonuna qədər olan heca sayı 30-dur.70

“Selasine leyleten” (30 gecə) ifadəsindən ayənin sonuna qədər, bu ifadəni meydana gətirən hərflərin istifadə sayı 30-dur.71

“Selasine” (30) sözündən etibarən, ibarə sonuna qədər olan heca sayı 30-dur.72

Ayədə "selasine" (30) sözündən sonra ayənin sonuna qədər, surənin müqədda hərfləri olan "əlif, lam, mim, sad" hərflərinin istifadə sayı 30-dur.73

Ayədə "aşr" (10) sözünə gələnə qədər olan nöqtəli hərflərin hərf sayı 10-dur.

"Aşr" (10) sözündən sonra ibarə sonuna qədər olan nöqtəsiz hərf sayı 10-dur.

"Aşr" (10) sözü, Əraf surəsində sondan başa doğru 10-cu səhifədə var.

Ayədə "aşr" (10) sözünə gələnə qədər, surənin müqədda hərfləri olan "əlif, lam, mim, sad" hərflərinin istifadə sayı 10-dur.74

"Və ona bir on daha əlavə etdik" mənasını verən "ve etmemnaha biaşrin" ifadəsində istifadə edilən hərf növü 10-dur.75

## 12 birlik və daşdan fışqıran 12 bulaq

❝

*Biz onları on iki nəslə–ümmətə böldük. Qövmü Musadan su istədikdə, Biz ona: "Əsanla daşa vur!" – deyə vəhy etdik. Ondan on iki çeşmə qaynayıb çıxdı. Hər qəbilə özünün su içəcəyi yeri bildi. Biz onların üstünə buludla kölgə saldıq, onlara Manna və bildirçin endirdik, özlərinə də: "Sizə ruzi kimi verdiyimiz pak şeylərdən yeyin!" – dedik. Onlar Bizə zülm etmədilər, ancaq özləri özlərinə zülm etdilər.*

**(Əraf surəsi, 160)**

Ayədə "isnetey aşrate" (on iki) ifadəsinə qədər, "isnetey aşrate" ifadəsindəki hərflər 12 dəfə keçməkdədir.76

"İsnetey aşrate" (on iki) ifadəsindən etibarən ibarə sonuna qədər istifadə edilən hərf növü 12-dir.77

"İsneta aşrate" (on iki) ifadəsindən etibarən ibarə sonuna qədər, "isneta aşrate"nin hərfləri 12 dəfə keçməkdədir.78

"İsnetey aşrate" (on iki) ilə "isneta aşrate" (on iki) arasında, bu sözlərə aid hərflərin olduğu söz sayı 12-dir.79

Olduğu ibarədə, "isneta aşrate ayna" (on iki mənbə) ifadəsinə qədər istifadə edilən hərf növü 12-dir.80

## Allah Qatında ayların sayının 12 olması

*Həqiqətən, Allah yanında ayların sayı on ikidir. Bunu da Allah göyləri və yeri yaratdığı gündə Kitaba yazmışdır. Bunlardan dördü haram aylardır. Doğru din budur. Odur ki, bu aylarda özünüzə zülm etməyin. Müşriklər hamısı bir yerdə sizinlə vuruşduqları kimi, siz də hamınız bir yerdə onlarla vuruşun və bilin ki, Allah müttəqilərlədir.*

**(Tövbə surəsi, 36)**

Ayədə "isna aşara" (on iki) ifadəsinə gələnə qədər olan heca sayı tam 12-dir.

"İsna aşara" (on iki) ifadəsindən sonra ibarə sonuna qədər olan nöqtəli hərf sayı da 12-dir.

## 70 dəfə bağışlanma diləmə

*Onların bağışlanması üçün dua etsən də, etməsən də, hətta onlar üçün yetmiş dəfə bağışlanma diləsən belə, Allah onları əsla bağışlamayacaqdır. Çünki onlar Allahı və Onun Elçisini inkar etdilər. Allah günahkar insanları doğru yola yönəltməz.*

**(Tövbə surəsi, 80)**

"Sebinə merraten" (yetmiş dəfə) ifadəsindən etibarən ayə sonuna qədər olan hərf sayı 70-dir.81

"Sebinə merraten" (yetmiş dəfə) ifadəsindən etibarən ibarə sonuna qədər istifadə edilən hərf növlərinin əbcəd dəyəri 70-dir82 (ən kiçik əbcəd hesabı ilə).

Bu ayədəki nöqtəsiz hərf sayı 70-dir.83

## İllərin sayını və hesabı bilmə

*Günəşi işıqlı, ayı nurlu edən, illərin sayını və hesabı biləsiniz deyə ona mənzillər (səfhələr) müəyyən edən Odur. Allah bunları yalnız haqq naminə yaratmışdır. O, ayələri bilən adamlara belə izah edir.*

**(Yunis surəsi, 5)**

Bir hicri ayı ancaq 29 gün və ya 30 gün ola bilər (bunun xaricində də bir ehtimal yoxdur).

Qəməri ay 29 və ya 30 gündür. Ayədə "illərin sayını və hesabı biləsiniz deyə ona mənzillər (səfhələr) müəyyən edən Odur" mənasını verən "kadderahu menazile litalamı adede'ssinine velhisab" ifadəsinə gələnə qədər olan hərf sayı 29-dur.

"Ay" mənasını verən "Əl-Kamər"in əbcəd dəyəri 29-dur (ən kiçik əbcəd hesabı ilə).

**Biz gecə və gündüzü iki əlamət etdik. Rəbbinizdən lütf diləyəsiniz, illərin sayını və hesabı biləsiniz deyə gecənin əlamətini silib gündüzün işıqlı əlamətini gətirdik. Biz hər şeyi təfsilatı ilə izah etdik. (İsra surəsi, 12)**

Bir hicri il 354 ya da 355 gün olur (bunların xaricində bir ehtimal yoxdur).

"İllərin sayını və hesabı biləsiniz deyə" mənasını verən "litalamı adede'ssinine vel hisab" ifadəsinə gələnə qədər olan hərflərin əbcəd dəyəri 354-dür (ən kiçik əbcəd hesabı ilə).

## Bənzər 10 surə gətirə bilməmələri

> *Yoxsa onlar: "Məhəmməd onu özündən uydurdu!" – deyirlər. De: "Əgər doğru danışırsınızsa, Ona bənzər on surə də siz gətirin və Allahdan başqa, kimi bacarırsınızsa, köməyə çağırın!"*
>
> **(Hud surəsi, 13)**

Olduğu ibarədə "aşri" (on) sözünə qədər istifadə edilən hərf növü 10-dur.84

Ayədə "aşri" (on) sözünə gələnə qədər olan nöqtəli hərf sayı 10-dur.85

Ayədə "yalan üzrə uydurulmuş olaraq onun bənzəri on surə" mənasını verən "biaşri süverin mislihi müftereyatin" ifadəsinə gələnə qədər olan heca sayı 10-dur.86

"De: "Əgər doğru danışırsınızsa, Ona bənzər on surə də siz gətirin" mənasını verən "qul fe idi biaşri süverin mislihi müftereyatın" ifadəsindəki nöqtəli hərf sayı 10-dur.

"Ona bənzər on surə" mənasını verən "aşri süverin mislihi" ifadəsindəki hərf sayı 10-dur.

"Aşri süverin mislihi" (onun bənzəri on surə) ifadəsindən sonra ayə sonuna qədər olan söz sayı 10-dur.

"Ona bənzər on surə" mənasını verən "biaşri süverin mislihi" ifadəsində istifadə edilən hərf növü 10-dur.87

Ayədə "aşri süverin" (on surə) ifadəsinə qədər, "aşri süverin" ifadəsindəki hərflər 10 dəfə keçməkdədir.88

## Hz. Yusif (ə.s)-ın yuxusu və 11 ulduz

> *Bir zaman Yusif atasına dedi: "Atacan! Mən yuxuda on bir ulduz, günəş və ay gördüm. Onların mənə baş əydiyini də gördüm".*
>
> **(Yusif surəsi, 4)**

"On bir ulduz" mənasını verən "ehade aşara kevkeben" ifadəsindəki hərf sayı 11-dir.

"Ehade aşara kevkeben" (on bir ulduz) ifadəsinə qədər olan söz sayı 11-dir.

Ayədə “ehade aşara kevkeben” (on bir ulduz) ifadəsinə gələnə qədər, “ehade aşara kevkeben” ifadəsindəki hərflər 11 dəfə keçməkdədir.89

## İnsandakı xromosom sayı

*Allah insanı nütfədən yaratdı. O isə açıq-aşkar mübahisəçiyə çevrildi.*

**(Nəhl surəsi, 4)**

Yetkin bir insan bədənində təxminən 100 trilyon hüceyrə var. Hüceyrələrin hamısı eyni genetik quruluşa malikdir. Bu genetik quruluş, hüceyrənin nüvəsi içərisində yer alan xromosomlarda olar. Bir insan hüceyrəsində 23 cüt, yəni 46 ədəd xromosom vardır. Bunların 23-ü anadan, 23-ü atadan gəlməkdədir. Bu xromosomlarda da, o insana aid xüsusiyyətlərin qeydli olduğu DNT molekulları vardır. Elm dünyası, insan hüceyrəsindəki xromosom sayının 46 olduğunu ancaq 20-ci əsrin ikinci yarısında öyrənə bilmişdir.

Quranda “məni” və “nütfə” ("nütfə" sözü cümlədə istifadə yeri etibarilə, qrammatika qaydasına görə nutfetin, nutfete, nutfeten kimi fərqli şəkillərdə oxunmaqdadır. Ancaq burada bir məna dəyişikliyi yoxdur) sözləri, fərqli şeylər olaraq bəhs edilməkdədir. “Məni” bütünü, “nütfə” isə onun bir hissəsini ifadə etmək üçün istifadə edilməkdədir.

“Nutfetin” (nütfə) sözünün əbcəd dəyəri 23-dür (ən kiçik əbcəd hesabı ilə).

Surədə “nütfetin” sözünə gələnə qədər istifadə edilən hərf növü 23-dür.90

Ayədə “nütfetin” sözünə gələnə qədər istifadə edilən hərf növlərinin əbcəd dəyəri 23-dür91 (ən kiçik əbcəd hesabı ilə).

Surədə “nütfetin” sözünə gələnə qədər olan nöqtəli hərf sayı 46-dır.

> *Sonra su damlasından laxtalanmış qan yaratdıq, sonra o qandan bir parça ət yaratdıq, sonra o bir parça ətdən sümüklər yaratdıq, sonra da sümükləri ət ilə örtdük. Sonra da onu başqa bir məxluq olaraq xəlq etdik. Yaradanların ən yaxşısı olan Allah nə qədər xeyirxahdır!*
>
> **(Muminun surəsi, 14)**

“Nütfete” sözünün əbcəd dəyəri 23-dür (ən kiçik əbcəd hesabı ilə).

Muminun surəsinin 13-cü ayəsindəki “nutfeten” ifadəsindən etibarən 14-cü ayədəki “nutfete” ifadəsinə gələnə qədər olan hərf sayı 23-dür.

Ayədə “nutfeten” ifadəsinə qədər olan istifadə edilən hərf növlərinin əbcəd dəyəri 46-dır92 (ən kiçik əbcəd hesabı ilə).

“Nutfete” ifadəsindən sonra ibarə sonuna qədər, “spermada” ifadəsinə aid hərflərin əbcəd dəyəri 46-dır93 (ən kiçik əbcəd hesabı ilə).

Surədəki “nutfete” ifadəsinə gələnə qədər, “nütfete”yə aid hərflərin olduğu söz sayı 46-dır.

> *Allah sizi torpaqdan, sonra nütfədən yaratmış, sonra da sizi cütləşdirmişdir. Onun xəbəri olmadan heç bir dişi nə hamilə olar, nə də daşıdığını yerə qoya bilər. Uzunömürlünün uzun ömür sürməsi də, onun ömrünün qısaldılması da ancaq Yazıda (Lövhi-məhfuzda) yazılmışdır. Həqiqətən, bu, Allah üçün çox asandır.*
>
> **(Fatır surəsi, 11)**

“Nütfetin” ifadəsinin əbcəd dəyəri 23-dür (ən kiçik əbcəd hesabı ilə).

"Nütfetin" ifadəsindən etibarən ayə sonuna qədər istifadə edilən hərf növü 23-dür.94

> *Sizi torpaqdan, sonra nütfədən, sonra laxtalanmış qandan yaradan, sonra sizi (ana bətnindən) uşaq olaraq çıxardan, sonra yetkinlik yaşına çatasınız, sonra da qocalasınız deyə yaşadan Odur. Sizdən kimisi də daha əvvəl vəfat edir. Bu ona görədir ki, siz müəyyən bir vaxta qədər yaşayasınız və bəlkə (bunları) düşünüb dərk edəsiniz.*
>
> **(Mümin surəsi, 67)**

"Nütfetin" sözünün əbcəd dəyəri 23-dür (ən kiçik əbcəd hesabı ilə).

"Nütfetin" sözündən etibarən ibarə sonuna qədər olan nöqtəli hərf sayı 23-dür.

"Nütfetin" sözü ayədə sonundan əvvələ doğru 23-cü sözdür.

Bu ayədə istifadə edilən hərf növü 23-dür.95

Ayədə "nütfetin" sözünə qədər olan nöqtəli hərflərin əbcəd dəyəri 46-dır (ən kiçik əbcəd hesabı ilə).

Bu ayədəki nöqtəli hərf sayı 46-dır.

> *Axıdılan damla sudan (nütfədən).*
>
> **(Nəcm surəsi, 46)**

"Nütfetin" ifadəsinin əbcəd dəyəri 23-dür (ən kiçik əbcəd hesabı ilə).

"Nütfetin" ifadəsindən sonra surə sonuna qədər, "nütfetin" ifadəsinin hərfləri 46 dəfə keçməkdədir.96

"Nütfetin" ifadəsinin olduğu ayənin nömrəsi 46-dır.

**İnsanı qarışdırılmış nütfədən yaradaraq onu sınaqdan keçirmək məqsədilə eşidən və görən etdik. (İnsan surəsi, 2)**

"Nütfetin" sözünün əbcəd dəyəri 23-dür (ən kiçik əbcəd hesabı ilə).

"Nütfetin" sözündən etibarən ibarə sonuna qədər olan nöqtəli hərflərin əbcəd dəyəri 23-dür (ən kiçik əbcəd hesabı ilə).

> *Məgər o, kişi toxumundan axıdılan bir damla (nütfə) deyildimi?*
>
> **(Qiyamət surəsi, 37)**

Qiyamət surəsi 37-ci ayədəki "nütfə" ilə İnsan surəsi 2-ci ayədəki "nütfə" arasında istifadə edilən hərf növü 23-dür.97

Qiyamət surəsində 37-ci ayədəki "nütfə"dən etibarən İnsan surəsi 2-ci ayədəki "nütfəyə"yə qədər, "nütfə"yə aid hərf olan söz sayı 23-dür.98

## Pətəkdəki bucaqlar

> *Rəbbin bal arısına belə vəhy etdi: "Dağlarda, ağaclarda və insanların düzəltdikləri çardaqlarda özünə pətəklər hör.*
>
> **(Nəhl surəsi, 68)**

> *Sonra bütün meyvələrdən ye və Rəbbinin səndən ötrü asanlaşdırdığı yollarla get". O arıların qarınlarından tərkibində insanlar üçün şəfa olan müxtəlif rəngli bal çıxır. Həqiqətən, bunda düşünən adamlar üçün dəlillər vardır.*
>
> **(Nəhl surəsi, 69)**

Bilindiyi kimi bal arısı, hazırladığı balı altıbucaqlı şəklindəki evlərinə (pətəklərə) doldurmaqdadır. Pətək inşasında bütün şəkillər içində ən idealı altıbucaqlıdır. Məsələn, pətək gözləri beşbucaqlı, səkkizbucaqlı, doqquzbucaqlı və s. şəklində olsaydı, bütün kənarları bir-biriylə üst-üstə düşməyəcək; beləcə pətək gözləri arasında istifadə edilməyən boşluqlar qalacaqdı. Ancaq arılar Allahın ilhamı ilə altıbucaqlı şəkilli pətəklər düzəldərək, ən az bal mumu ilə ən çox bal yığarlar.

Bal arısından, baldan və pətəkdən bəhs edilən ayələr, Quranda yalnız bu ayələrdir. Bu ayələrdəki hərflərin əbcəd dəyəri də 720-dir (ən kiçik əbcəd hesabı ilə).

Pətəkdəki gözlərin daxili bucaqları cəmi 720 dərəcədir.

Pətəkdəki hər bir göz altıbucaqlıdır. Altıbucaqlıdakı hər bir daxili bucaq da 120 dərəcədir.

Nəhl surəsində bu mövzuya gələnə qədər olan ibarə sayı 120-dir.

## Kəhf Əhli və mağarada 309 il qalmaları

> *Yoxsa sən mağara və Rəqim əhlinin möcüzələrimizdən ən qəribəsi olduğunumu güman edirsən?*
>
> (Kəhf surəsi, 9)

“Kəhf Əhli” mənasını verən “Ashabe'l Kehf” ifadəsinin əbcəd dəyəri 238-dir (kiçik əbcəd hesabı ilə).

Surədə “Ashabe'l Kehfi” (Kəhf Əhli) ifadəsinə qədər olan heca sayı da 238-dir.99

Ayədə “Ashabe'l Kehfi”-ə (Kəhf Əhli) gələnə qədər istifadə edilən hərf növü 7-dir.100

“Ashabe'l Kehfi” (Kəhf Əhli) ifadəsindən etibarən ayə sonuna qədər olan söz sayı 7-dir.

Surədə Əshabı Kəhf hekayəsindəki, Rəbbimizin “Allah” olaraq zikr edilən adı 7 dəfə keçməkdədir.

“Ashabe'l Kehfi” (Mağara Əhli) səhifədəki 7-ci ibarədə var.

Bu ayə, səhifədə sondan başa doğru 7-ci ayədir.

> *Biz mağarada onların qulaqlarını illərlə qapalı saxladıq (onları yuxuya verdik).*
>
> (Kəhf surəsi, 11)

Quranda Əshabı Kəhfin mağarada nə qədər qaldıqları bildirilərkən "Onlar mağarada üç yüz il, üstəlik doqquz il də qaldılar.." (Kəhf surəsi, 25) deyilməkdədir. Təfsirçilər (təfsir edənlər) bu ayəni açıqlayarkən, Kəhf Əhlinin Hicri ilinə görə 300 il, Qəməri təqviminə görə isə 309 il yatdıqlarına işarə edildiyini ifadə etməkdədirlər.

Surədə "nə qədər illər" mənasını verən "sinine adeda" ifadəsinə qədər olan heca sayı tam 309-dur.101

Surədə "sinine adeda" ifadəsinə gələnə qədər olan nöqtəsiz hərf sayı 309-dur.

> *Sonra iki dəstədən hansının onların mağarada qaldıqları müddəti daha düzgün hesabladıqlarını bilmək üçün onları oyatdıq.*
>
> **(Kəhf surəsi, 12)**

Bu ayədə Əshabı Kəhfin oyandırılma səbəbi olaraq, hansı qrupun yatma müddətlərini daha yaxşı hesab edəcəyini ortaya çıxarmaq üçün olduğu bildirilməkdədir. Bu ayəyə gələnə qədər olan heca sayı tam 309-dur.102

> *Onlar mağaralarında üç yüz il qaldılar və doqquz (il) daha qatdılar.*
>
> **(Kəhf surəsi, 25)**

Quranda Əshabı Kəhfin mağarada qaldıqları müddətin birbaşa 309 il olaraq ifadə edilməyib, 9 illik bir müddətin əlavə edilməsi son dərəcə hikmətlidir. Çünki ifadə şəkli ilə Günəş və Ay illəri (Şəmsi və Qəməri illər) arasındakı fərqə diqqət çəkilməkdədir (doğrusunu Allah bilir).

Bilindiyi kimi günəş ili, Yer kürəsinin Günəş ətrafında dönməsindən meydana gəlir və Dünyanın müəyyən bir nöqtədən ard-arda 2 dəfə keçməsi arasında qalan 365,242217 günəş günü, bir günəş ilini meydana gətirər. Ay ili isə 354,36768 gündən ibarətdir ki, bu Ayın Yer kürəsi ətrafında 12 dəfə döndüyü müddətdir. Hesablayacaq olsaq, günəş və ay ili arasında 10,874537 gün fərq vardır. Buna görə 100 günəş ili 103 ay ilinə bərabər gəlir.

300 günəş ilinin ay ili olaraq qarşılığını tapmaq üçün isə (tam ayədəki kimi) 9 il daha əlavə etmək lazımdır.

Surədə bu ayəyə gələnə qədər olan ayə nömrələrinin cəmi 300-dür (Miladi 300 il, hicri 309 il deməkdir.)

Əshabı Kəhfdən və yuxu müddətlərindən bəhs edən son səhifə olan bu səhifədən sonra, Quranın sonuna qədər olan səhifə sayı 309-dur.

> *Beləcə onları oyatdıq ki, nə baş verdiyini bir-birindən soruşub öyrənsinlər. Onlardan biri: "Burada nə qədər qaldınız?" – dedi. Bəziləri: "Bir gün yaxud günün bir hissəsi qədər qaldıq" – dedilər. Digərləri də dedilər: "Qaldığınız müddəti Rəbbiniz daha yaxşı bilir. Birinizi bu gümüş pulunuzla şəhərə göndərin. Qoy baxsın ən təmiz yemək hansıdırsa, ondan sizə azuqə gətirsin. Amma ehtiyatlı olsun və sizin barənizdə heç kəsi duyuq salmasın!*
>
> **(Kəhf surəsi, 19)**

## Hz. Musa (ə.s)-ın doqquz möcüzəsi

> *Əlini qoynuna sal ki, əlin oradan ləkəsiz, ağappaq çıxsın. Firona və onun tayfasına göndərilən doqquz möcüzədən biri budur. Həqiqətən, onlar fasiq bir tayfadır!*
>
> **(Nəml surəsi, 12)**

“9 möcüzə” mənasını verən “tisi ayatin” ifadəsindən sonra ibarə sonuna qədər olan heca sayı 9-dur.

Ayədə “tisi ayatin” (9 möcüzə) ifadəsinə gələnə qədər, “tisi ayatin” ifadəsindəki hərflər 9 sözdə var.

“Tisi ayatin” (9 möcüzə) ifadəsindən etibarən ayə sonuna qədər olan söz sayı 9-dur.

“Tisi ayatin” (9 möcüzə), surədə sonundan əvvələ doğru 9-cu səhifədə var.

Ayədə “9” mənasını verən “tisi” sözünə gələnə qədər istifadə edilən nöqtəsiz hərf növü 9-dur.

“Tisi” (9) sözündən etibarən ibarə sonuna qədər istifadə edilən nöqtəsiz hərf sayı 9-dur.103

Tisi” (9) ayənin sonundan əvvələ doğru 9-cu sözdür.

Surənin müqədda hərfləri olan “ta, sin” hərflərinin əbcəd dəyəri 9-dur (ən kiçik əbcəd hesabı ilə).

## Şəhərdəki doqquzlu şəbəkə

*Şəhərdə doqquz adam var idi ki, bunlar Yer kürəsində fitnə-fəsad törədir, yaxşı işlər görmürdülər.*

(Nəml surəsi, 48)

"9 adam" mənasını verən "tis'atü rahtin" ifadəsindən etibarən ayə sonuna qədər, "tis'atü rahtin" ifadəsindəki hərflər 9 dəfə keçməkdədir.104

"Tis'atü rahtin" (9 adam) ifadəsindən etibarən ayə sonuna qədər olan nöqtəli hərf sayı 9-dur.

"Tis'atü rahtin" (9 adam) ifadəsindən etibarən ayə sonuna qədər istifadə edilən nöqtəsiz hərf sayı 9-dur.105

"Tis'atü rahtin" (9 adam) ifadəsində, surənin müqədda hərfləri olan "da, sin"ə aid hərflərin əbcəd dəyəri 9-dur106 (ən kiçik əbcəd hesabı ilə).

Hz. Saleh və Səmud qövmü hekayəsindəki ayə sayı 9-dur.107

## 99 qoyun iddiası

*Bu mənim qardaşımdır. Onun doxsan doqquz qoyunu, mənim isə bircə qoyunum vardır. Bununla belə: "Onu mənə ver!" – dedi və mübahisədə mənə üstün gəldi".*

(Sad surəsi, 23)

99 qoyunla əlaqədar mövzu, 21-ci ayədə izah edilməyə başlanmaqdadır. Hz. Davudun bəhsinin əvvəlindən (17-ci ayədən etibarən) 21-ci ayəyə gələnə qədər olan heca sayı 99-dur.108

99 qoyunla əlaqədar iddianın mövzusu, ayə olaraq 22-ci ayədə izah edilməyə başlanmaqdadır. 99 qoyun iddiası, ibarə olaraq isə 22-ci ayənin 2-ci ibarəsində izah edilməyə başlanmaqdadır və bu ibarə surədə sondan başa doğru 99 ibarədir.

99 qoyun iddiasının izah edilməyə başlandığı 22-ci ayənin 2-ci ibarəsindən etibarən, 24-cü ayədəki "onun qoyunları" mənasını verən "niacihi" ifadəsinə qədər heca sayı da 99-dur.

Surədə "99 qoyun" mənasını verən "tisin və tisinə na'ceten" ifadəsinin olduğu 23-cü ayəyə qədər, ayə sonlarındakı hərflərin əbcəd dəyəri 99-dur109 (ən kiçik əbcəd hesabı ilə).

"Bu mənim qardaşım, 99 qoyunu vardır" mənasını verən "haza ahi lehü tis'un ve tis'une na'ceten" ifadəsinin əbcəd dəyəri də 99-dur (ən kiçik əbcəd hesabı ilə).

## Yeddi göy

> *Yeddi göyü təbəqələr şəklində quran Odur. Sən Mərhəmətli Allahın yaratdığında qətiyyən bir uyuşmazlıq tapmazsan. Bir başını qaldırıb göyə diqqət yetir, heç onda bir çat görürsənmi?*
>
> **(Mülk surəsi, 3)**

"7 göy" mənasını verən "seb'a semavat" ifadəsində istifadə edilən hərf növü 7-dir.110

Ayədə "seb'a səmavat" (7 səma) ifadəsinə gələnə qədər olan hərf sayı 7-dir.

"Seb'a" (7) sözündən etibarən ayə sonuna qədər, "seb'a" sözündəki hərflər 7 dəfə keçməkdədir.111

Surədə "seb'a" (7) sözünə gələnə qədər, "seb'a" sözünün hərfləri 7 dəfə keçməkdədir.112

"Seb'a" (7) sözündən sonra ibarə sonuna qədər olan heca sayı tam 7-dir.

## On gecəyə and içmək

*And olsun dan yerinə! And olsun, on gecəyə.*

**(Fəcr surəsi, 1-2)**

Surədə "10 gecə" mənasını verən "leyalin aşar" ifadəsinə qədər, bu ifadəyə aid hərflər 10 dəfə keçməkdədir.113

Surədə "leyalin aşar" (10 gecə) ifadəsinə qədər olan nöqtəsiz hərf sayı 10-dur.

ƏLAVƏ BÖLMƏ

# Təkamül yalanı

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir.

Beləliklə, Allahın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allahın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.


Ammonit fosili — canlılar milyonlarca ildir dəyişməz qalır

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

## Keçilməz ilk pillə: Həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

## Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək

artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

> *"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". (Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

## XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə

irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

> *"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". (Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. ("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982, səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. (Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

> *Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". (Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

## Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.



DNT molekulu — həyatın son dərəcə kompleks quruluşu

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

**Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**

**Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**

**Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**

**Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

> *Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". (Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, cild 271, oktyabr 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

## Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: "Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz", - demək məcburiyyətində qalmışdı. (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)

## Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.



Təbii seleksiya iddiası təkamül nəzəriyyəsinin xəyali mexanizmidir

## Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər.

Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

> *Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

## Fosillər: Ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və

mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

> *"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". (Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:


Fosil qeydləri — təkamülün ən böyük böhranı

> *Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" (Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

## Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

> *"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". (Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, cild 87, 1976, səh. 133)*

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını

göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:



Canlı növləri fosil qeydlərində ilk gündən etibarən hazır və mükəmməl şəkildə ortaya çıxır

*"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". (Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

## İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn

edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

### Australopithecus

### Homo habilis

### Homo erectus

### Homo sapiens

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun australopithecus nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. (Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, cild 258, səh. 389)

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar australopithecuslardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "Homo sapiensə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. (J. Rennie, "Darwins Current Bulldog: Ernst Mayr", Scientific American, dekabr 1992)

Təkamülçülər “ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens” ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri australopithecus, homo habilis və homo erectusun dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. (Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, səh 221; M. D. Leakey, Olduvai Gorge, cild 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)

Habelə, homo erectus sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, homo sapiens neandertalensis və homo sapiens sapiens (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. (Time, noyabr 1996)

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

> *“Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər”. (S. J. Gould, Natural History, cild 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə australopithecus fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman

təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:


İnsanın təkamülü nağılını dəstəkləyən heç bir fosil qalığı yoxdur

*"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". (Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

## Darvin düsturu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin düsturu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər.

Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım

bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər.

Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər. Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. Maddə ancaq Allahın üstün yaratması ilə həyat qazanır. Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

## Göz və qulaqdakı texnologiya



Göz və qulaqdakı qüsursuz texnologiya təsadüflərlə izah edilə bilməz

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl “Necə görürük?” sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik

nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir.

Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz.

100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün

gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

